# AZƏRBAYCAN DİLİ

dövlət dili

5

DƏRSLİK



Layihə





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhmədd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

Layihə



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Layihə

Layihə

RAFİQ İSMAYILOV, ÜLKƏR NURULLAYEVA, REYHAN HƏBİBLİ

Ümumi təhsil müəssisələrinin **5**-ci sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(dövlət dili)*

fənni üzrə

## DƏRSLİK

©Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **trm@arti.edu.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

Layihə

# İÇİNDƏKİLƏR

## bölmə 1 Fərd və toplum


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Giriş | | | 6-7 |
| Fəsil 1 | Zəhmətkeşlik | Sözün həqiqi və məcazi mənası • Saitlərin növləri | 8-13 |
| Fəsil 2 | Mərhəmət | Qoşasaitli sözlərin yazılışı | 14-20 |
| Fəsil 3 | Fədakarlıq | Ahəng qanunu • Sözün tərkibi | 21-26 |
| | Ümumiləşdirici təkrar | | 27 |


## bölmə 2 Niyə belə deyirik?


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Giriş | | | 28-29 |
| Fəsil 1 | Rəmzləşmiş adlar | Sözün sətirdən sətrə keçirilməsi | 30-35 |
| Fəsil 2 | Rəvayətli ifadələr | Leksik və qrammatik şəkilçilər • Sözün başlanğıc forması | 36-43 |
| Fəsil 3 | Çin səddi | Qoşa samitlə bitən təkhecalı sözlər | 44-48 |
| | Ümumiləşdirici təkrar | | 49 |


## bölmə 3 Balaca qəhrəmanlar


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Giriş | | | 50-51 |
| Fəsil 1 | Hüquqsuz qızlar | Samitlərin növləri | 52-59 |
| Fəsil 2 | Dostluq naminə | "K" samitinin tələffüzü. K-y əvəzlənməsi | 60-65 |
| Fəsil 3 | Balaca səfillər | "Q" samitinin tələffüzü. Q-ğ əvəzlənməsi | 66-72 |
| | Ümumiləşdirici təkrar | | 73 |


Layihə

## 4 bölmə Tarixi abidələr


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Giriş | | | 74-75 |
| Fəsil 1 | Qalalar | Sözün quruluşca növləri | 76-83 |
| Fəsil 2 | Tarixi körpülər | Mürəkkəb sözlərin yazılışı | 84-89 |
| Fəsil 3 | Məbədlər | Sözün leksik və qrammatik mənası<br>Əsas və köməkçi nitq hissələri | 90-94 |
| | Ümumiləşdirici təkrar | | 95 |


## 5 bölmə Süni intellekt və robotlar


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Giriş | | | 96-97 |
| Fəsil 1 | Süni intellekt | İsim • Toplu isimlər | 98-102 |
| Fəsil 2 | Robot texnikası | İsmin hal şəkilçiləri | 103-109 |
| Fəsil 3 | Süni intellektlə gələcəyə doğru | İsmin mənsubiyyətə görə dəyişməsi | 110-116 |
| | Ümumiləşdirici təkrar | | 117 |


## 6 bölmə Açılmamış sirlər


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Giriş | | | 118-119 |
| Fəsil 1 | Nəhənglərin sirri | Söz birləşmələri | 120-125 |
| Fəsil 2 | Qədim dövrün abidələri | Cümlə üzvləri: mübtəda, xəbər | 126-133 |
| Fəsil 3 | Yadplanetlilər | Cümlədə söz sırası • Cümlənin məqsəd və intonasiyaya görə növləri | 134-138 |
| | Ümumiləşdirici təkrar | | 139 |
| | İzahlı sözlük | | 140-143 |


Layihə

bölmə 1

# Fərd və toplum

**a** **Məlumatlarla tanış olun və tapşırıqları yerinə yetirin.**



**Bill Geyts**

Dünyanın ən zəngin insanlarından biri, Microsoft şirkətinin banisi və sahibi




- **Aşağıdakı sözün izahını Bill Geytsin müvafiq tövsiyəsi ilə əlaqələndirin. Həyatdan nümunələr söyləməklə bu haqda danışın.**

*Əzmkar* – öz məqsədini həyata keçirməyə çalışan.

- **Bill Geytsin aşağıdakı fikirlərinə münasibət bildirin.**
- *Sızıldamaq əvəzinə, səhvlərinizdən dərs çıxarmağı bacarın.*
- *Komanda ilə işləyərkən uğur qazanmaq daha asandır.*

## Təqdimat

**b** **"Həyatdakı idealım" mövzusunda təqdimat hazırlayın.**

***Yəqin ki, həyatda oxşamaq istədiyiniz, ideal kimi seçdiyiniz insanlar var. Bunlar tarixi şəxsiyyətlər və ya tanıdığınız müasir insanlar ola bilər.***

**Plan**
- İdealınız kimdir?
- Siz nə üçün məhz bu insanı ideal seçmisiniz?
- Sizcə, o hansı xüsusiyyətlər hesabına cəmiyyətdə hörmət sahibi olub?
- Bu xüsusiyyətləri qazanmaq üçün nə etmək lazımdır?

Layihə

## Danışma

**c** **Diaqrama əsasən suallara cavab verin:**

**1.** Diaqramdakı məlumatlar nəyi əks etdirir?
**2.** Diaqramın sütunları nəyi ifadə edir?
**3.** Şagirdlərin çoxu uğurun sirrini nədə görür?
**4.** Daha hansı xüsusiyyətləri uğur qazanmaq üçün vacib hesab edirsiniz?




**ç** **Aşağıdakı cümlələri davam etdirin. Diaqramdakı məlumatları əks etdirən bir neçə cümlə yazın.**

*V[a] sinfində "Uğurun sirri" mövzusunda sorğu keçirilib. Sorğuda 27 şagird iştirak edib...*

**d** **Şəkillərə baxın. Verilmiş başlıqlara uyğun uğur hekayəsi düşünüb danışın.**

**I Qrup:** ***Əməkdaşlıq*** **II Qrup:** ***Vətənpərvərlik*** **III Qrup:** ***Özünəinam***







Layihə

**1 a** **“Qurmaq” sözünün izahlarına əsasən “qurucu” sözünün mənasını təxmin edin. Sizcə, kimləri qurucu adlandırırlar?**

**1.** Yaratmaq, təşkil etmək, meydana gətirmək. □ Yeni həyat qurmaq.
**2.** Tikmək, təsis etmək, inşa etmək. □ Fabrik qurmaq.
**3.** Düzəltmək, tərtib etmək. □ Məclis qurmaq.
**4.** Xəyalında yaratmaq. □ Planlar qurmaq.

**b** **Aşağıdakı ifadələrin mənasını izah edin.**

*dövlətin qurucusu, şirkətin qurucusu*

**c** **Mətnin adına diqqət edin. Sizcə, bu mətndə nədən danışılır?**

# Qurucu

Hər gün işdən gəlib şam etdikdən sonra qızım Zeynəb başımın üstünü kəsdirir, məni cürbəcür oyuna, söhbətə çəkir. Onunla əylənmək mənə də zövq verir, könlümü açır. Odur ki çağırışına həvəslə qoşuluram. Onu sevindirmək, maraq yaratmaq üçün hər dəfə təzə bir şey axtarıb tapıram. Yatanacan başını qatmağa çalışıram.

Bir axşam evə çox yorğun gəlmişdim. Həmin gün mədəndə qəza baş vermişdi. Mən də bütün günü yenicə qazıb qurtardığımız neft quyusunun yanında olmuşdum. Qızım isə, həmişəki kimi, oynamaq həvəsində idi. Yorğun olsam da, qəlbini qırmaq istəmədim. İkimiz də stolun arxasına keçdik. Zeynəb iki ayağını bir başmağa dirəmişdi ki, gəl təzə oyun oynayaq. Həvəssiz halda onu məşğul eləmək üçün yeni bir əyləncə tapmağa çalışırdım. Fikirləşə-fikirləşə stolun üstündəki domino qutusunu qarşıma çəkdim. Özüm də fərqinə varmadan qara mərmər kimi işıldayan balaca daşları bir-birinin üstünə qoymağa başladım. Axırıncı daşı qoyanda gördüm ki, stolun üstündə əməlli-başlı bir “bina” ucalır. Qızımın da baxışları qəribə bir maraqla bu “bina”ya zillənmişdi.

– Hə, necədir, xoşun gəlir? – qızımdan soruşdum.

– Yaxşıdır, ata, yaxşıdır!.. – deyə o, balaca əllərini sevinclə bir-birinə vurub şappıldatdı.

Sonra nə fikirləşdisə, tez xəbər aldı:

– Ata, birdən uçursam, nə edərsən?




Layihə

– Yenidən quraram!..

Qızım şəhadət barmağı ilə “bina”ya necə toxundusa, domino daşları bir andaca stolun üstünə və döşəməyə səpələndi. Zeynəb yerə tökülmüş daşları yığdı, gətirib qabağıma tökdü... Az keçmədi, bayaqkı “bina” hazır oldu. Qızım yenə uçurtdu... Mən də yenə qurdum... Qızımın bunu nə vaxt uçuracağını gözləyirdim. O, yenə zəhmətimi zay etsəydi, yəqin ki, bu işi yenidən görməyə səbrim çatmayacaqdı. Mən dedim:

– İstəyirsən, özün qur.



“Bina”nı özüm uçurub domino daşlarını ona tərəf itələdim. Zeynəb həvəslə ağ xallı qara daşları bir-birinin üstünə düzməyə başladı. Düzdükcə sevinci yerə-göyə sığmırdı. Lakin qurduğu evcik yarıya çatmamış uçdu. Qızım pərt oldu, ancaq ruhdan düşmədi, inadından dönmədi. Mən də ona səhvlərini başa saldım. Dedim ki, bala, bir işə başlayanda bünövrəsinə fikir ver. Bünövrə gərək düzgün qoyula. Bir balaca əyri oldu, qurtardı, duruş gətirməz.

Qızım da dediklərimə diqqətlə qulaq asır, daşı daş üstünə qoyurdu. Gəlirdi, gəlirdi, lap az qalmış daşlar sürüşüb ətrafa səpələnirdi... O da yenidən yığır, yenidən işə başlayırdı. Zeynəbin hər dəfə daha həvəslə, daha inadla işə girişdiyini gördükcə sevinir, fərəhlənirdim. Ürəyimdə deyirdim: “Bax belə, ağıllı qızım, həmişə çətin işin dalınca get! Qurmağa, yaratmağa, ucaltmağa çalış, ay mənim qurucu qızım!”

**Söz mücrüsü**

- başının üstünü kəsdirmək
- iki ayağını bir başmağa dirəmək
- yerə-göyə sığmamaq
- ruhdan düşmək
- səbri çatmamaq
- bünövrə

Nəhayət, alındı! Qızımın “tikdiyi ev" hazır idi. Bu onun həyatında ilk yaradıcılıq işi idi. Zeynəb fəxrlə gah öz "sənət əsəri"nə, gah da mənə baxırdı. Deyəsən, məndən tərif gözləyirdi. Mən:

– Hə, görək sən tikdiyin ev doğrudanmı möhkəmdir?

Bunu deyib mən də şəhadət barmağımı domino daşlarından düzəldilmiş evə uzatdım. Birdən qızım balaca əlləri ilə əlimdən yapışdı:

– Yox, atacan, dəymə!

– Niyə, qorxursan ki, uçar?

– Hə, bilirəm ki, uçacaq. Amma bayaqdan əziyyət çəkirəm axı. Qoy bir az dursun da.

Mən gülüb qızımın üzündən öpdüm. Elə bu zaman anasının səsi gəldi:

– Zeynəb, yatmaq vaxtıdır.

*Gülhüseyn Hüseynoğlunun eyniadlı hekayəsi əsasında işlənmişdir.*

Layihə

## Nə anladın?

**ç** **Mətnə əsasən suallara cavab verin.**

**1.** Ata qızı ilə necə vaxt keçirirdi?
**2.** Ata nə üçün yorğun idi?
**3.** Atası qızına hansı məsləhətləri verdi?
**4.** Zeynəb nə ilə fəxr edirdi?

**d** **Hadisələrin ardıcıllığını müəyyən edərək "Qurucu" mətninin məzmununu danışın.**

- "Ev" qurmaq cəhdi
- Ağır iş gününün sonu
- Uğur qazanmağın sevinci
- Uçurmaq həvəsi
- Atanın məsləhəti
- Yeni oyun

## Düşün və cavab ver

**2** **a** **Mətndən hansı epizodlar ataya aid aşağıdakı xüsusiyyətləri əks etdirir?**

*qayğıkeş, səbirli, yaradıcı*

**b** **"Qızım pərt oldu, ancaq ruhdan düşmədi, inadından dönmədi" fikri qızın hansı xüsusiyyətini nümayiş etdirir?**

**c** **Sizcə, Zeynəbdən sonra atası yenidən dominodan "ev" qursaydı, qızı onu da fikirləşmədən uçurardımı? Fikrinizi əsaslandırın.**

**ç** **Aşağıdakı fikri mətnin məzmunu ilə əlaqələndirib şərh edin.**

*Başqasının əməyinə hörmət etmək lazımdır.*
*İnsanın öz əlləri ilə yaratdığı onun üçün əziz və doğma olur.*






Layihə

## Söz ehtiyatı

**d** **“Daş” sözünün mətndə işləndiyi mənasını müəyyən edin. Bu sözü digər mənalarında cümlədə işlədin.**

*Domino daşları bir andaca stolun üstünə və döşəməyə səpələndi.*



**1.** Təbiətdə parçalar, yaxud böyük və kiçik kütlələr şəklində təsadüf olunan, suda həll olunmayan bərk cisim, süxur;



**2.** Dama, nərd və başqa oyunlarda ağac, sümük və s.-dən düzəldilmiş fiqurlardan hər biri.



**3.** Bəzək üçün işlədilən firuzə, yaqut, almaz, brilyant və s.-yə verilən ümumi ad; daş-qaş.

• **Sizcə, “daş” sözünün hansı mənası əvvəl yaranmışdır?**

**Bunları bilməliyik** SÖZÜN HƏQİQİ VƏ MƏCAZİ MƏNASI

| Həqiqi məna | Məcazi məna |
|---|---|
| Sözün əvvəl yaranmış ilkin mənası onun həqiqi mənasıdır: **Ayaq** – insan və heyvanın yeriməsinə xidmət edən bədən üzvü. *Uşağın ayağı.* | Sonradan yaranmış məna isə onun məcazi mənasıdır: **Ayaq** – bir sıra şeylərin ayağa oxşayan, yerə dirənən hissəsi, dayağı, qıçı. *Masanın ayağı.* |

**e** **Nöqtələrin yerinə elə söz seçin ki, sifətlər məcazi mənada işlənsin.**

*ağır ... (**gün/çanta**), qara ... (**saç/xəbər**), şirin ... (**çay/söz**), açıq ... (**fikir/qapı**)*

Söz birləşmələri də məcazi mənada işlənə bilir:

***qulaq asmaq*** *– dinləmək*

Belə ifadələr **frazeoloji birləşmə** adlanır.



*köynək asmaq*



*qulaq asmaq*

**ə** **Fərqləndirilmiş sözləri “Söz mücrüsü”ndəki müvafiq frazeoloji birləşmələrlə əvəz edin.**

**1.** Hər gün eyni sözləri eşitməyə ***dözə bilmirdi***.
**2.** Uşaq ***tərslik edirdi***, öz dediyindən dönmürdü.
**3.** Babası arzuladığı velosipedi ona aldığı üçün ***sevinirdi.***
**4.** Zeynəb oynamaq istədiyi üçün atasının ***yanından ayrılmırdı.***

Layihə

## Dinləmə

**3 a** **Müəllimin oxuduğu "Qazanılmış manat" mətnini dinləyin.**
**Mətnə əsasən cümlələri tamamlayın.**

**1.** Ata var-dövlətini başqasına vermək istəyir, çünki... .
**2.** Ana oğluna hər gün bir manat pul verirdi ki, ... .
**3.** Ata pulu oğlunun qazanıb-qazanmadığını yoxlamaq istəyirdi, ona görə də ... .

**b** **Oğlanın başına gələn hadisələri öz dilindən nəql edin.**
**Aşağıdakı plandan istifadə edin.**

- Atanın iradı
- Atanın tələbi
- Ananın oğlunu müdafiə etməsi
- Atanın sınağı
- Qazanılmış manat



## Düşün və cavab ver

**c** **Oğlanın xarakterindəki əsas xüsusiyyətləri müəyyən edin.**
**Mətndən uyğun epizodları danışmaqla fikrinizi əsaslandırın.**

**ç** **Mətn boyu oğlanın xarakteri necə dəyişir?**
**Mətnə istinad edərək fikrinizi əsaslandırın.**

**d** **Atanın dediyi fikri şərh edin və mətnin əsas ideyası ilə əlaqələndirin.**

*Özü qazana bilməyən oğul ata malının da qədrini bilməz.*

**e** **Oxuduğunuz "Qurucu" və dinlədiyiniz "Qazanılmış manat" mətnlərindəki ata obrazlarını müqayisə edin. Onların oxşar və fərqli cəhətlərini müəyyən edin.**

- Ata övladına nə öyrətmək istəyirdi?
- Ata məqsədinə çatmaq üçün hansı üsuldan istifadə etdi?

**ə** **"Qurucu" və "Qazanılmış manat" mətnlərini mövzu, məzmun və ideya baxımından müqayisə edin.**

Layihə

## Yazı

**4 a** **Nöqtələrin yerinə qalın, dodaqlanan saitlər artırıb sözlər yaradın.**

*d...z*   *y...l*

**Bunları bilməliyik** SAİTLƏRİN NÖVLƏRİ

Saitlər tələffüz zamanı dilin, dodaqların və alt çənənin vəziyyətinə görə müxtəlif növlərə bölünür.

| Saitlərin növləri | | | | | |
|---|---|---|---|---|---|
| *Qalın* | *İncə* | *Dodaqlanan* | *Dodaqlanmayan* | *Açıq* | *Qapalı* |
| *a, ı, o, u* | *e, ə, i, ö, ü* | *o, u, ö, ü* | *a, ı, e, ə, i* | *a, o, e, ə, ö* | *ı, u, i, ü* |

**b** **Hansı sözdəki saitlər verilmiş xüsusiyyətlərə uyğundur.**

***1-ci sait:*** *incə, dodaqlanmayan, açıq*
***2-ci sait:*** *qalın, dodaqlanan, qapalı*

**a.** yoldaş   **b.** uşaq   **c.** gəmi   **d.** məzmun

Bir çox saitlərin ortaq xüsusiyyətləri olur. Məsələn, u və ü qapalı, dodaqlanan saitlərdir. Belə saitlərin iştirak etdiyi sözlərin yazılışında bəzən səhvə yol verilir. *Məsələn: sübut – subut*

**c** **“A” və “ə” saitlərinin ortaq xüsusiyyətlərini müəyyən edin.**

**1.** *incə*   **2.** *dodaqlanmayan*   **3.** *açıq*

**Nöqtələrin yerinə hansı sait yazılmalıdır: “a”, yoxsa “ə”?**

həy...can   qəhr...man   pillək...n

**ç** **“Ü” və “i” saitlərinin ortaq xüsusiyyətlərini müəyyən edin.**

**1.** *qapalı*   **2.** *dodaqlanan*   **3.** *incə*

**Nöqtələrin yerinə hansı sait yazılmalıdır: “ü”, yoxsa “i”?**

müdr...k   müh...t   müd...r

**d** **“Ü”, yoxsa “u” ?**

m...barək   n...munə   m...haribə

**e** **“O”, yoxsa “a” ?**

pr...blem   k...mandir   k...llektiv   k...nsert

Layihə

2-ci fəsil

# Mərhəmət

## 1a Bir boşqab sıyıq



I Qarabağ müharibəsi idi. Elxangilin ailəsi Kəlbəcərdən köçüb Goranboy rayonunda, qaçqın şəhərciyində məskunlaşmışdı. Elxanın atası erməni işğalçıları ilə döyüşdə qəhrəmancasına həlak olmuşdu. Ailə üçün çətin günlər idi. Ana təkbaşına bir oğul və iki qız böyüdürdü. O, rayon mərkəzindəki idarələrdən birində xadiməlik edirdi. Lakin aldığı maaş uşaqların əyin-başına, yeməyinə çatmırdı. Ona görə corab, jaket toxuyur, onları sataraq ailəsini dolandırırdı.

Elxan ailənin böyük oğlu idi. Artıq on dörd yaşına çatmışdı. Çox diribaş, bacarıqlı oğlan idi. Dərslərini əla oxuyurdu. Müəllimlər ondan həmişə razılıq edirdilər. Elxan daim döş cibində atasının ona yazdığı son məktubu gəzdirirdi. Məktubun son sətirləri ona daha çox çalışmaq üçün güc, qüvvət verirdi:

“Oğlum, sən indi evin kişisisən. Anandan, bacılarından muğayat ol. Yaxşı oxu. Mən istəyirəm, sən oxuyub dünya şöhrətli həkim olasan...”

Elxan anasına kömək etməyə çalışırdı. Dərsdən sonra yaxınlıqdakı kəndləri ev-ev gəzir, anasının toxuduğu geyim şeylərini satırdı.

***

Dərs ilinin sonu idi. Elxan bazar günü səhər durub torbasını yığanda evdəkilər hələ yatırdı. Elxan baxdı ki, çörək qabında cəmi üç dilim çörək qalıb. Çörəyə əl vurmayıb anasına və bacılarına saxladı. Öz-özünə düşündü: “Bir şey sataram. Puluna çörək alıb yeyərəm”. Lakin artıq havalar istiləşdiyindən yundan toxunmuş geyim əşyalarına ehtiyac azalmışdı. Elxan səhərdən bəri heç bir şey sata bilməmişdi. Aclıq bir yandan, işinin gətirməməyi də bir yandan Elxanı taqətdən salmışdı. Ancaq dincini almadan gəzir, “corab, jaket, şərf”, – deyə kəndin küçələrinə səs salırdı.

Qarşıda ikimərtəbəli çəhrayı ev görünürdü. Bu evin yiyəsi gülərüz bir qadın idi. Elxan onu tanıyırdı. Qadın hərdən ondan bir şey alar, almasa da, şirin sözlə dindirər, hal-əhval tutardı: “Mehri xalan sənə qurban... Necəsən, qadan alım... Anana Mehri xaladan salam de...”



Layihə

Elxan qərara gəldi ki, Mehri xalanın qapısını döyüb bir parça çörək istəsin. “Yox, utanıram”, – deyə bir anlığa düşündü. Amma çarəsi yox idi, acından başı hərlənirdi. Çəkinə-çəkinə qapını döydü. İçəridən tanış səs gəldi:

– Gəldim, gəldim.

Qapı açıldı. Mehri xala, həmişəki kimi, şirin-şirin dilləndi:

– Bıy, başına dönüm. Bu istilər düşən vaxt sən niyə yun şeylər satırsan?

Bu an utandığından Elxanın çörək istəməyə dili gəlmədi:

– Mehri xala, mənə bir stəkan su verə bilərsiniz?

Qadın diqqətlə Elxana baxıb dedi:

– Bir içəri keç görüm.

Sonra uşağın tərəddüd etdiyini görüb əlindən tutdu və otağa aparıb stol arxasında əyləşdirdi. Özü mətbəxə keçib tez də qayıtdı. Əlində bir boşqab sıyıq və lavaş var idi. Bunu görən Elxan ayağa qalxmaq istədi:



– Yox, mən eləcə su...

Mehri xala onun çiynindən basıb ərklə dedi:

– Az danış! Çörəyini ye! Heç sifətinin rəngindən xəbərin var?!

Bunu deyib o, Elxanın torbasını götürdü:

– Mən də baxım görüm boğçanda nə var, nə yox.

“Yəqin, sıyığın əvəzində bir şey alacaq”, – deyə Elxan düşündü və bir az rahatlaşıb iştahla sıyığı yedi.

Mehri xala torbadan bir cüt corab çıxarıb əlində tutdu:

– Bu corabı qardaşım uşaqlarına göndərəcəyəm. Onlar İrkutskda yaşayırlar. Ora həmişə soyuqdur. Bunu deyib qadın Elxanın cibinə nə isə basdı. Elxan pulu götürmək istəmədi:

– Lazım deyil... Bəs sıyıq?..

– Nə?! Utanmırsan?!. Yeri, yeri, yoxsa qulağını elə dartaram ki...

***

Bu hadisədən illər keçmişdi. Elxan Mahmudov paytaxt klinikalarından birində baş həkim təyin olunmuşdu...

*Rafiq Ələkbəroğlu*

**Söz mücrüsü**

- məskunlaşmaq • diribaş
- şöhrətli • muğayat olmaq
- taqətdən salmaq • ərk
- tərəddüd etmək

Layihə

## Söz ehtiyatı

**b** **Nöqtələrin yerinə "Söz mücrüsü"ndən uyğun gələn sözü müəyyən edin.**

**1.** Qızım, yol çox sürüşkəndir, özündən ... .
**2.** İsti hava və susuzluq yolçunu ... .
**3.** Rəsul ... , hansı mövzuda esse yazacağına qərar verə bilmirdi.

**c** **Mətndən Mehri xalanın nitqinə aid cümlələri oxuyun. Sizcə, Mehri xala doğrudanmı Elxanın qulağını dartacaqdı? Fikrinizi əsaslandırın.**

*– Nə?! Utanmırsan?!. Yeri, yeri, yoxsa qulağını elə dartaram ki...*

• **"Ərk" sözünün izahını oxuyun və Mehri xalanın davranışı ilə əlaqələndirib şərh edin.**

***Ərk*** *– bir şəxsin başqa birisi ilə sərbəst davranmasına – onu danlamasına, nəsihət verməsinə və s. yol verən yaxınlıq münasibəti.*

## Nə anladın?

**ç** **Mətnin məzmununa aid sualları cavablandırın.**

**1.** Nə üçün Elxangilin ailəsi yaşayış yerlərini dəyişmişdi?
**2.** Elxanın ailəsi necə dolanırdı?
**3.** Elxan ailəsinə necə kömək edirdi?
**4.** Mehri xala kim idi?

**d** **Yeni sözlərdən istifadə etməklə mətnin illüstrasiyalara uyğun epizodlarını danışın.**



## Düşün və cavab ver

**e** **Mətnin hansı epizodlarında Mehri xalanın aşağıdakı xüsusiyyətləri əks olunur?**

*mərhəmətli, mehriban, anlayışlı*

Layihə

**2 a “Bir boşqab sıyıq” mətnini Elxanın dilindən nəql edin. Elxanın duyğu və düşüncələrini əks etdirməklə mətni genişləndirin.**

- Doğma şəhəri haqqında fikirləri
- Atasının məktubunu oxuyanda keçirdiyi hisslər
- Ailəsinə qarşı münasibəti
- Mehri xala haqqında düşüncələri

**b Sizcə, Elxan atasının yazdığı məktubu niyə cibində gəzdirirdi? Bu məktub Elxanın həyatına və xarakterinə necə təsir etdi?**

**c Sizcə, bu mətni bitmiş hesab etmək olarmı? Fikrinizi əsaslandırın.**

**ç Plana və illüstrasiyalara əsasən hadisələrin davamı ilə bağlı mətn qurun və nəql edin.**

- *Elxanın məşhur cərrah olması*
- *Əməliyyata ehtiyacı olan xəstə*
- *Pasiyentin Mehri xala olduğunun aydınlaşması*












## Dinləmə

**3 a** **“Bir boşqab sıyıq” mətninin ikinci hissəsini dinləyin və öz variantınızla müqayisə edin.**

- **Hansı fərqli və oxşar epizodlar var?**
- **Müəllifin versiyasında hansı epizodlar daha çox xoşunuza gəldi? Niyə?**

**b** **“Bir boşqab sıyıq” mətnində hansı epizodlar sizə təsir etdi? Mətnin həmin hissələrini danışın.**

**Yadda saxla**

*Mətndəki epizodlarda obrazların xarakteri aydınlaşır. Obrazların davranışı mətnin ideyasını müəyyənləşdirməyə kömək edir.*

***Epizod:*** Mehri xala Elxanın ac olduğunu anlayıb onu sıyığa qonaq etdi.
***Xarakter:*** xeyirxah
***İdeya:*** İnsanlar bir-birinə təmənnasız yaxşılıq etməlidir.

**c** **“Bir boşqab sıyıq” mətnində hansı epizodlarda baş qəhrəmanların xarakteri açılır? Cədvəli tamamlamaqla obrazların davranışlarını mətnin ideyası ilə əlaqələndirin.**

| Obraz | *Elxan* | *Mehri xala* |
|---|---|---|
| Xarakter | *Qayğıkeş* | |
| Epizod | | |
| İdeya | | |

**ç** **Atalar sözlərini hansı obrazın davranışı ilə əlaqələndirmək olar? Atalar sözlərini izah etməklə seçiminizi əsaslandırın.**

**1.** Yaxşılıq elə ki, başına gəlsin.
**2.** Yaxşılıq heç vaxt unudulmur.

**d** **Sizcə, müəllif mətni nəyə əsasən “Bir boşqab sıyıq” adlandırıb?**

**a.** Əsas fikri vurğulayır.
**b.** Məzmunla bağlı açar sözü diqqətə çatdırır.
**c.** Obrazların nitqindən sitat gətirir.

- **Əsas obrazın xarakteri ilə əlaqələndirərək hekayənin adını dəyişin.**

Layihə

## Yazı

**4 a** **Cümlələrin “Bir boşqab sıyıq” mətnindəki hansı obrazın nitqinə aid olduğunu müəyyən edin.**

– Oğlum, sən indi evin kişisisən.
– Mənə bir stəkan su verə bilərsiniz?
– Bu corabı qardaşım uşaqlarına göndərəcəyəm.
– Doktor, Goranboy rayonundan ağır vəziyyətdə bir xəstə daxil olub.

**Bunları bilməliyik** DİALOQ

İki və daha çox obraz arasındakı söhbətə **dialoq** deyilir. Yazıda hər bir obrazın nitqi yeni sətirdən başlayır və qarşısında tire ***(–)*** işarəsi qoyulur. Müəllifin nitqindən sonra qoşa nöqtədən istifadə olunur. Məsələn:

*Cümə günü səhər mən onu çağırırdım:*
*– Vaqif, ay Vaqif!*
*– Gəldim, Arif.*
*Vaqif özünü yetirib soruşdu:*
*– Gecikmirik ki?*
*– Yox, hələ iyirmi dəqiqə var.*
*– Nə yaxşı! Onda tələsməyə dəyməz. Asta-asta gedək.*

**b** **Əməliyyatdan sonra Mehri xala ilə Elxan həkimin görüşünü, onlar arasındakı dialoqu təxəyyülünüzə görə təsvir edib yazın. Müvafiq durğu işarələrindən istifadə edin.**



Layihə

## Yazı

**5 a** **Hansı sözdə saitlər yanaşı işlənmişdir?**

**a.** məktub **b.** əhəmiyyət **c.** şərait **d.** səkkiz

**Bunları bilməliyik** QOŞASAİTLİ SÖZLƏRİN YAZILIŞI

Qoşasaitli sözlərdə iki sait yanaşı işlənir. *Məsələn: təb**iə**t*
Bu cür sözlər iki qrupa bölünür:
**1.** Eynicinsli qoşasaitli sözlər: *m**aa**ş*
**2.** Müxtəlifcinsli qoşasaitli sözlər: *çemp**io**n, **ai**lə*
Eynicinsli qoşa saitlər bir uzun sait kimi tələffüz olunur. *Məsələn: [ma:ş]*
Bəzi müxtəlifcinsli saitlərin tələffüzü zamanı onların arasına [**y**] samiti əlavə edilir.
*Məsələn: çemp**io**n [çempiyon], **ai**lə [a:yilə]*
Bəzi müxtəlifcinsli saitlərin yazılışı ilə tələffüzü fərqlənmir.
*Məsələn: akt**ua**l, f**au**na, s**əa**dət, m**üə**llim*

**b** **Cədvəldəki nümunələrə əsasən verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.**

*şayir, faciyə, inşahat, marif, təccüb, stadiyon*

| Düzgün | Yanlış |
|---|---|
| sait | sayit |
| camaat | camahat |

**c** **Səhvləri düzəltməklə cümlələri köçürün.**

**1.** Əlağa çox mehriban və əlaçıq uşaqdır.
**2.** Dayoğlu bu il universitetə qəbul olub.
**3.** Səyidə sahat altıda radiyoda çıxış edəcək.
**4.** Zomağazadan akvariyum balıqları üçün yem aldım.

**Yadda saxla**

| Düzgün | Yanlış |
|---|---|
| bac**ıo**ğlu | bacoğlu |
| z**oo**park | zopark |

**ç** **Qoşasaitli sözləri orfoqrafik normalara uyğun yazaraq cədvəl üzrə qruplaşdırın.**

[inşa:t], [Nayilə], [təbi:], [müasir], [əmtə:], [fəal], [ka:yinat]

| Eynicinsli qoşasaitli sözlər | Müxtəlifcinsli qoşasaitli sözlər |
|---|---|
| | |

**d** **Dördündən biri səhv yazılmışdır.**

**a.** zəif **b.** mayili **c.** dairə **d.** ictimai
**a.** təssüf **b.** məəttəl **c.** bədii **d.** mətbəə
**a.** xalaoğlu **b.** üzüaşağı **c.** başaçıq **d.** əmioğlu

Layihə

# Fədakarlıq

**1 a** **Qeydlər götürməklə “Əsl yoldaş” mətnini dinləyin.**
**Qeydlər əsasında mətnin qısa məzmununu danışın.**

**b** **İllüstrasiyada təsvir edilmiş epizodlar mətnin hansı hissəsinə aiddir:**

***1.*** *Giriş*
***2.*** *Əsas hissə*
***3.*** *Sonluq*

a


b


c


**c** **Mətnə istinad etməklə cümlələri tamamlayın.**

**1.** Ənvər cibxərcliyini daxıla yığırdı ki, ... .
**2.** Ənvər dərs ilinin sonunu həsrətlə gözləyirdi, çünki ... .
**3.** Ənvərin dostu Ziya çətin vəziyyətə düşmüşdü, çünki ... .
**4.** Ənvər velosiped almaq üçün topladığı pulları Ziyaya verdi, çünki ... .
**5.** Valideynləri səhəri günü Ənvərə arzuladığı velosipedi aldılar, çünki ... .

**ç** **Aşağıdakı suallara cavab verməklə Ənvərə və onun valideynlərinə münasibət bildirin.**

- Ənvər dostuna kömək etmək üçün nəyi qurban verdi?
- Ənvərin hərəkəti Ziyaya necə təsir etdi?
- Valideynləri Ənvərin hərəkətinə necə reaksiya verdilər?

**d** **Sözün izahını oxuyun və mətnin ideyası ilə əlaqələndirin.**

***fədakar*** – öz mənafeyinə zidd olsa belə, başqalarına yardım edən, özünü qurban verməkdən çəkinməyən; altruist.

**e** **Situasiyalara nümunə söyləməklə fədakarlıq haqqında danışın.**

- Canını Vətən uğrunda fəda etmək
- Həyatını övladı üçün fəda etmək
- Ömrünü peşəsi üçün fəda etmək

Layihə

## 2 a Səxavətli ağac



Meşədə yoğun gövdəli, qollu-budaqlı alma ağacı vardı. O, balaca bir oğlanla dostluq edirdi. Oğlan hər gün ağacın yanına gəlir, tökülmüş yarpaqları yığıb çələng hörür, tac kimi başına qoyaraq özünü meşənin şahı sayırdı. O, ağacın gövdəsinə dırmaşır, budaqlarında yellənirdi. Yorulanda da ağacın kölgəsində yuxuya gedirdi. Alma ağacı bu balacaya öyrəşmişdi. Hər dəfə onu görəndə çox xoşbəxt olurdu.

Amma vaxt keçir, oğlan böyüyürdü. Alma ağacı günlərini daha çox təklikdə keçirməli olurdu.

**Söz mücrüsü**

- səxavətli • işinə yaramaq
- gözü yolda qalmaq • kötük

Bir dəfə oğlan Alma ağacının yanına gələndə ağac dedi:

– Bura gəl, oğlan, mənim budaqlarımda yellən, almalarımdan ye.

– Mən artıq böyümüşəm, ağaclara dırmaşmaq mənə yaraşmaz, – deyə oğlan cavab verdi. – İndi başqa əyləncələr arzusundayam. Amma bunun üçün pul lazımdır. Məgər sən bunu mənə verə bilərsən?

– Çox şad olardım, – deyə Alma ağacı ah çəkdi. – Amma mənim pulum yoxdur. İstəyirsən, almalarımı dər, apar şəhərdə sat. Onda sənin pulun olar və sən xoşbəxt olarsan!

Oğlan ağaca dırmaşıb bütün almaları dərdi və apardı. Alma ağacı dostunun işinə yaradığı üçün çox xoşbəxt idi.

Bundan sonra oğlan xeyli müddət meşəyə gəlmədi. Alma ağacı dərd-qəm içində idi, gözü yolda qalmışdı. Bir gün oğlan gələndə o, sevinclə qışqırdı:

– Sən harada idin? Mən sənin üçün darıxmışdım. Gəl budaqlarımda yellən...

– Eh, mən nə hayda, sən nə hayda, – deyə oğlan Alma ağacının sözünü kəsdi. – Yaşım keçir, istəyirəm ailəm, uşaqlarım olsun. Bunun üçün ev lazımdır, mənimsə evim yoxdur. Sən mənə ev verə bilərsən?

– Çox istəyərdim ki verim, – deyə ağac köksünü ötürdü. – Amma mənim evim yoxdur. Əvəzində budaqlarım var. Onları kəsib apar, özünə ev tik və xoşbəxt ol.

Oğlan Alma ağacının iri budaqlarını kəsib apardı və özünə ev tikdi. Alma ağacı da bir müddət özünü xoşbəxt hiss elədi.

Layihə

Aylar, illər keçdi. Bir gün yenə dostu gəlib çıxdı. O artıq yaşlı kişi idi. Alma ağacı sevinclə dilləndi:

– Gəl bura, dostum. Mənimlə oyna.

– Bunun üçün mən çox yaşlıyam. Oynamağa halım yoxdur. İndi bir qayıq düzəldib səyahətə çıxmaq istəyirəm. Amma nə edim ki, qayığım yoxdur.

– Mənim gövdəmi kəs, özünə qayıq düzəlt. Sən o qayıqla çox uzaqlara üzüb istəyinə çata bilərsən.

Kişi Alma ağacının gövdəsini kəsdi, qayıq düzəltdi və səyahətə çıxdı. Alma ağacı isə, buna inanmaq çətin olsa da, çox xoşbəxt idi.



Xeyli vaxt keçdi və kişi yenə Alma ağacının yanına gəldi. Onun saçları ağarmışdı, güclə yeriyirdi. Ağac onun halına yandı:

– Səni belə görmək mənim üçün çox ağırdır, dostum. Amma mən sənə heç nə verə bilmirəm. Nə yeməyə almalarım var, nə yellənməyə budaqlarım. Heç gövdəm də yoxdur ki, dırmaşasan. Sənə kömək etməyi çox istərdim, amma, heyif ki, heç nəyim qalmayıb. Mən indi yalnız qoca kötüyəm. Bağışla!

– Budaqlarında yellənmək üçün mən çox qocayam. Alma yeməyə də ağzımda dişim qalmayıb. Mənə indi heç nə lazım deyil. Sakit və rahat bir yer axtarıram ki, oturub dincəlim.

– Neynək, qoca kötük elə buna daha çox yarayar. Gəl bura, dostum, otur və dincəl.

Qoca belə də etdi və Alma ağacı yenə çox xoşbəxt idi.

*Şel Silversteyn*

## Söz ehtiyatı

**b** **Fərqləndirilmiş söz və ifadələri "Söz mücrüsü"ndəki qarşılığı ilə əvəz edin.**

**1.** Topladığı faktlar araşdırma üçün ***faydalı oldu.***
**2.** Ana əsgər oğlu üçün çox darıxırdı, onu ***intizarla gözləyirdi***.
**3.** Solmaz ***əliaçıq*** qız idi, əlinə düşəni yoldaşları ilə bölüşərdi.

Layihə

## Nə anladın?

**c** **Mətnə əsasən illüstrasiyaların ardıcıllığını bərpa edin və qısa məzmunu danışın.**

1


2


3


4


5


6


**ç** **Mətnə istinad edərək cədvəli tamamlayın.**

| Mətnin strukturu | Mətnin planı |
|---|---|
| *Giriş* | |
| *Əsas hissə* | |
| *Sonluq* | |

***Giriş***

- Hadisələrin yeri, zamanı və əsas obrazlardan biri haqqında məlumat verilir.

***Əsas hissə***

- Qəhrəmanın qarşılaşdığı problemlə başlayır. Əsas hadisələr təsvir olunur. Problemin həll olunması ilə bitir.

***Sonluq***

- Hadisələrin nəticəsi təsvir edilir.

Layihə

## Düşün və cavab ver

**3 a** **Mətnə istinad edərək cədvəli tamamlayın. İdeyanın müəyyənləşməsində xarakterin rolunu izah edin.**

| *Ağac obrazı* | |
|---|---|
| *Xarakter* | |
| *Epizod* | |
| *İdeya* | |

| *Oğlan obrazı* | |
|---|---|
| *Xarakter* | |
| *Epizod* | |
| *İdeya* | |

**b** **Sizcə, Ağacın özünü xoşbəxt hiss etməsinin səbəbi nə idi?**

**c** **Mətndə Ağac oğlanın hər istəyini yerinə yetirməyə çalışır. Obrazın bu xüsusiyyətinə münasibətinizi bildirin.**

**ç** **İllüstrasiyaya əsasən sualı cavablandırın: Kötüyün üstündə oturan qoca, görəsən, kötüyün dibindən çıxan pöhrəyə baxaraq nə düşünür?**



**d** **Sizcə, "ağac" sözü nə üçün cümlə ortasında böyük hərflə yazılıb?**

**e** **Mətndən nümunələr söyləməklə ağacın şəxsləndirildiyini sübut edin.**

> **Xatırla**
> Bədii əsərlərdə bəzən heyvan və cansız əşyalar ***şəxsləndirilir***, yəni onlar insanlara aid xüsusiyyətlər daşıyır: danışır, sevinir və s.

## Yazı

**4 a** **Əsərdəki Ağac obrazını insan obrazı ilə əvəz edib təxəyyülünüzə uyğun elə bir mətn yazın ki, ideyası "Səxavətli ağac" hekayəsi ilə eyni olsun.**

**b** **Bir-birinizin yazısını aşağıdakı meyarlara əsasən yoxlayın.**

***Meyarlar***
- Mətn tərkib hissələrinə – yəni giriş, əsas hissə, sonluq hissələrinə ayrılıb.
- Mətnin giriş hissəsində hadisələrin yeri, zamanı və əsas obrazlar haqqında məlumat verilib.
- Mətnin əsas hissəsində problemin yaranması və həlli öz əksini tapıb.
- Sonluq hissəsində hadisələrdən çıxardığı nəticə ifadə olunub.
- Mətn orfoqrafik normalara uyğun yazılıb.

Layihə

**5** **a** **Hansı sözün tərkibindəki saitlərin hamısı qalındır?**

**a.** düşüncəli **b.** fədakar **c.** mərhəmətli **d.** çalışqan

**Bunları bilməliyik** AHƏNG QANUNU

Sözdə incə və ya qalın saitlərin bir-birini izləməsinə ahəng qanunu deyilir.
İncə saitlərin ahəngi olan sözlər: *görüş, dərin.*
Qalın saitlərin ahəngi olan sözlər: *bulaq, kağız*.
Ahəng qanununun pozulması: *həyəcan, şair.*

**b** **Sözləri ahəng qanununa uyğun qruplaşdırın.**
**Hər sütuna daha bir söz özünüz əlavə edin.**

*səmimi, abadlıq, vəfalı, sülhsevər, fayton, dözümlü, qayğıkeş, həssas, qohumluq*

| İncə saitlərin ahəngi | Qalın saitlərin ahəngi | Ahəng qanununa tabe olmayan |
|---|---|---|
| | | |

**c** **Sözlərdə təkrar olunan hissəni müəyyən edin.**

*bağda, bağban, bağça, bağdan, bağlıq, bağlar*

**Bunları bilməliyik** SÖZÜN TƏRKİBİ

Kök sözün ayrılıqda işlənə bilən, leksik məna daşıyan hissəsidir.
Şəkilçi isə ayrılıqda işlənə bilməyən, leksik mənası olmayan hissəsidir:

*məktəb-li-lər*
*kök* *şəkilçilər*

| Bir çox şəkilçilər ahəng qanununa uyğun dəyişir. | |
|---|---|
| *İkivariantlı şəkilçilərin tərkibində a, ə saitləri olur.* | *Dördvariantlı şəkilçilərin tərkibində ı, i, u, ü saitləri olur.* |
| *kitab**da**, dəftər**də*** | *yaz**ır**, bil**ir**, tut**ur**, gül**ür*** |

**ç** **Verilmiş sözləri kök və şəkilçiyə ayırın.**

səxavətli, gördülər, dostluq, evimiz, dənizçi, güldan, mağazadan, qələmlər

**d** **"Oxudu" sözündəki şəkilçini müəyyən edin. Həmin şəkilçini aşağıdakı sözlərə artırın.**

*qaç, öyrən, toxu, düşün*

**e** **Nümunəyə əsasən sözdəki şəkilçilərin ikivariantlı və ya dördvariantlı olduğunu müəyyənləşdirin.**

*dənizdən, gözləri, babalarımızın, yaxşılaşdı, getmək, başlamışıq*

**Nümunə** *kitabları – kitab/-lar²/-ı⁴*

Layihə

## Ümumiləşdirici təkrar

**1** **“Nağıl” sözündəki saitlərin oxşar xüsusiyyətlərini müəyyən edin.**

**a.** dodaqlanan, qalın
**b.** açıq, qalın
**c.** açıq, incə
**d.** dodaqlanmayan, qalın
**e.** qapalı, incə

**2** **Verilmiş saitlərin xüsusiyyətlərinə əsasən sıranı davam etdirin. Seçiminizi əsaslandırın.**

*a, ı, o, ...*
*e, ə, i, ü, ...*
*ö, ü, o, ...*
*ı, i, u, ...*

**3** **Qoşasaitli sözləri orfoqrafik normalara uyğun yazaraq cədvəl üzrə qruplaşdırın.**

[təbiyət], [mayili], [cama:t], [müalicə], [bədi:], [mətbuat], [əmoğlu]

| Eynicinsli qoşasaitli sözlər | Müxtəlifcinsli qoşasaitli sözlər |
|---|---|
| | |

**4** **Ahəng qanununa tabe olmayan sözü seçin. Seçiminizi əsaslandırın.**

**a.** çiyələk **b.** tədbir **c.** sandıq **d.** torpaq **e.** müdafiə

**5** **Şəkilçilərə müvafiq söz kökləri düşünüb yazın.**

*-dan$^2$, -çı$^4$, -da$^2$, -lıq$^4$*

**Nümunə** *-lı$^4$ – yaşlı, ətirli, duzlu, südlü*

**6** **Cümlələrdə səhv yazılmış sözləri müəyyən edin. Həmin sözləri orfoqrafik normalara uyğun yazın. Öyrəndiyiniz qaydalara istinad edərək səhv yazıldığını əsaslandırın.**

**1.** Həşaratlar əkinə ziyan vurublar.
**2.** Anam albalı kampotu bişirmişdi.
**3.** İnşahatçılar yeni binanın tikintisinə başlayacaqlar.
**4.** Şaxtalı havada başaçıq gəzmə.
**5.** Bağban gülləri dayirə şəklində əkmişdi.

| Yazılmalıdır | Əsaslandırma |
|---|---|
| | |

Layihə

# Niyə belə deyirik?

**a** **Mətnlərin başlıqlarını oxuyun. Sizcə, bu ifadələrdən hansı situasiyalarda istifadə edilir?**

## 1. Yalançının evi yandı, heç kim inanmadı



Bir çoban tez-tez kənd camaatını aldadarmış:

– Ay camaat, köməyə gəlin! Sürüyə canavar girib!

Kəndlilər onun səsini eşidib köməyə qaçarmışlar. Gəlib görürmüşlər ki, canavar-zad yoxdur.

Çoban onları görəndə əllərini bir-birinə vurar, “aldatdım, aldatdım” deyib gülərmiş.

Amma bir gün, həqiqətən də, sürüyə canavar hücum edir. Çoban nə qədər qışqırıb kömək istəsə də, heç kim köməyə gəlmir. Çünki artıq kənd camaatı çobana inanmırdı.

## 2. Axillesin dabanı



Axilles su ilahəsi Fetidanın oğludur. Əfsanəyə görə, Fetida oğlunun güclü, yenilməz olmasını istəyirdi. Ona görə də onu körpə ikən Stiks çayının müqəddəs sularına salır. Bu çayın suyu insanın hansı yerinə dəyərdisə, bədənin həmin hissəsinə heç bir qılınc və ox təsir etməzdi. Lakin Axillesi suya salan zaman anası onun ayağından tutduğu üçün uşağın dabanına su dəymir. Beləliklə, Axillesin dabanı onun yeganə zəif yeri olur.

Əfsanəyə görə, döyüşlərin birində Axillesi məhz bu zəif nöqtəsindən – dabanından oxla vururlar.

Layihə

### 3. Bir kərə yüksələn bayraq bir daha enməz!



1917-ci ildə çar Rusiyası dağıldı. İlk olaraq Azərbaycan öz müstəqil dövlətini qurdu. Bütün müstəqil dövlətlər kimi milli hökumətini, ordusunu yaratdı. Azərbaycan Cümhuriyyətinin ilk parlament iclasında dövlətin qurucularından biri Məhəmməd Əmin Rəsulzadə öz nitqini belə yekunlaşdırmışdır: ”Bir kərə yüksələn bayraq bir daha enməz!”

### 4. Dəyirmi masa



İngilis kralı Artur V-VI əsrlərdə yaşamışdır. O, cəngavərlərlə toplantılarını həmişə dəyirmi masa ətrafında keçirirdi. Burada nə birinci, nə də sonuncu yer var idi. Bütün yerlər eyni dərəcədə şərəfli idi. Arturun sarayındakı masa sanki ölkədə bərabərlik simvoluna çevrilmişdi.

**b** **İfadələrlə onların mənalarını uyğunlaşdırın.**

**a.** Danışıqlarda tərəflərin bərabərhüquqlu olduğunu bildirir.
**b.** Bir neçə dəfə yalan danışıb inamı itirən adamın doğru sözünə də inanılmadığını bildirir.
**c.** Hər hansı insanın zəif cəhəti haqqında deyilir.
**ç.** Baş tutmuş hər hansı bir istəyin daimi olacağına inamı ifadə edir.

## Təqdimat

**c** **Oxuduğunuz məlumatlara və əlavə biliklərinizə əsasən “Dilimizdəki məsəllər” mövzusunda təqdimat hazırlayın.**

- Məsəllərin yaranma tarixçəsini danışın.
- Mənasını izah edin.
- İşlənə biləcəyi situasiya düşünüb danışın.

Layihə

# Rəmzləşmiş adlar

**1 a** **Müasir dövrdə insanlar hansı informasiya vasitələri ilə məlumat alırlar? Şəkillərə istinad edərək ən çox müraciət etdiyiniz informasiya vasitələri haqqında danışın.**












**b** **Keçmişdə uzaq məsafəyə məlumat ötürmək üçün hansı vasitələrdən istifadə edirdilər?**







**c** **Suallara cavab verməklə adi poçtla elektron poçtun oxşar və fərqli cəhətləri haqqında danışın.**

- Məktub kağız üzərində yazılır və zərfə qoyulur.
- Məktubun göndərildiyi şəxsin ünvanı göstərilir.
- Məktub kompüterdə yazılır, kağıza köçürməyə ehtiyac yoxdur.
- Məktubu bir neçə saniyə ərzində çoxlu ünvana göndərmək olar.
- Məktubun ünvana çatmasına azı bir gün lazımdır.







Layihə

**ç** **Sinonimlərə əsasən "Rəmzləşmiş adlar" ifadəsinin mənasını təxmin edin.**

*rəmz – simvol, işarə*

# Poçt qutusu



Vəli xan Cəfər ağaya məktub yazdı. İstədi, nökəri çağırsın ki, aparıb salsın poçta. Sonra yadına düşdü ki, nökəri göndərib özgə işə. Bu vaxt qapı döyüldü. Gələn xanın öz kəndlisi Novruzəli idi. Novruzəli tez-tez xanın yanına gələrdi. Hər dəfə də undan, baldan, yağdan pay gətirərdi.

Xan Novruzəliyə poçt qutusunun harada yerləşdiyini izah etdi. Məktubu ona verdi ki, aparıb poçta salsın. Sonra da bərk-bərk tapşırdı:

– Novruzəli, kağızı heç kəsə vermə, heç kəsə göstərmə! Tez sal qutuya, qayıt gəl!

Novruzəli cavab verdi:

– Mən uşaq deyiləm ki, kağızı özgəsinə verəm! Heç polis də bu kağızı mənim əlimdən ala bilməz.

İki saat keçdi. Novruzəli gəlib çıxmadı. Xan narahat oldu ki, yəqin, Novruzəlinin başına bir iş gəlib. Elə bu vaxt yasavul qapıdan içəri girdi:

– Xan, pristav buyurur, gələsiniz polisə, kəndlinizə zamin olasınız. Yoxsa pristav göndərəcək həbsxanaya.

Xan bu sözlərə təəccübləndi:

– Balam, o, fağır adamdır, nə edib ki, pristav onu tutub saxlayıb?

Xan polisə getdi. Novruzəliyə zamin olub onu evə gətirdi. Novruzəli başına gələnləri xana danışdı:

– Xan, başına dönüm, mən kağızı buradan apardım. Sən mənə nişan verdiyin qutunu tapdım. Qutunun qapağını qaldırdım. İstədim kağızı salam qutuya; bir kağıza baxdım, bir qutuya baxdım. Doğrusu, qorxdum ki, mənə acığın tuta.

**Söz mücrüsü**

- özgə
- yasavul
- pristav
- zamin
- nişan vermək
- başına iş gəlmək
- acığı tutmaq
- ehmallıca
- dam




Layihə

Bilmədim, məktubu qutuya salım, salmayım. Çünki yadımdan çıxdı səndən soruşum ki, kağızı qutuya salandan sonra nə edim. Qutunun yanında durum, ya qayıdım gəlim evə. Əvvəl fikirləşdim ki, kağızı salıb qutunun yanında durum. Sonra dedim ki, axı nə vaxtadək burada duracağam?




Axır ki, ürəkləndim, “bismillah” deyib qutunun qapağını qaldırdım, kağızı saldım qutuya. Elə bir az uzaqlaşmışdım ki, bir rus qutuya yaxınlaşdı. Mən elə bildim ki, bu da istəyir qutuya kağız salsın. Amma gördüm, xeyr, fikri özgədi, əlini uzadıb qutunun içinə. Utanmaz-utanmaz kağızları qutudan ehmallıca çıxartdı, dəstələyib vurdu qoltuğuna! Mən tez qaçıb yapışdım onun qolundan, qoymadım getsin. Dedim, hara aparırsan kağızları? Xalq səndən ötrü kağızları bura salmayıbdı ki! Dinməz-söyləməz kağızları qoy yerinə! Dedim, Novruzəli hələ ölməyibdi ki, sən onun ağasının kağızını aparasan.

Nə qədər yalvardım ki, barı mənim xanımın kağızını ver. Dedi, verməərəm ki, verməərəm. Gördüm ki, qaçmaq istəyir, hirs vurdu təpəmə. Yapışdım çiynindən, yıxdım yerə. Sonra polislər tökülüb gəldilər, məni aparıb atdılar dama.

*Cəlil Məmmədquluzadənin “Poçt qutusu” əsəri əsasında işlənmişdir.*

## Söz ehtiyatı

**Yadda saxla**

Bədii əsərlərdə rast gəlinən bəzi sözlər indi istifadə olunmur. Belə sözlərə **arxaizm** deyilir.

**d** **“Söz mücrüsü”ndən izahlara uyğun gələn sözləri seçin.**

**1.** XX əsrin əvvəllərində polis vəzifəsi görən şəxs.
**2.** XX əsrin əvvəllərində Rusiyada yerli polis rəisi.

**e** **Fərqləndirilmiş söz və ifadələri “Söz mücrüsü”ndəki müvafiq frazeoloji birləşmələrlə əvəz edin.**

**1.** Bələdçi turistlərə gedəcəkləri yeri xəritədə ***göstərdi***.
**2.** Yolçular haradan bilərdilər ki, belə bir ***problemlə qarşılaşacaqlar***?
**3.** Bu hadisədən sonra Leyla rəfiqəsinə çox ***hirslənmişdi***.

Layihə

**ə** **"Dam" sözünün mətndə işləndiyi mənasını müəyyən edin. Bu sözü digər mənalarında cümlədə işlədin.**

*Sonra polislər tökülüb gəldilər, məni aparıb atdılar dama.*

**a.** Evin, binanın, tikilinin örtüsü.
**b.** Heyvanları saxlamaq üçün qapalı yer; tövlə.
**c.** Həbsxana, türmə.

## Nə anladın?

**2 a** **Mətnin illüstrasiyalara uyğun hissələrini müəyyən edin. Təlimata əsasən obrazlar arasındakı dialoqları səsləndirin.**

- *Müvafiq intonasiya, səs tonu seçin.*
- *Uyğun mimika və jestlərdən istifadə edin.*
- *Nitqinizdə yeni öyrəndiyiniz sözlərdən istifadə edin.*






## Düşün və cavab ver

**b** **Mətndən hansı epizodlar Novruzəliyə aid aşağıdakı xüsusiyyətləri əks etdirir?**

*sədaqətli, məsuliyyətli, avam*

**c** **Sizcə, Novruzəli adı nəyin rəmzinə çevrilmişdir? "Lap Novruzəlidir ki..." ifadəsinin işlənə biləcəyi bir situasiya düşünüb danışın.**

**ç** **Aşağıdakı fikri şərh edin və mətnin əsas ideyası ilə əlaqələndirin.**

*Açılan hər məktəb bir həbsxananın bağlanması deməkdir. (Viktor Hüqo)*

## Araşdırma

**3 a** **Aşağıdakı obrazlar haqqında araşdırma aparın. Verilmiş plan əsasında həmin obrazlar haqqında təqdimat hazırlayın. Topladığınız məlumatları nümunəyə uyğun olaraq təqdim edin.**

***I Qrup: Şerlok Holms***



***II Qrup: Robinzon Kruzo***



***III Qrup: Don Kixot***



***Plan***

1. Qəhrəmanın iştirak etdiyi əsərin adı nədir?
2. Əsərin müəllifi kimdir?
3. Obrazın ən mühüm xüsusiyyəti nədir?
4. Obrazın adı nəyin rəmzinə çevrilmişdir?

***Nümunə***

*Novruzəli Cəlil Məmmədquluzadənin "Poçt qutusu" hekayəsinin qəhrəmanıdır. Novruzəli səxavətli, sədaqətli bir kəndlidir. Lakin təhsil almadığı üçün çox sadəlövh və avamdır. O qədər avamdır ki, hətta poçt qutusunun nə olduğunu da bilmir. Novruzəli obrazı avamlığın rəmzinə çevrilib. Savadsız, həyatdan geri qalmış insanlar haqqında "Lap Novruzəlidir ki..." ifadəsi işlənir.*



Layihə

## Yazı

**4 a** **Hansı sözdə hecaların sayı daha çoxdur?**

**a.** kəndli  **b.** yasavul  **c.** zamin  **d.** müayinə

**b** **Hansı sözləri sətirdən sətrə keçirmək olmaz? Səbəbini izah edin.**

*qutu, izah, kağız, vaxt, əmi, uşaq, polis*

**c** **Sətirdən sətrə keçirmək üçün hecalara səhv ayrılmış sözləri müəyyən edib səhvləri izah edin.**

*xil-as-kar, a-ğa, in-ək, nök-ər, mək-tub, pri-stav*

**Bunları bilməliyik** SÖZÜN SƏTİRDƏN SƏTRƏ KEÇİRİLMƏSİ

| Qayda | Doğru | Yanlış |
|---|---|---|
| Adların bir hərfdən ibarət qısalmasını sətrin sonunda saxlamaq olmaz. | *A.Şaiq* | *A.-*<br>*Şaiq* |
| Rəqəmlə yazılan saylara artırılan şəkilçilər yeni sətrə keçirilmir. | *3-cü* | *3-*<br>*cü* |
| Rəqəmlə yazılan miqdar sayının yanındakı ixtisarı yeni sətrə keçirmək olmaz. | *10 kq* | *10*<br>*kq* |

**ç** **Sətirdən sətrə səhv keçirilmiş sözləri müəyyən edin. Səbəbini izah edin. Səhvləri düzəldin.**

**1.** *Qardaşım 11-*
*ci sinifdə oxuyur.*

**2.** *Bakıdan Şamaxıya 122*
*km məsafə var.*

**3.** *Ədəbiyyat dərsində M.-*
*Ə.Sabir haqqında danışdıq.*

**Bunları bilməliyik** MÜRƏKKƏB SÖZLƏRİN SƏTİRDƏN SƏTRƏ KEÇİRİLMƏSİ

Mürəkkəb sözlərin tərkib hissələri ayrı-ayrılıqda hecalara bölünür və sətirdən sətrə keçirilir.

| Düzgün | Yanlış |
|---|---|
| *Nov-ruz-ə-li* | *Nov-ru-zə-li* |

**d** **Mürəkkəb sözləri seçin və sətirdən sətrə keçirmək üçün hecalara ayırın.**

*sədaqətli, Məmmədəli, yadelli, iradəli*
*səxavətli, günorta, böyürtkən, Koroğlu*

**Xatırla**

Bəzi sözlərin tərkibində iki və daha çox söz olur.
Belə sözlər mürəkkəb söz adlanır. *Məsələn: ipəkqurdu*

Layihə

**1 a** **Kitabın üz qabığı, adı və kitabdan verilmiş səhifələrlə tanış olun. Sizcə, bu kitab nə haqdadır? Bu məlumatlar kitabın məzmunu haqqında kifayət qədər təsəvvür yaratdımı? Fikrinizi əsaslandırın.**




*Kitabın üz qabığı*



*Kitabın səhifələri*

**b** **Kitabının annotasiyası ilə tanış olun. Sizcə, kitabın annotasiyasını oxumaq nə üçün vacibdir?**

***ANNOTASİYA***

Ən məşhur qəhrəmanlıq dastanlarından biri də “Koroğlu” dastanıdır. Dastan on səkkiz qoldan ibarətdir.

Rəvayətə görə, Koroğlunun əsl adı Rövşən olub. Həsən xan onun atası Alı kişiyə qarşı haqsızlıq edir. Bu hadisədən sonra Rövşəndə zülmə və haqsızlığa qarşı dərin nifrət yaranır. O, ömrü boyu bəylərə, paşalara qarşı mübarizə aparmağı qərara alır. Uca qayaların üstündə yerləşən Çənlibel qalasında məskunlaşır.

Koroğlu Qıratın belində, əlində Misri qılıncı, ətrafında 7777 igidi döyüşdən döyüşə atılır. Dastanın hər qolunda Koroğlu və igidlərinin qəhrəmanlığından bəhs edilir.

- *Kitabla tanış olarkən nəyə diqqət etdiniz?*
- *Bu mövzuda nə bilirsiniz? Daha nəyi öyrənmək istərdiniz?*
- *Annotasiyadakı hansı məlumatlar sizdə kitabı oxumağa maraq oyatdı?*
- *Sizcə, bu kitabı niyə oxumalısınız? Bu kitabın sizə hansı faydası ola bilər?*

**c** **“Dastan” sözünün izahına əsasən aşağıdakı ifadələrin mənasını təxmin edin.**

***Dastan*** *– mühüm tarixi hadisələrdən və şəxsiyyətlərdən bəhs edən irihəcmli əsər.*

*adı dillərdə dastan olmaq*    *dastan açmaq*

Layihə

# Çünki oldun dəyirmançı...



Xanlar, bəylər, paşalar Koroğlunun qorxusundan gecələr yata bilmirdilər.

Bir gün Hasan paşa öz adamlarını başına yığıb məsləhətləşdi:

– Koroğlu günü-gündən güclənir. Necə eləyək ki, onun qabağını alaq.

Vəzir dedi:

– Koroğlunun gücü Qıratdadır. Gərək Qıratı onun əlindən alaq.

Paşa soruşdu:

– Yaxşı, kim Çənlibelə gedib Qıratı gətirə bilər? Vəzir dərhal cavab verdi:

– Heç kim üzbəüz döyüşdə Koroğluya bata bilməz. Ancaq hiylə yolu ilə Qıratı ələ keçirmək olar.

Paşanın sarayında Həmzə adlı bir keçəl yaşayırdı. Həmzə Qıratı gətirəcəyinə söz verdi. Amma əvəzində paşadan xeyli qızıl istədi.

Paşa Həmzəyə Qıratı gətirmək üçün bir ay vaxt verdi. Həmzə yola düşdü. Bir neçə gündən sonra gəlib Çənlibelə çıxdı. Gözətçilər onu Koroğlunun yanına apardılar. Həmzə özünü yazıq vəziyyətə salıb ağlaya-ağlaya dedi:

– Yeddi ildir ki, paşanın atlarına baxıram. Axırda pulumu verməyib məni qovdu. İndi səni deyib gəlmişəm.

Koroğlunun Həmzəyə yazığı gəldi. Onu yanında saxladı. Həmzə həmin gündən Düratın mehtəri oldu. Koroğlunun igidləri bu işdən narazı qaldılar:

– Ay Koroğlu, bizim bu adamdan gözümüz su içmir. Qoy çıxıb getsin.

Koroğlu onları sakitləşdirdi:

– Yazığın biridir, bizə neyləyəcək. Qoyun buralarda dolansın.



**Söz mücrüsü**

- mehtər • arpa
- buxov • dəyirman
- yüyən • üzəngi
- ağ günə çıxmaq
- gözü su içməmək

Layihə

Həmzə ilk günlər ata yaxşı qulluq elədi. At günü-gündən güclənirdi. Bir müddət sonra atın arpasını azaltdı. Dürat arıqlamağa başladı.

Koroğlu bunun səbəbini soruşanda dedi:

– At gecə-gündüz tövlədə bağlıdır, ayaqları buxovludur. Gün üzü görmür.

Koroğlu Düratın ayağındakı buxovun açarını Həmzəyə verdi. Həmzə ara-sıra Düratı tövlədən çıxarıb sürürdü.

Paşanın Həmzəyə verdiyi vaxta az qalmışdı. Amma hələ Koroğlu onu Qırata yaxın buraxmırdı. Həmzə öz-özünə düşündü: “Yaxşısı budur, elə Düratı qaçırım. Paşa nə bilir ki, Dürat hansıdır, Qırat hansı”.



Həmzə elə həmin gecə Düratı qaçırdı.

Koroğlu Qıratı minib Həmzənin dalınca çapdı. Qırat Düratdan çox sürətlə gedirdi. Həmzə gördü ki, Koroğlu yaxınlaşır. Tez qaçıb özünü dəyirmana saldı. Dəyirmançı paltarı geyinib üz-gözünü una bulaşdırdı. Koroğlu dəyirmana yaxınlaşıb soruşdu:

– Dəyirmançı, indi bura gələn atlını gördünmü?

– Odur, anbarda gizlənib. Koroğlu Qıratın yüyənini Həmzəyə verib anbara girdi.

Qıratın belə bir xasiyyəti var idi ki, Koroğlu onun yüyənini kimə tapşırsa, at həmin adama tabe olardı. Həmzə fürsətdən istifadə edib Qıratın belinə sıçradı.

Koroğlu anbara girib gördü ki, burada heç kim yoxdur. Aldandığını anlayıb cəld çölə çıxdı. Həmzəni Qıratın belində görəndə bərk qəzəbləndi. İstədi Misri qılıncı çəkib Həmzəyə hücum eləsin, amma bildi ki, Qırat ayağını yerdən götürsə, ona çata bilməyəcək.

Həmzə dedi:

– Koroğlu, mənim səninlə düşmənçiliyim yoxdur. Qıratı ona görə qaçırıram ki, paşadan var-dövlət alım. Bəlkə bir ağ günə çıxım. Bilirəm ki, axırda gəlib atını aparacaqsan. Onda üzəngini sənin üçün özüm tutacağam.

Həmzə bunu dedi və Qıratı sürüb getdi.

Koroğlu kor-peşman dəyirmanın qapısında yerə oturdu. Sazı alıb görün nə dedi:

Çünki oldun dəyirmançı,
Çağır gəlsin dən, Koroğlu!
Verdin Qırı, aldın Dürü,
Döy başına, yan, Koroğlu!

Layihə

## Söz ehtiyatı

**ç** **"Ağ gün", "qara gün" birləşmələrindəki *ağ* və *qara* sözlərinin həqiqi, yoxsa məcazi mənada işləndiyini müəyyən edin.**

**d** **Mətnə əsasən "Ağ günə çıxmaq" ifadəsinin mənasını izah edin.**

**e** **Nöqtələrin yerinə "Söz mücrüsü"ndən uyğun gələn sözü yazmaqla cümlələri tamamlayın.**

**1.** ... atlara yaxşı qulluq etmişdi.
**2.** Atın ayağına ... bağlamışdılar ki, qaçmasın.
**3.** Koroğlu ... çəkib atı saxladı.
**4.** Kamran ayağını ... qoyub atın belinə qalxdı.
**5.** Bu adamdan şübhələnirəm, ondan ... .
**6.** Əkinçilər bu il ancaq ... əkmişdilər.

**ə** **Mətnin sonunda göy rənglə verilmiş misraları oxuyun. Bu misralardakı fikri öz sözlərinizlə ifadə edin.**

**f** **Sizcə, hansı situasiyalarda "Çünki oldun dəyirmançı..." ifadəsi işlənir? Bu ifadənin işlənə biləcəyi bir hadisə düşünüb nəql edin.**

## Nə anladın?

**g** **Mətnə əsasən aşağıdakı cümlələri tamamlayın.**

**1.** Paşaya Qıratı qaçırmağı təklif etdilər, çünki ... .
**2.** Qıratı yalnız hiylə ilə ələ keçirmək olardı, çünki ... .
**3.** Koroğlunun Həmzəyə yazığı gəldi, ona görə də ... .
**4.** Həmzə Düratın arpasını azaltdı, çünki ... .
**5.** Koroğlu Düratın buxovunun açarını Həmzəyə verdi ki, ... .
**6.** Qırat Həmzəyə tabe oldu, çünki ... .

## Düşün və cavab ver

**2** **a** **Sizcə, Həmzə Qıratı qaçırdıqdan sonra Koroğlu nə edəcək? Hadisələrin davamını təxəyyülünüzə əsasən danışın.**

## Dinləmə

**b** **"Çünki oldun dəyirmançı..." mətninin ardını dinləyin, öz variantınızla müqayisə edin.**

**c** **Sizcə, Həmzə Koroğlunu tanıdığı halda, nə üçün onu ələ vermədi?**

Layihə

**ç** **“Çünki oldun dəyirmançı...” mətninin illüstrasiyalara uyğun hissələrini nəql edin.**





**d** **Həmzə “Söz dəyirmandakıdır” deyəndə nəyi nəzərdə tuturdu?**

**e** **Sizcə, hansı situasiyalarda “Söz dəyirmandakıdır” ifadəsi işlənir? Bu ifadənin işlənə biləcəyi hadisə düşünüb danışın.**

**3** **a** **“Çünki oldun dəyirmançı...” bədii, yoxsa qeyri-bədii mətndir? Fikrinizi əsaslandırın.**

**Yadda saxla**

Mətnlər müxtəlif məqsədlərlə yazılır.
**Bədii mətnlər** düşündürmək, duyğulandırmaq, əyləndirmək məqsədilə yazılır. Bu mətnlərdə müəllif hadisələri öz ***təxəyyülünə*** uyğun təsvir edir.
**Qeyri-bədii mətnlər** məlumat vermək, izah etmək, əsaslandırmaq üçün yazılır. Bu məlumatların əsasında real ***faktlar*** dayanır. Faktların həqiqiliyini müxtəlif mənbələr: internet, ensiklopediya və s. vasitəsilə yoxlamaq olar.

**b** **Mətnə istinad edərək aşağıdakı fikirləri əsaslandırın və “Çünki oldun dəyirmançı...” mətninin bədii mətn olduğunu sübut edin.**

- Hadisələr təxəyyülə əsasən təsvir edilib.
- Mətndəki epizodlarda obrazların xarakteri aydınlaşır.
- Mətnin bir çox hissələri dialoqlardan ibarətdir.
- Oxucunu müəyyən dəyərlər haqqında düşünməyə istiqamətləndirir.

Layihə

**c** **Mətni oxuyun. Tapşırıqları yerinə yetirin.**

**XALQ QƏHRƏMANI**

***Giriş***

Koroğlu bir çox türk xalqlarının ortaq qəhrəmanıdır. Koroğlu haqqında çoxlu əfsanələr, dastanlar qoşulub. Bəziləri Koroğlunun mifik obraz olduğunu düşünür. Bəs, görəsən, Koroğlu əfsanəvi qəhrəmandır, yoxsa tarixi şəxsiyyət?

***Əsas hisssə***

"Koroğlu" dastanında onun paşalara qarşı apardığı mübarizədən bəhs edilir. Həqiqətən də, XVI- XVII əsrlərdə Türkiyə və Azərbaycan ərazisində Cəlalilər hərəkatı başlayıb. Kəndlilər paşalara qarşı üsyan edərək öz haqlarını müdafiə ediblər. Tarixi mənbələrdə bu hərəkat haqqında xeyli məlumat var. Məsələn, Övliya Çələbi "Səyahətnamə" əsərində Cəlalilər hərəkatından danışır. Hərəkatın başçılarından biri kimi Koroğlunun adını qeyd edir.

Dastanda deyilir ki, Koroğlu igidləri ilə birlikdə Çənlibeldə məskunlaşır. Doğrudan da, Azərbaycan və Türkiyə ərazisində "Çənlibel" adlı çoxlu qalalar mövcuddur.

***Nəticə***

Bu faktları nəzərə alaraq Koroğlunun tarixi şəxsiyyət olduğunu deyə bilərik. Koroğlunun mərdliyi, qəhrəmanlığı onu xalq qəhrəmanına çevirmişdir.

**ç** **"Xalq qəhrəmanı" mətninə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu qeyd edin.**

**1.** Koroğlu xalq qəhrəmanıdır. **D Y**
**2.** Koroğlu bütün dünya xalqlarının ortaq qəhrəmanıdır. **D Y**
**3.** XIX əsrdə Azərbaycanda kəndli üsyanı baş verib. **D Y**
**4.** Koroğlu haqqında müxtəlif əfsanələr qoşulub. **D Y**
**5.** "Koroğlu" dastanı qəhrəmanlıq dastanıdır. **D Y**

**d** **Hansı mətndə Koroğlunun şəxsiyyəti haqqında qoyulmuş suala cavab axtarılır: "Çünki oldun dəyirmançı...", yoxsa "Xalq qəhrəmanı"? Mətndən uyğun hissəni oxuyaraq cavabınızı əsaslandırın.**

**e** **"Xalq qəhrəmanı" mətnində müəllif oxucunu öz fikrinə inandırmaq üçün hansı arqumentlərdən istifadə edir?**
**Mətndən həmin hissələri oxumaqla cavabınızı əsaslandırın.**

Layihə

**ə** **Fikirlərin fakt, yoxsa uydurma olduğunu müəyyən edin.**

**1.** XVI-XVII əsrlərdə Türkiyə və Azərbaycan ərazisində kəndli hərəkatı baş verib.
**2.** Koroğlu xalq hərəkatının başçılarından biri olub.
**3.** Paşalar Qıratı oğurlamağı Həmzəyə tapşırırlar.
**4.** “Koroğlu” dastanı Koroğlunun qəhrəmanlığından bəhs edir.
**5.** Koroğlunun Həmzəyə yazığı gəlir.
**6.** Həmzə Koroğlunu aldadır.
**7.** Koroğlu bir çox türk xalqlarının ortaq qəhrəmanıdır.

**4** **a** **Mətni oxuyun və məzmununa əsasən suallar tərtib edin.**

## Gəmiləri yandırmaq

Qədim zamanlarda qətiyyətli sərkərdələr düşmən ölkəsində sahilə çıxandan sonra gəmiləri yandırırdılar. Beləliklə, öz döyüşçülərinin döyüş meydanından qaçmalarına mane olmaq istəyirdilər. Geriyə yolun olmadığını görən döyüşçülər yalnız qalib gəlmək üçün döyüşürdülər.

İfadənin yaranması ilə bağlı müxtəlif rəvayətlər var. Onlardan ən qədimi Troya müharibəsi ilə bağlıdır. Yunanlarla müharibədən sonra troyalılar İtaliya sahillərinə üzüb gəlmişdilər. Bu yerlərin təbiəti Troya qadınlarının çox xoşuna gəlir. Ərləri buradan heç yerə getməsinlər deyə onlar bütün gəmiləri yandırıblar.

Başqa rəvayətə görə, bir ərəb sərkərdəsi öz ordusu ilə İspaniyaya daxil olur. Ordu sahilə çıxan kimi İbn Ziyad əsgərlərin geri qaçmaması üçün bütün gəmiləri yandırmağı əmr edir. Sərkərdə ordu qarşısındakı çıxışında deyir:

– Arxanızda düşmən kimi dəniz, önünüzdə dəniz kimi düşmən! Sonadək döyüşməkdən başqa yol qalmamışdır.



**b** **Mətnə əsasən “Gəmiləri yandırmaq” ifadəsinin mənasını izah edin.**

**c** **“Gəmiləri yandırmaq” ifadəsinin tarixçəsi hansı hadisələrlə bağlıdır?**

**ç** **Göy rənglə verilmiş cümləyə diqqət yetirin. Sizcə, sərkərdə bu sözlərlə nə demək istəyirdi?**

*Arxanızda düşmən kimi dəniz, önünüzdə dəniz kimi düşmən.*

**d** **“Gəmiləri yandırmaq” mətnindən aldığınız məlumatlara əsasən “körpüləri yandırmaq” ifadəsinin mənasını təxmin edin. Təxəyyülünüzə əsasən bu ifadənin yaranma tarixçəsini düşünüb yazın.**

Layihə

**5 a** **Fərqləndirilmiş sözləri kök və şəkilçiyə ayırın. Hansı sözdəki şəkilçi onun leksik mənasını dəyişdi?**

***Dənizin*** lal sakitliyi qoca ***dənizçini*** narahat edirdi.

**b** **Verilmiş sözləri bir cümlədə işlədin. Sözlərə artırdığınız şəkilçilərə diqqət edin. Sizcə, nə üçün cümlə qurarkən sözlərə şəkilçi artırmaq lazım gəldi?**

*məktəb, futbol, komanda, yarış, qalib gəlmək.*

**Bunları bilməliyik** LEKSİK VƏ QRAMMATİK ŞƏKİLÇİLƏR

**Leksik şəkilçilər** sözlərə qoşularaq yeni sözlər yaradır: *məktəb – məktəb**li***
**Qrammatik şəkilçilər** söz birləşməsi və cümlədəki sözlər arasında əlaqə yaradır: *Məktəb**in** direktor**u** uşaq**ları** otağ**ına** çağır**dı**.*

**c** **Sözlərə leksik şəkilçilər artırmaqla yeni sözlər düzəldin.**

gül — -dan, -lük, -lər

dost — -um, -luq, -laş

bağ — -ça, -ban, -da

**ç** **Şəkilçilər artırmaqla cümlələri tamamlayın.**
**Əlavə etdiyiniz şəkilçilərin növünü müəyyən edin.**

**1.** Bizim ev... üç... mərtəbədədir.
**2.** Məktəb...  kitab...sına yeni kitab... gətiriblər.
**3.** O... qardaşı məşhur idman...dır.
**4.** Bağ...dakı  ağac...  çiçək...yib.

**d** **Verilmiş sözlərə qrammatik şəkilçilər artırmaqla söz birləşmələri yaradın.**

| | | |
|---|---|---|
| kitab, səhifə | maral, buynuz | görüş, hazırlıq |
| göl, kənar | stadion, oynamaq | uşaq, arzu |

**Bunları bilməliyik** SÖZÜN BAŞLANĞIC FORMASI

Sözün qrammatik şəkilçiyə qədər olan hissəsi onun başlanğıc formasıdır: *xəstəxanalarda.*

**e** **Sözlərin kökünü və başlanğıc formasını göstərin.**

*toxucularımızdan, bağdakıların, başladınız, meşəlikdə, yoldaşınızı, yaxşılaşmışıq*

Layihə

# Çin səddi

**1 a Böyük Çin səddi haqqında mətnləri oxuyun və tapşırıqları yerinə yetirin.**





## Dünyanın ən uzun divarı

**Dünyanın səkkizinci möcüzəsi sayılan Böyük Çin səddi hər il milyonlarla turisti bu yerlərə cəlb edir.**

Əgər siz də Çinə səyahət etməyi planlaşdırırsınızsa, mütləq Böyük Çin səddini gəzmək üçün vaxt ayırın. Bu möhtəşəm tikili ölkənin şimal hissəsində şərqdən qərbə doğru uzanır, səhraları, çölləri, dağları dolaşır.

Çinin Pekin şəhəri divarın əsas qapısı hesab olunur. Böyük Divarın ən məşhur hissəsi olan Badalinq Pekinə yaxındır. Şəhərə yaxın məsafədə yerləşdiyi və rahat yolları olduğuna görə Badalinq gəzinti üçün ən uyğun yerdir. Bu səbəbdən divarın bu ərazisi həmişə izdihamlı olur.





Badalinqdə yeləşən muzeyə mütləq səfər edin. Burada Böyük Çin Səddinin tarixi, tikintisi ilə bağlı məlumat alacaqsınız. Səddin tarixi, haqqındakı rəvayətlər sizi görünüşü qədər təəccübləndirəcək.

### Söz ehtiyatı

**b “Sədd” sözünün izahına əsasən “sədd çəkmək” ifadəsinin mənasını təxmin edin.**
*Sədd – müxtəlif məqsədlər üçün çəkilən divar, hasar.*

**c Sizcə, “Çin səddi” ifadəsi hansı situasiyalarda istifadə edilir?**
**“Elə bil Çin səddi çəkir” deyərkən Böyük Divarın hansı xüsusiyyəti nəzərdə tutulur?**



Səyahət həyəcanı yaşamaq istəyənlər divarın Jiankou adlanan hissəsinə gedə bilərlər. Jiankou sıldırım qayalıqlar üzərində yerləşir. Burada indiyə kimi heç bir bərpa işləri aparılmayıb. Ona görə də səddin bu hissəsi ilkin görkəmini olduğu kimi saxlayıb. Jiankou gəzintisi çox dik və təhlükəli yollardan keçir. Buna görə də yalnız təcrübəli turistlər üçün uyğundur.





Görəsən, Böyük Çin səddini əvvəldən sona qədər gəzmək mümkündürmü?

Amerikalı səyyah Uilyam Edqar Qeyl 1908-ci ildə Böyük Divarı bütünlüklə gəzən ilk səyyah olub. O, səyahətindən sonra bu haqda kitab yazıb. Kitabda səyahət zamanı çəkdiyi şəkillərdən istifadə edib.

Daha sonralar bir çox yerli və xarici səyyahlar da bütün divar boyu gəziblər.

**Söz mücrüsü**

- sədd • izdihamlı • möcüzə

## Nə anladın?

**“Böyük Çin səddi” haqqında reklam vərəqinə əsasən suallara cavab verin.**

**1.** Böyük Çin səddi nə üçün turistlərin diqqətini cəlb edir?
**2.** Nə üçün turistlərin çoxu divarın Badalinq adlanan hissəsinə səfər edirlər?
**3.** Reklam vərəqindəki hansı məlumat diqqətini daha çox cəlb etdi? Nə üçün?

Layihə

**2 a** **Mətni oxuyun və tanış olduğunuz reklam vərəqinin məzmunu ilə müqayisə edin.**

## BÖYÜK ÇİN SƏDDİ

Böyük Çin səddi dünyanın ən uzun divarıdır. Bu tarixi abidə Çinin simvoluna çevrilib.

**Tikilmə məqsədi.** Çinin torpaqları çox bərəkətli olduğu üçün qonşu dövlətlər bura tez-tez hücum edirdilər. Buna görə də Çin imperatoru müdafiə məqsədilə ölkəsinin şimal sərhədinə divar hördürür.

**Tarixi.** Çin səddinin ilk tikintisi e. ə. VII-IV əsrlərdə aparılmışdır. İmperator Sin Şixuandi isə e. ə. III əsrdə mövcud müdafiə divarlarını gözətçi qüllələri ilə möhkəmləndirmişdir. Tikintidə yüz minlərlə adam iştirak etmişdir. Şixuandidən sonrakı imperatorlar da divarın tikintisinə davam etmişlər. Ümumilikdə Çin səddinin inşası iki min ildən çox davam edib.

**Ölçüləri.** Çin səddinin ümumi uzunluğu 21000 kilometrdən artıqdır. Divar Sarı dənizin sahillərindən başlayır. Qobi səhralarından keçir. Səddin hər 100 metrliyində gözətçi qüllələri ucaldılmışdır. Qüllələrin hündürlüyü 12 metrə çatır. Qüllələr arasında tikilən divarların hündürlüyü 10 metr, qalınlığı 7 metrdir.

**Çin səddinin dünya mədəniyyətində yeri.** Səddin çinlilər üçün böyük tarixi əhəmiyyəti var. Çinlilər əl-ələ verərək dünyanın ən uzun və ən nəhəng daş divarını tikmişdilər. Bununla da, Çin xalqının milli birliyinin əsasını qoyulmuşdur.

Bu gün bu möhtəşəm tikili bütün dünyada məşhurdur. 1961-ci ildə Böyük Divar tarixi abidə kimi dövlət mühafizəsinə götürülüb və bərpa işləri aparılıb. 1987-ci ildən Ümumdünya İrs Siyahısına daxil edilib.



**Yadda saxla**

Qeyri-bədii mətnlərdə çox zaman məlumatlar yarımbaşlıqlar altında qruplaşdırılır. Yarımbaşlıqlar lazım olan məlumatı tez tapmağa kömək edir.

**Söz mücrüsü**

- inşa • qüllə • bərəkətli
- abidə • bərpa

## Nə anladın?

**b** **Mətnə əsasən suallara cavab verin.**

**1.** Səddin əsası nə vaxt qoyulub?
**2.** Çin səddi neçə müddətə tikilmişdir?
**3.** Sədd hansı məqsədlə inşa edilmişdir?
**4.** Böyük Çin səddinin uzunluğu nə qədərdir?
**5.** Tarixi səddin adının mənası nədir?

- **Yuxarıda verilmiş suallara hansı yarımbaşlıqlardan cavab tapdınız?**
- **Hər yarımbaşlığa aid daha bir sual tərtib edin.**

**c** **Böyük Çin səddi haqqında oxuduğunuz mətnləri müqayisə edin.**

- **Sizcə, mətnlərin oxşar xüsusiyyətləri nədir?**
- **Hansı mətn turistlər üçün daha faydalıdır?**
- **Hansı mətndə Çin səddi haqqında məlumatlar ətraflı və sistemli şəkildə təqdim edilib?**

**Yadda saxla**

Eyni mövzuda yazılan qeyri-bədii mətnlərin müxtəlif quruluşu və məzmunu ola bilər. Bu, müəllifin məqsədindən asılıdır. Məsələn, "Dünyanın ən uzun divarı" mətni turistləri məlumatlandırmaq məqsədilə yazılıb. Burada faktlar cəlbedici şəkildə təqdim edilib. "Böyük Çin səddi" mətni isə oxucuya bu tikili haqqında əsas və vacib məlumatları vermək üçün yazılıb. Buna görə də faktlar sistemli şəkildə verilib və yarımbaşlıqlar üzrə qruplaşdırılıb.

## Araşdırma

**3** **a** **Şəki xan sarayı haqqında araşdırma aparın. Əldə etdiyiniz faktlar əsasında bu saray haqqında reklam vərəqi hazırlayın.**

**Təlimat:**
- Turistləri cəlb edən faktlara daha çox yer ayırın.
- Qısa və konkret cümlələrdən istifadə edin.
- Fotoşəkillərdən yararlanın.

**b** **Bir-birinizin yazısını yoxlayın və münasibət bildirin.**

Layihə

## Yazı

**4 a** **Fərqləndirilmiş sözlərin yazılışına diqqət edin. Fərqi izah edin.**

**1.** Böyük Çin ***səddi*** dünyanın ən uzun divarıdır.
**2.** Minlərlə insan yorulmadan ***sədlər*** qururdu.

**Bunları bilməliyik** EYNİCİNSLİ QOŞA SAMİTLƏ BİTƏN TƏKHECALI SÖZLƏR

Eynicinsli qoşa samitlə bitən təkhecalı sözlərin yazılışına diqqət etmək lazımdır. Belə sözlərə samitlə başlayan şəkilçi artırdıqda sözün kökündəki samitlərdən biri düşür. *Məsələn: haqq – haqlı.*

**b** **Nöqtələrin yerinə verilmiş sözləri düzgün yazmaqla cümlələri köçürün.**

*xətt* **a.** Səfər dəftərinə çəkdiyi ...i ...keşlə ölçdü.

*sirr* **b.** ...ini verməyir ...daşa dünya. (S. Vurğun)

**c** **Cümlələrdə səhv yazılmış sözü müəyyən edin. Səhvləri izah edin.**

**1.** Atası qızının uğuruna həddsiz dərəcədə sevinirdi.
**2.** Məktəbimizdə müxtəlif fənnlər üzrə yarışma keçiriləcək.
**3.** Sona haqqsız yerə əsəbiləşmişdi.
**4.** Konfransda tibbdə olan yeniliklərdən danışıldı.

**Bunları bilməliyik** MÜXTƏLİFCİNSLİ QOŞA SAMİTLƏ BİTƏN TƏKHECALI SÖZLƏR

Müxtəlifcinsli qoşa samitlə bitən təkhecalı sözlərin yazılışında bəzən səhvə yol verilir. Yanaşı gələn samitlərin arasına sait artırılır. Belə sözlərə samitlə başlanan şəkilçi artırdıqda sözün deyilişi ilə yazılışı fərqlənir: *rəhmdil* [*rəhimdil*].

| Sözlərin yazılışı | |
|---|---|
| **Düzgün** | **Yanlış** |
| *rəsm* | *rəsim* |
| *qəsr* | *qəsir* |

**ç** **Cümlələrdə səhv yazılmış sözü müəyyən edin. Səhvləri izah edin.**

**1.** Hökümdar qalibləri mükafatlandırdı.
**2.** Sərdar səhvini boynuna alıb üzür istədi.
**3.** Topladığım məlumatlara əsasən qeyri-bədii mətin yazdım.
**4.** Müəyyən dövürdən sonra hər şey unuduldu.

**d** **Sözün izahını oxuyun. Hansı cümlədə fərqləndirilmiş söz düzgün yazılmışdır?**

*əsr – 100 illik dövr*
*əsir – müharibədə ələ keçirilən düşmən əsgəri*

**a.** Çin səddinin ilk tikintisi e.ə VII-IV ***əsirlərdə*** aparılmışdır.
**b.** Hərbi ***əsirlər*** vətənlərinə döndülər.

Layihə

## Ümumiləşdirici təkrar

**1** **Hansı sözdə hecaların sayı daha çoxdur?**

a. şagird  b. utancaq  c. soyuducu  d. evimizdəki

**2** **Sətirdən sətrə keçirilmiş sözlərə diqqət edin. Səhvləri izah edib düzəldin.**

*1. Gələn dərsdə bizim qrupumuz N.*
*Gəncəvi haqqında təqdimat edəcək.*

*2. Yerimiz 10-*
*cu sırada idi.*

*3. Bacım albalının üzərinə 2*
*kq şəkər tozu əlavə etdi .*

*4. Hədiyyələri u-*
*şaqlara payladıq.*

**3** **Mürəkkəb sözləri seçin və sətirdən sətrə keçirmək üçün hecalara ayırın.**

*tərbiyə, quşüzümü, yeraltı, uzunboylu, Novruzəli, gözucu, əlvan, soyad, çalışqan*

**4** **Sözləri kök və şəkilçiyə ayırın.**

*güldandakı, döyüşçü, hiyləgərlik, işləmək, əməkdaşlığımız*

**5** **Aşağıdakı sözlərdə leksik və qrammatik şəkilçiləri fərqləndirin.**

*məktəblilər, hazırladı, yaxşılıqdan, gücləndilər, maraqlıdır, duzludur, üzümçülük*

**6** **Verilmiş sözlərə qrammatik şəkilçilər artırmaqla söz birləşmələri yaradın.**

*qızılgül, kol*
*qala, hündürlük*
*ağac, budaq*
*yarış, hazırlıq*
*xoşbəxtlik, sirr*
*ata, məsləhət*

**7** **Sözlərin kökünü və başlanğıc formasını müəyyənləşdirin.**

*balıqçını, birincilikdən, çoxalacaq, bağçadakılar, sözləşdilər*

**8** **Hansı cümlədə fərqləndirilmiş söz düzgün yazılmışdır.**

a. ***Mətin*** və iradəli insanlar məğlub olmaz.
b. Azərbaycan dili dərsində ***mətin*** üzərində işlədik.

a. O, həyatını Vətənə ***həsir*** etmişdi.
b. Samandan hörülmüş ***həsirin*** üzərində oturduq.



*həsir zənbil*

Layihə

bölmə 3

# Balaca qəhrəmanlar

**a** **Sevdiyiniz ədəbi qəhrəmanları xatırlayın.**
**Bu qəhrəmanların hansı xüsusiyyətlərini bəyənirsiniz?**

**b** **Rollu oxu. Şəkillərə baxaraq dialoqları oxuyun.**



**Lalə:** Salam, Cahid!

**Cahid:** Salam, Lalə! Sən də kitablara baxmağa gəlmisən?

**Lalə:** Bəli. Mən kitab sərgisinə valideynlərimlə birlikdə gəlmişəm.

**Cahid:** Mən isə qardaşımla.

**Lalə:** Necədir? Bura xoşuna gəlir?

**Cahid:** Çox xoşuma gəlir! Burada o qədər yeni və rəngarəng kitablar var ki!

**Lalə:** Həm də gözəl. Sən nəsə seçə bilmisən?

**Cahid:** Yox. Düzünü desəm, çaşıb qalmışam. Kitabların sayı çoxdur.

**Lalə:** Mən də hələ seçə bilməmişəm.

Layihə



**Qadın:** Uşaqlar, mən təsadüfən söhbətinizi eşitdim. Hansı kitabları daha çox xoşlayırsınız? Nağıllar, macəralar, bəlkə, fantastika?
**Cahid:** Mən macəra kitablarını sevirəm. Həm də kitabdakı macəralar təhlükəli olanda daha çox xoşuma gəlir. Elə istəyərəm ki, orada olum!
**Lalə:** Mənim də macəralardan xoşum gəlir. Həm də istəyirəm ki, o macəralarda həmişə sevdiyim qəhrəman qalib gəlsin.
**Qadın:** Qızım, mən sənə "Piter Pen" kitabını məsləhət görərdim. Sənə isə, oğlum, "Cəsur kapitanlar" kitabını.

***

**Cahid:** Lalə, mən kitabı oxudum. Elə maraqlı idi ki! Sanki mən, həqiqətən, macəranın içində idim!
**Lalə:** Mən də öz kitabımı bəyəndim.
**Cahid:** Mən kitabdakı macəralardan qardaşıma da danışdım. Çünki o, dənizlə çox maraqlanır. Qardaşım da kitabı oxudu və çox xoşuna gəldi.
**Lalə:** Mən isə kitabı anamla müzakirə etdim. Sən demə, anam da vaxtilə onu oxuyub. Buna baxmayaraq, əsəri yenidən maraqla oxudu.
**Cahid** (təəccüblə): Niyə ki?
**Lalə:** Anam dedi ki, bir əsəri yenidən oxuyanda onu daha yaxşı başa düşürsən.



**c** **Siz oxuduğunuz hansı kitabı yoldaşlarınıza tövsiyə edərdiniz? Həmin kitabın annotasiyasını yazın.**

Layihə

# Hüquqsuz qızlar

**1 a Sizcə, insanlar arasında dostluq münasibətləri necə yaranır? Yaxşı dost dedikdə nə nəzərdə tutulur?**

## Qaraca qız

**I hissə**

Yayın axır günləri idi. Ağca xanım şəhər məktəbinə oxumağa gedəcəkdi. O, anasından xahiş etdi ki, tətilin son günlərini kənddə keçirməyə icazə versin. Pəricahan xanım razı olub dedi:

– Yaxşı, qızım, mən özüm də səninlə bərabər kəndə gedəcəyəm. Ancaq bir şərtim var: Qaraca qız ilə görüşməyəcəksən. Sən bəy qızısan. Mən razı ola bilmərəm ki, qızım öz qulluqçusu ilə dostluq etsin. Bağın meyvəsi dərildikdən sonra Piri kişini də, Qaraca qızı da qovacağam.

Bu xəbərdən sonra Ağca xanım çox narahat oldu. O, indi kəndə getməsinə şad deyildi. Pəricahan xanım kəndə gələcəklərini teleqrafla Hüseynqulu ağaya xəbər verdi.

Qatar stansiyaya çatanda Ağca xanım gördü ki, Qaraca qız kənarda durub. Pəricahan xanımın başı əşyalarına qarışmışdı. Nökərlər çamadanları alıb faytona yığırdılar. Ağca xanım bundan istifadə edərək gizlicə Qaraca qızın yanına qaçıb onunla görüşdü.

– Tez ol, get, xanım bizi burada görməsin, yoxsa yenə hirslənər, – deyə Qaraca qız Ağca xanımı tələsdirdi.

– Doğru deyirsən, sonra görüşərik, – deyə Ağca xanım ata-anasına yanaşdı və onlar faytona minib yola düşdülər.

Ağalar qapıya çatanda xidmətçilər həyətdə cərgə ilə düzülüb zalım xanımın qorxusundan tir-tir əsirdilər.



Layihə

Bunların içində Piri kişi də vardı. Pəricahan xanım Qaraca qızı orada görməyib istehza ilə dedi:

– Qızım, bu da dostun Qaraca qızın vəfası, gör səni necə tez yadından çıxarmışdır.

Ağca xanım sirrin üstünü açmadı. Sabahı günü Ağca xanımın mürəbbiyəsi Mariya İvanovna da gəlib çıxdı. Lakin Ağca xanımın buraya gəlməkdə məqsədi Qaraca qız ilə gün keçirmək idi. O da mümkün olmadığından çox qəmgin idi.

**II hissə** Qaraca qızın kefi yox idi. Gün çıxmışdı. Qaraca qız oyanmışdı, amma hələ yerindən qalxmamışdı.



– Qızım, nə çox yatmısan. Sən heç belə gecikməzdin. Xəstə deyilsən ki? – deyə Piri kişi soruşdu.

– Yox, baba, amma durmağa heç həvəsim yoxdur.

Piri kişi qapını açıb dedi:

– Qızım, bax gör nə gözəl günəş çıxmışdır. Belə havada ancaq tənbəllər yatar.

Qaraca qız qalxıb geyinməyə başladı. Sonra əl-üzünü yuyub çayını içdi və bayıra çıxdı. Bağı gəzərkən Qaraca qızın gözünə qarışqa yuvası sataşdı. Bu qarışqalar arasında qanadlıları da vardı. Onlar qalxıb havada uçur, gah bu yuvanın, gah da o yuvanın ağzında qaynaşırdılar. Piri kişi Qaraca qıza yaxınlaşıb dedi:

– Qızım, nəyə baxırsan?

– Qarışqalara baxıram, baba. Bunların içində qanadlıları da var. Bu qanadlar nəyə lazımdır?

– Qızım, onların qanadları həmişəlik deyildir, onlar töküləcək. Bu gün qarışqaların toy günüdür. Bir azdan onların qanadı quruyub düşəcək. Qaraca qız babasından “qarışqa toyu” sözlərini eşitcək əllərini bir-birinə vurub şaqqıltı ilə güldü. Piri kişi də ona qoşulub gülməyə başladı.

– Bəli, qızım, qarışqaların toyudur. Get qavalını gətir, çal.

Piri babanın bu fikri Qaraca qıza xoş gəldi. O gedib qavalını gətirdi. Çalıb-oynamağa başladı. Piri kişi bu işdən şad oldu.

Bu vaxt Ağca xanım da bağçada oturub evcik tikirdi. Mariya İvanovna ona kitab oxuyurdu. Birdən Ağca xanım Qaraca qızın səsini eşitdi. Rəfiqəsini görmək üçün çəpərin qırağına gəldi. O, çəpərin dibindəki ilanı görmədi. Bilmədən ayağını onun üstünə basdı. Zəhərli ilan atılıb Ağca xanımın qolundan sancdı. Yazıq qız qışqırıb özünü Mariya İvanovnanın üstünə atdı. Mariya İvanovna evə su gətirməyə qaçdı. Səsə Pəricahan xanım və nökərlər tökülüb gəldilər.

Layihə

**III hissə** – Qızım, qavalını çalma, görək o gələn səs nədir, – deyə Piri baba Qaraca qızı dayandırdı.

– Baba, bu səs Pəricahan xanımın səsidir, – deyə Qaraca qız ildırım kimi götürüldü. Həyətə çatdıqda gördü ki, Ağca xanımın qolundan qan axır və Pəricahan xanım da ağlayaraq xidmətçilərə yalvarır:

– Sizə qurban olum, Ağcanın yarasını sorub ilanın zəhərini yerə tökün.

Lakin heç kəs qorxudan yerindən tərpənmirdi. Qaraca qız Pəricahan xanımdan bunu eşitcək Ağca xanımın qolundan zəhəri sorub yerə tökməyə başladı. Hamı qorxudan donmuş halda onlara baxırdı.

Pəricahan xanım Qaraca qızın saçlarını öpərək deyirdi:

– Qaraca qız, mənə yazığın gəlsin, qızımı ölməyə qoyma.

Qaraca qız isə Pəricahan xanıma fikir verməyib öz istəkli dostunu ölümdən xilas etməyə çalışırdı. Bir az sonra Qaraca qız nə qədər sordusa, daha yaradan qan gəlmədi.

Pəricahan xanım dedi:

– Səbir et, qızım, bu saat şəhərə teleqram vuracağam ki, atan həkim gətirsin.

Bu zaman Piri kişi gəlib çıxdı. Əhvalatdan xəbərdar olub kədərlə Qaraca qızın üzünə baxdı.

– Baba, gördünmü başımıza nə gəldi? – deyə Pəricahan xanım şikayətləndi.

– Bəli, gördüm. Onu da gördüm ki, öz balanı xilas etmək istəyirsən, amma bu kimsəsiz uşağa heç yazığın gəlmir.

– Baba, nə deyirsən? Qaraca qıza heç bir şey olmaz.

– Yaxşı bax, xanım.

Bu vaxt Qaraca qız dedi:

– Baba, içərim yanır. Mənə su ver, içim.

– Gəl, qızım, gedək. Görüm sənə necə kömək edə bilərəm.

Sonra üzünü xidmətçilərə tutub dedi:

– Qatıq gətirin, ayran edib qıza içirdim.

– Baba, sənə yalvarıram, Qaraca qızı aparma. Qoy burada yatsın. Teleqram vurmuşam, Hüseynqulu ağa şəhərdən həkim gətirəcəkdir, – deyə Pəricahan xanım onun qabağını kəsdi.

– Çəkil, sən indiyə kimi bu qızı yaxına qoymamısan, onu bəy qızına yaraşdırmamısan. İndi də mən onun bu zülm yuvasında qalmasına razı deyiləm.

Bunu deyib Piri baba Qaraca qızı öz daxmasına apardı.

*Süleyman Sani Axundovun*
*"Qaraca qız" əsəri əsasında işlənmişdir.*

**Söz mücrüsü**
- qulluqçu
- istehza
- həmişəlik
- mürəbbiyə
- çəpər
- daxma

Laylihə

## Söz ehtiyatı

**b** **Nöqtələrin yerinə uyğun gələn sözləri yazın.**

*çapar, istehza, həmişəlik, daxma, qulluqçu*

**1.** O, ... kəndə köçdü.
**2.** Evin ətrafına taxtadan ... çəkilmişdi.
**3.** ... evi təmizləyib qurtardı.
**4.** Hüseynqulu ağa ... ilə güldü.
**5.** Piri babanın ... həyatin o başında idi.

**c** **Mətnə əsasən *"mürəbbiyə"* sözünün mənasını təxmin edin. Kontekstdən çıxış edərək cavabınızı əsaslandırın.**

**a.** rəfiqə **b.** tərbiyəçi **c.** həkim **d.** xidmətçi

**ç** ***"Tele"*** **hissəciyinin mənasından çıxış edərək *"televizor"*, *"teleskop"*, *"telefon"* sözlərini izah edin.**

***tele*** – uzaq

- ***qramma*** – yazı: **teleqram** – uzaq məsafəyə ötürülən xəbər, məlumat
- ***videre*** – görmək: **televizor – ?**
- ***skopio*** – baxmaq: **teleskop – ?**
- ***fon*** – səs: **telefon – ?**

### Yadda saxla

Dilimizdəki bir çox sözlərin tərkibində qədim yunan və latın mənşəli hissəciklər işlənir. Onların ilkin mənasını bilməklə biz həmin sözlərin mənasını təxmin edə bilərik. Məsələn:

***bio*** – qədim yunan dilində: *həyat*
***qrafo*** – qədim yunan dilində: *yazıram*
***bioqrafiya*** – kiminsə həyatının yazıda əks olunması; tərcümeyi-hal

**d** **İzahlardan çıxış edərək verilmiş sözlərin mənalarını təxmin edin.**

avto – özü → avtobioqrafiya – ?
orfo – düzgün → orfoqram – ?
audio – eşidirəm → audiokitab – ?
aero – hava → aerokassa – ?

Layihə

## Nə anladın?

**2 a Cümlələri mətnin məzmununa əsasən tamamlayın.**

**1.** Pəricahan xanım qızının Qaraca qızla dostluq etməsini istəmirdi, çünki ... .
**2.** Pəricahan xanım xidmətçilərə yalvarırdı ki, ... .

**b Hadisələrin düzgün ardıcıllığını müəyyənləşdirin.**

**a.** Qaraca qız Ağca xanımı xilas edir.
**b.** Ağca xanım şəhərdən qayıdır.
**c.** Qaraca qızın halı pisləşir.
**ç.** Ağca xanımı ilan sancır.
**d.** Piri baba Qaraca qızla söhbət edir.

## Düşün və cavab ver

**c Mətnin hissələrini məzmuna uyğun yarımbaşlıqlarla adlandırın.**

**ç Mətndə göy rənglə verilmiş cümlələri oxuyun.**
**• Pəricahan xanım nə üçün Ağca xanıma bu sözləri deyirdi?**
**• "Ağca xanım sirrin üstünü açmadı" cümləsində hansı sirdən söhbət gedir?**

**d Qaraca qıza və Ağca xanıma aid xüsusiyyətləri seçin və mətnə istinad etməklə əsaslandırın.**

*qorxmaz, vəfalı, qayğıkeş, zəif, səmimi, aciz, mehriban, zərif*

| Qaraca qız | Ağca xanım | Hər ikisinə aid cəhətlər |
|---|---|---|
| | | |

**e Müzakirə. "Dost dosta tən gərək, tən olmasa, gen gərək" atalar sözünü izah edin. Bu atalar sözünü "Qaraca qız" əsərinin ideyası kimi qəbul etmək olarmı? Cavabınızı əsaslandırın.**

**ə Aşağıdakı fikirlərdən hansını əsərin ideyası kimi qəbul etmək olar? Mətnə istinad etməklə fikrinizi əsaslandırın.**

**a.** Əsl dost öz dostu yolunda fədakarlığa hazır olmalıdır.
**b.** Hər bir insanı, ilk növbədə, mənəvi keyfiyyətlərinə görə qiymətləndirmək lazımdır.
**c.** Valideynlər öz uşaqlarına dost seçimində sərbəstlik verməlidirlər.

Layihə

**f** **Əsərin ideyasının açılmasında əsas obrazların rolunu izah edin.**



*Qaraca qız*



*Ağca xanım*



*Pəricahan xanım*



*Piri baba*

## Dinləmə

**3 a** **“Kozetta” mətnini dinləyin. Mətnə əsasən Kozetta obrazını təsvir edin.**

**1.** Neçə yaşı var?
**2.** Hansı şəraitdə yaşayır?
**3.** Yaşadığı yerdə insanların ona münasibəti necədir?

**b** **Verilmiş plan və illüstrasiyalar əsasında mətnin qısa məzmununu danışın.**

**1.** Kozettanın vəziyyəti.
**2.** Kozettanın su dalınca getməsi.
**3.** Xeyirxah adamla tanışlıq.
**4.** Gözlənilməz hədiyyə.







Layihə

**c** **"Kozetta" və "Qaraca qız" mətnlərindəki obrazları müqayisə edin.**

- Qaraca qız – Kozetta
- Pəricahan xanım – Tenardyenin arvadı
- Piri baba – Jan Valjan

**ç** **Bu mətnlərdə insan münasibətlərindəki hansı mənfi cəhətlər tənqid olunur?**

**Yadda saxla**

Hər bir əsərdə obrazlar və baş qəhrəman olur. Hadisələr onların vasitəsilə oxucuya çatdırılır.

**Obraz** – əsərdə hadisələrin iştirakçısı; personaj.

**Baş qəhrəman** – əsərin ideyasını əks etdirən əsas obraz.

**d** **Təxəyyülünüzə əsasən "Kozetta" mətninin davamını təxmin edin. Aşağıdakı variantlardan birini seçin.**

**1.** Jan Valjan getdikdən sonra Kozettaya münasibət daha da pisləşir.
**2.** Jan Valjan Kozettanı özü ilə aparır.

**4** **a** **Uşaq hüquqları haqqında nə bilirsiniz?**

**b** **"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun aşağıda verilmiş maddələri ilə tanış olun.**

**Maddə 6.** Bütün uşaqlar bərabər hüquqlara malikdirlər.

**Maddə 9.** Hər bir uşağın həyat və sağlamlığının mühafizə edilməsi hüququ vardır.

**Maddə 14.** Hər bir uşağın vicdan, fikir və söz azadlığı vardır.

**Maddə 17.** Uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır.

**Maddə 20.** Hər bir uşağın mənzil hüququ vardır.

**Maddə 22.** Hər bir uşağın təhsil almaq hüququ vardır.

**Maddə 25.** Hər bir uşağın istirahət və asudə vaxtdan istifadə etmək hüququ vardır.

**c** **Hər iki mətnə istinad etməklə Qaraca qız və Kozettanın hansı hüquqlarının pozulduğunu müəyyənləşdirin. Nümunələr gətirməklə fikrinizi əsaslandırın.**

Layihə

## Yazı

**5 a** **“Xəstə”, “rəfiqə”, “narahat”, “qəmgin” sözlərində hansı samitlər işlənib?**

**b** **Aşağıdakı sözlərin yazılışında hansı səhvə yol verilib?**

*kənt, hopbanmaq, bitgi, çəkiç*

- **Samitlər arasındakı uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| *p* | *d* |
| *t* | *g* |
| *ç* | *b* |
| *k* | *c* |

**Bunları bilməliyik** **SAMİTLƏRİN NÖVLƏRİ**

Azərbaycan dilindəki samitlər kar və cingiltili olmaqla iki yerə bölünür:

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kar samitlər | ş | f | x | k | p | s | ç | t | h | k’ | - | - | - | - | x’ |
| Cingiltili samitlər | j | v | ğ | g | b | z | c | d | - | q | l | m | n | r | y |

**[k']** və **[x']** işarələri üzərindəki cizgi “ştrix” adlanır.

**[k']** – *“kapitan”*, *“kolleksiya”* kimi sözlərdəki “ka” hərfinin ifadə etdiyi səsdir.

**[x']** – *“bəzək”*, *“məktəb”* kimi sözlərdəki “ke” hərfinin ifadə etdiyi səsdir. Bu səs [y] səsinə yaxın tələffüz olunur.

**c** **Kar və cingiltili samitli sözləri cədvəlin uyğun yerlərinə yazın.**

*test, nərgiz, jurnal, sakit, pişik, qələm*

| Kar samitli sözlər | Cingiltili samitli sözlər |
|---|---|
| | |

Kar və cingiltili samit cütlərinin tələffüzü oxşar olur. Məsələn, *t – d* kar və cingiltili samit cütüdür, ona görə də bəzən *kənd* əvəzinə səhvən *kənt* yazırlar.

**ç** **Tələffüz forması verilmiş sözləri orfoqrafik normalara uyğun yazın.**

[şabalıt], [hətda], [dik'qət], [ipəx'],
[fişənk], [hopbammax], [kəsgin], [cavap]

**Yadda saxla**

Səslərin və sözlərin tələffüz forması mötərizə içərisində yazılır. Buna **transkripsiya** deyilir.

Layihə

**1 a** Qruplarla iş. **Qruplara bölünərək mətnin hissələrini oxuyun.**
- **Oxuduğunuz hissəni uyğun başlıqla adlandırın və onun məzmununa dair üç sual hazırlayın.**
- **Həmin hissəni nəql edin və suallarınızı dinləyicilərə yönəldin.**
- **Yoldaşlarınızın cavablarına reaksiya verin.**



## Tom özünü fəda edir

I hissə Bekki sinifdə təzə qız idi. Onların ailəsi bir neçə ay əvvəl bu şəhərə köçmüşdü. Sinifdə Alfredlə Tomun Bekkidən xoşu gəlirdi. Tom çox dəcəl idi. Amma hiss olunurdu ki, Tomla söhbət etmək Bekki üçün daha maraqlı idi.

Lakin günlərin bir günü Bekki ilə Tom bir-birindən küsdülər. Artıq neçə gün idi ki, danışmırdılar. Ancaq ikisi də barışmağı çox istəyirdi. Alfred kefdə idi. Bütün günü Bekkinin ətrafında dolanırdı. Böyük tənəffüsdə onlar məktəbin həyətindəki skamyada yanaşı əyləşib kitabdakı şəkillərə baxırdılar. Tom başqa uşaqlarla oynasa da, bir gözü Bekkidə idi. Qızın ona tərəf baxmaması Tomu lap **özündən çıxarırdı**. Ancaq Bekki hər şeyi görürdü. Tomun ona görə **əzab çəkməsindən ləzzət alırdı**.



Bir azdan Tom harasa yoxa çıxdı. Vaxt keçir, o isə gəlib çıxmırdı. Ona görə də Alfredlə oturmaq Bekkini darıxdırdı. Oğlan qızın darıxdığını görüb hey şəkilləri göstərirdi. Axırda Bekki dözə bilməyib qışqırdı:

– Eh, sən də! **Əl çək** görək! Sənin şəkillərin mənə lazım deyil! – deyə yerindən durub oradan uzaqlaşdı.

### Söz ehtiyatı

**b** **Uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| **1.** özündən çıxarmaq | **a.** sıxıntı içində olmaq |
| **2.** əzab çəkmək | **b.** çox xoşuna gəlmək |
| **3.** ləzzət almaq | **c.** aralanmaq, uzaqlaşmaq |
| **4.** əl çəkmək | **ç.** əsəbiləşdirmək |

Layihə

**II hissə** Alfred, nəhayət, başa düşdü ki, Bekki Tom Soyerə acıq vermək üçün oturub onunla danışırmış. Həmin an onun Tomdan daha çox zəhləsi getdi. O durub sinfə yollandı. Sinif otağında heç kim yox idi. Birdən Alfredin gözünə Tomun dəftər-kitabı sataşdı. Yaxşı fürsət idi. O, Tomun kitabını götürdü, müəllimin dərs tapşırdığı səhifəni açıb üstünə mürəkkəb tökdü.



Bu an Bekki pəncərədən Alfredin nə elədiyini gördü. Amma bir söz demədən oradan uzaqlaşdı. O istəyirdi, Tomu tapıb əhvalatı ona danışsın. Əlbəttə, Tom ona təşəkkür edəcəkdi, onlar barışacaqdılar. Ancaq Bekki yarı yolda fikrini dəyişdi. Qərara aldı ki, Toma heç nə deməsin.

Birdən dəhlizdə Tomla Bekki üz-üzə gəldilər. Tom özünü toplayıb qıza dedi:

– Bekki, mən o gün çox pis hərəkət elədim. İndi özüm də peşman olmuşam. Bir də belə etməyəcəyəm. Gəl barışaq, yaxşımı?

Lakin qız razılaşmadı:

– Məni rahat buraxsanız, çox minnətdar olaram, cənab Tomas Soyer. Mən daha sizinlə danışmıram.

O, başını dik tutub uzaqlaşdı. Başqa vaxt olsaydı, Tom deyərdi: “Xoş getdin, çox elə lazımdır!” Ancaq indi çaşıb qaldı, heç nə deyə bilmədi.

**c** **Mətndə “mürəkkəb” sözü hansı mənada işlənib?**

**a.** Bir neçə hissədən ibarət olan; çətin.
**b.** Yazı yazmaq üçün rəngli maye – boya.

**III hissə** Müəllim Dobbinsin bir adəti vardı: uşaqlar onun verdiyi tapşırığı hazırlayanda bir kitab çıxarıb oxuyardı. Kitab qoyulan siyirməni o, həmişə bağlı saxlayırdı. Müəllimin oxuduğu kitab uşaqların hamısını maraqlandırırdı.

Bekki sinfə birinci gəlmişdi. O gördü ki, açar siyirmənin üstündədir. Ətrafda heç kəs yox idi. Bekki kitabı götürdü. Birinci səhifədəki “Anatomiya” sözlərindən heç bir şey başa düşmədi. Kitabı vərəqləməyə başladı. Açdığı səhifədə rəngli şəkil gördü; bu, insan orqanlarının şəkli idi.

Layihə



Həmin dəqiqə kiminsə kölgəsi səhifənin üstünə düşdü: Tom Soyer də kitaba baxırdı. Bekki kitabı tələsik örtmək istəyəndə səhifəni yarıyadək cırdı. Qız tez kitabı yeşiyə atdı. Acığından və xəcalətindən ağlamağa başladı.

– Eyib olsun, Tom! Məni güdürdün?! Yəqin ki, indi hər şeyi müəllimə deyəcəksən. Müəllim mənə cəza verəcək! – deyə Bekki daha da bərkdən ağlamağa başladı.

Tom öz-özünə dedi: “Qızların elə hamısı belə olur. Qorxaqlar! Məgər mən xəbərçiyəm?! Onsuz da Dobbins kitabı kimin cırdığını tapacaq”.

**IV hissə** Dərs başlandı. Bir azdan məlum oldu ki, Tomun dərsliyi mürəkkəbə batıb. Tom günahı olmadığını desə də, ona inanmadılar. Bekki oğlanı cəzadan qurtarmaq üçün həqiqəti demək istədi, amma cəsarəti çatmadı. Həm də o elə bilirdi ki, Tom kitabı onun cırdığını müəllimə söyləyəcək.

Tom cəzalandıqdan sonra yerinə qayıtdı. O fikirləşirdi ki, bəlkə də, elə özü nadinclik edəndə mürəkkəbi aşırıb. Beləliklə, bir saat keçdi. Uşaqlar dərs əzbərləyirdilər. Müəllim stolun siyirməsini açıb əlini kitaba uzatdı. O, kitabı götürüb vərəqlədi. Birdən Dobbinsin qəzəbli səsi eşidildi:

– Kitabı kim cırıb?

Cavab verən olmadı. Müəllim bir-bir uşaqların üzünə baxıb günahkarı axtarırdı.

O, bir-bir hamını qaldırıb soruşmağa başladı. Növbə Bekkiyə çatırdı. Birdən Tomun ağlına parlaq bir fikir gəldi. O, yerindən qışqırdı:

– Mən cırmışam!

Bütün uşaqların ağzı açıla qaldı. Tom bütün cəsarətini toplayıb qabağa çıxdı. Bekkinin gözlərindəki təşəkkür ona yüzqat mükafat oldu! Tom səsini çıxarmadan mister Dobbinsin dəhşətli çubuq zərbələrinə dözdü. Üstəlik, dərsdən sonra iki saat sinifdə qalmaq əmrinə də tabe oldu. **Tom qapıda onu kimin gözləyəcəyini bilirdi.**



*Mark Tvenin “Tom Soyerin macəraları” əsəri əsasında işlənmişdir.*

**Söz mücrüsü**

- özündən çıxarmaq • əzab çəkmək
- ləzzət almaq • acıq vermək
- zəhləsi getmək • mürəkkəb
- siyirmə • xəcalət • qisas almaq

Layihə

## Nə anladın?

**2 a Hadisələrin düzgün ardıcıllığını müəyyənləşdirin.**

**a.** Müəllim Tomu cəzalandırır.
**b.** Alfred Tomun kitabına mürəkkəb tökür.
**c.** Tom Bekkini müdafiə edir.
**ç.** Tom və Bekki bir-birindən küsür.
**d.** Bekki kitabı cırır.

**b Hansı fikir doğrudur?**

**a.** Bekki Alfred üçün darıxırdı.
**b.** Alfred Tomun kitabını cırdı.
**c.** Bekki Tomun üzr istəməsini qəbul etmədi.
**d.** Alfred Tomun yaxın dostu idi.

## Düşün və cavab ver

**c Mətnin sonuncu cümləsinə diqqət yetirin. Sizcə, Tomu qapıda kim gözləyəcəkdi?**

**a.** Bekki
**b.** Dobbins
**c.** Alfred

**ç Qruplarla iş. Mətnə əsasən obrazlar xəritəsi tərtib edin.**

***I qrup: Tom***
***II qrup: Bekki***
***III qrup: Alfred***

**d Mətndəki əsas fikir nədən ibarətdir? Uyğun epizodları qeyd etməklə fikirlərinizi əsaslandırın.**

**e Sizcə, Bekki nə üçün Alfredin hərəkətini Toma söyləmədi? Siz onun yerinə olsaydınız, bunu Toma xəbər verərdinizmi?**

**ə Mətnin əvvəlində deyilir: "... Günlərin bir günü Bekki ilə Tom bir-birindən küsdülər". Sizcə, onların küsməsinə nə səbəb oldu? Təxəyyülünüzə uyğun situasiya düşünüb mətnin bu hissəsini genişləndirib yazın.**

Layihə

## Dinləmə

**3 a** **Sizcə, Tomun fədakar hərəkətindən sonra Tom və Bekkinin münasibətləri necə davam edəcək?**

**b** **Qeyd götürməklə "Tom və Bekki mağarada" mətnini dinləyin. Götürdüyünüz qeydləri yarımbaşlıqlar altında qruplaşdırın.**

**Sözlərin izahı**

**Stalaktit** – bəzi mağaraların tavanından sallanan buz lüləsinə bənzər mineral maddə.
**Mil** – əsasən, ABŞ və İngiltərədə istifadə olunan uzunluq ölçü vahididir; 1 mil 1609 metrə bərabərdir.

*Nümunə*

***Mağaranın təsviri***

*çay, şəlalə, darısqal keçid*
*kahalar, stalaktit*

***Təhlükə ilə üzbəüz***

______________________
______________________

***İrəli, yoxsa geri?***

______________________
______________________

***Tomun fərasəti***

______________________
______________________

***Xilas***

______________________
______________________

**c** **Götürdüyünüz qeydlərə və aşağıdakı illüstrasiyalara əsasən "Tom və Bekki mağarada" mətnini nəql edin.**



**ç** **"Tom və Bekki mağarada" mətnini dinlədikdən sonra bu iki obrazın xarakterinə hansı xüsusiyyətləri əlavə etmək olar?**

Layihə

## Yazı

**4 a Aşağıdakı sözlərdə “k” samitinin tələffüzünü müəyyən edin.**

*blok, çiçək, tikinti*

**Bunları bilməliyik** **“K” SAMİTİNİN TƏLƏFFÜZÜ**

İşləndiyi sözdən asılı olaraq “k” hərfi müxtəlif səsləri ifadə edir:
*küçə, kitab* sözlərində – **[k]** səsini;
*komanda, klub* sözlərində – **[k']** səsini;
*bitki, seçki* sözlərində – **[g]** səsini;
*məktəb, çiyələk* sözlərində – **[x']** səsini.

**b Verilmiş sözləri tələffüz edin. “K” samitinin transkripsiyasına diqqət yetirin.**

| | | | |
|---|---|---|---|
| *səksən* – **[x']** | *təkər* – **[k]** | *məskən* – **[g]** | *kanal* – **[k']** |
| *könül* – **[k]** | *sürtkü* – **[g]** | *aktyor* – **[k']** | *bilək* – **[x']** |

**Bunları bilməliyik** **K – Y ƏVƏZLƏNMƏSİ**

Bir çox sözlərin sonunda “k” samiti “y” samitinin kar qarşılığı olan [x'] kimi səslənir: *çörə**k** [çörə**x'**], əlcə**k** [əlcə**x'**], gəlmə**k** [gəlmə**x'**].*
Belə sözlərə saitlə başlanan şəkilçi artırıldıqda “k” samiti “y” samitinə keçir: *çörə**k** – çörə**y**ə, əlcə**k** – əlcə**y**in, gəlmə**k** – gəlmə**y**i.*

**c Soldakı nümunələrə əsasən, sağ cədvəldəki sözlərin düzgün yazılışını müəyyən edin.**

| Yanlış | Düzgün |
|---|---|
| göyçəy | göyçək |
| tənəkin | tənəyin |
| döşəylər | döşəklər |
| kirpikim | kirpiyim |
| diləylərimiz | diləklərimiz |

| Yanlış | Düzgün |
|---|---|
| bilməy | |
| çimərlikin | |
| əriylər | |
| gözlüküm | |
| ördəylərimiz | |

**ç Hansı cümlələrdə fərqləndirilmiş sözlər səhv yazılıb?**

**1.** Kəmalə xala tikiş **fabrikində** işləyir.
**2.** Baba **inəki** tövləyə apardı.
**3.** **Parkın** ətrafında çoxlu maşın var idi.
**4.** Rasim kitablarını **yeşikə** qoydu.

**Söz sonunda “K”** samiti **[k]** və **[k']** kimi tələffüz olunduqda **k-y** əvəzlənməsi baş vermir. Məsələn:
*iştirak – iştirakı, tank – tankın.*

Layihə

**1 a** **Siz “Kozetta” mətnini dinləyərkən Tenardye obrazı ilə tanış oldunuz. İndi isə Qavroş haqqında mətni oxuyun. Hər iki mətn Viktor Hüqonun “Səfillər” romanındandır. Sizcə, əsər nə üçün belə adlanır?**

**Sözlərin izahı**

**Səfil** – daimi yaşayış yeri olmayan, yoxsulluq içərisində yaşayan.

## QAVROŞ

...Payızın sonu idi. Parisdə bərk külək əsir, yağış yağırdı. Qavroş tir-tir əsə-əsə bərbərxana qarşısında dayanmışdı. Bərbər müştərinin üzünü qırxa-qırxa arabir ona çəp-çəp baxırdı.

Birdən təmiz geyinmiş iki uşaq qapını açıb bərbərxanaya girdi. Nəsə dedilər. Bərbər hirsləndi. Ülgücü əlindən yerə qoymadan böyüyü əli ilə, kiçiyi dizi ilə itələyərək bayıra çıxartdı. Uşaqlar ağlaya-ağlaya yola düzəldilər. Qavroş özünü onlara yetirib soruşdu:



– Sizə nə olub, cücələr?

Yaşca böyük uşaq dedi:

– Bilmirik, harada yataq.

– Elə bu? Çox böyük iş olub! Bundan ötrü adam ağlayar? Dalımca gəlin, balalar!

Qavroş küçə ilə yuxarıya tərəf irəlilədi. Uşaqlar ondan geri qalmamağa çalışır, ona xilaskar kimi baxırdılar. Qavroş onlardan soruşdu:

– Deməli, sizin də nə atanız var, nə ananız?

– Niyə ki? Bizim anamız var. Biz küçədə oynayırdıq. Gələndə gördük ki, evimizin qapısı bağlıdır. Qonşular dedilər ki, anamızı polislər aparıb. Bilmirik, o, indi haradadır.

Yağış sanki acıqlanıb daha bərk yağmağa başlamışdı. Qavroş addımlarını yeyinlədirdi ki, bir qədər qızışsın. Uşaqlar özlərini Qavroşa yetirməyə çalışırdılar. Onlar çörək dükanının qarşısından keçəndə Qavroş soruşdu:

– Hə, balacalar, deyin görüm, nahar eləmisiniz?

Uşaqlardan böyüyü:

– Səhərdən heç nə yeməmişik. İki saatdır gəzirik, zibil qutularını da axtarmışıq, amma yeməyə bir şey tapmadıq.

Laylə

Qavroş ayaq saxlayıb cibini eşələdi. Nəhayət, başını qaldırdı. Üzündə razılıq ifadəsi vardı. Təntənəli bir görkəmlə:

– Uşaqlar, sakit! – dedi. – Axşam yeməyimiz üçün çatar.

Qavroş dükana girib çörək aldı. Onu üç yerə bölüb ikisini uşaqlara verdi:

– Yeyin!

Parisin baş meydanında köhnə bir fil heykəli vardı. Bu çox nəhəng bir heykəl idi. İçi boş idi. Ora-burasında deşiklər açılmışdı.

Qavroş bir **nərdivan** tapıb filin qabaq ayağına söykədi. Heykəlin qarnında açılmış yekə deşiyi uşaqlara göstərib dedi:

– Bu nərdivanla qalxıb ora girin.

Uşaqlar qorxaraq bir-birinə baxdılar.

– Çağalar, qorxursunuz? Axı burda nə var ki?! Bir baxın!

Qavroş filin kələ-kötür qıçından ikiəlli yapışdı. Bir göz qırpımında nərdivansız dırmaşaraq deşiyə çatdı və **koramal** kimi sürünərək ora girdi. Deşikdən başını çıxarıb dedi:

– Gördünüz?! İndi siz də çıxın!

Qavroş meymun cəldliyi ilə filin qıçından sürüşüb düşdü. Balacaların qalxmasına kömək etdi.

– Budur, gəlib çatdıq. Hə, uşaqlar, indi siz mənim evimdəsiniz.

Qavroş **qatranlı fitilin** ucunu yandırdı. İçəri bir az işıqlandı. Uşaqlardan kiçiyi böyüyə qısılaraq dedi:

– Bura qaranlıqdır.

Qavroşun uşağa yazığı gəldi:

– Ay səfeh, bayır qaranlıqdır, amma burda şam yanır. Orda yağış yağır, amma bura qurudur. Bayır soyuqdur, burda meh də əsmir.



Qavroş onlara **həsir** və digər cır-cındırdan yatmağa yer düzəltdi.

– Bu həsiri zooparkdan, meymunlardan çırpışdırmışam.

Başqa bir qalın həsiri göstərib dedi:

– Bu isə zürafənindir. Dedim, filə lazımdır. Etiraz etmədi.

Uşaqlar bir-birinə sığındılar. Qavroş: "İndi isə yatın!" – deyib işığı söndürdü. İşıq sönən kimi siçovulların ciyiltisi eşidildi. Onlar dişləri və dırnaqları ilə həsirləri didişdirirdilər.

– Bu nə səsdir? – uşaqlardan balacası soruşdu.

– Siçovullardır.

– Bəs pişiyin yoxdur?

– Pişiyim vardı, siçovullar yedi.

– Bu siçovullar bizi də yeyə bilər?

– Əlbəttə, yeyərlər!

Uşağın qorxusu son həddə çatdı. Qavroş gülüb onu sakitləşdirdi:

– Qorxma! Onlar bizim yanımıza gələ bilməzlər. Mən burdayam. Al, mənim əlimdən tut. Səsini kəs, yat.

Bir azdan uşaqlar mışıl-mışıl yatırdılar.

**Söz mücrüsü**

• bərbər • təntənəli • nərdivan
• həsir • meh • qısılmaq • fitil
• sığınmaq • koramal • qatran

## Söz ehtiyatı

**b** **Fərqləndirilmiş sözləri "Söz mücrüsü"ndən uyğun gələn sözlərlə əvəz edin.**

**1.** Ramil bacarıqlı ***saç ustasıdır***.
**2.** Axşam ***zəif külək*** əsməyə başladı.
**3.** Uşaq küncə ***sıxılıb*** ağlayırdı.
**4.** Adamlar güclü yağışdan ***gizlənməyə*** yer axtarırdılar.

**c** **Kontekstdən çıxış edərək uyğunluğu müəyyənləşdirin.**

| | |
|---|---|
| **1.** koramal | **a.** qara rəngli, yapışqanlı, tezalışan maddə |
| **2.** qatran | **b.** alışqan maddə sürtülmüş ip |
| **3.** fitil | **c.** bir yerə qalxmaq və ya enmək üçün pilləli vəsait |
| **4.** nərdivan | **ç.** yerə sərmək üçün qamışdan toxunan döşənək |
| **5.** həsir | **d.** ilanabənzər ayaqsız kərtənkələ |

**ç** **Mətnin məzmunundan çıxış edərək "mışıl-mışıl yatmaq" ifadəsini izah edin.**

Layihə

## Nə anladın?

**d** **Mətnə əsasən suallara cavab verin.**

1. Hadisələr harada baş verir?
2. Uşaqlar nə üçün küçədə qalmışdılar?
3. Qavroş uşaqları hara apardı?
4. Uşaqlar Qavroşun sığınacağında nədən qorxurdular?
5. Qavroş onları necə sakitləşdirdi?

**e** **Mətnə istinad edərək aşağıdakı fikirlərin doğru (D), yanlış (Y), ehtimal (E) olduğunu müəyyənləşdirin.**

| | |
|---|---|
| **1.** Uşaqların qalmağa yeri yox idi. | **D Y E** |
| **2.** Uşaqlar kimsəsiz idilər. | **D Y E** |
| **3.** Qavroş uşaqları qorumağa çalışırdı. | **D Y E** |
| **4.** Qavroş bütün kimsəsiz uşaqlara kömək edirdi. | **D Y E** |
| **5.** Qavroşun rahat evi vardı. | **D Y E** |
| **6.** Uşaqlar Qavroşun yanında həmişəlik qaldılar. | **D Y E** |

## Düşün və cavab ver

**2 a** **Mətnin 2-ci abzasında altından xətt çəkilmiş cümlələri bir daha oxuyun. Sizcə, uşaqlar bərbərə nə dedilər?**

**b** **Təxəyyülünüzə və düşüncələrinizə əsasən cümlələri tamamlayın. Mətnə istinad etməklə fikirlərinizi əsaslandırın.**

1. Bərbər Qavroşa tərs-tərs baxırdı, çünki ... .
2. Bərbər uşaqları itələyib çölə çıxardı, çünki ... .
3. Qavroş uşaqlara kömək etmək istədi, çünki ... .
4. Uşaqlar tanımadıqları Qavroşun təklifini qəbul etdilər, çünki ... .

**c** **Sizcə, Viktor Hüqo "Səfillər" romanında oxucuların diqqətini hansı problemə cəlb etmək istəyib? Mətnlərə istinad etməklə fikrinizi əsaslandırın.**

**ç** **Dərsliyin 58-ci səhifəsində verilmiş "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanunundan maddələri bir daha oxuyun.
"Qavroş" mətninin qəhrəmanlarının hansı hüquqları pozulub?
Onların hüquqlarını bərpa etmək üçün nə etmək lazımdır?**

Layihə

**d** **Qavroşun nitqinə əsasən onun xarakteri haqqında nə demək olar?**

*Sizə nə olub, cücələr?*

*Çağalar, qorxursunuz? Axı burda nə var ki?!*

*Ay səfeh, bayır qaranlıqdır, amma burda şam yanır.*

*Bu həsiri zooparkdan, meymunlardan çırpışdırmışam.*

*Bu isə zürafənindir. Dedim, filə lazımdır. Etiraz etmədi.*

*Mən burdayam. Al, mənim əlimdən tut.*

**Sözlərin izahı**

**Yumor** – fikirləri, hadisələri zarafatla ifadə etmək bacarığı.
**Nəvaziş** – mehribanlıq, qayğı.

**Yadda saxla**

Bədii əsərdə əsas fikir obrazlar və onların xarakterik xüsusiyyətləri vasitəsilə verilir. Obrazın əsas xüsusiyyətləri onun düşüncələri, nitqi, hərəkətləri və s. ilə oxucuya çatdırılır.

## Dinləmə. Yazı

**3 a** **Qeydlər götürməklə "Şahzadə və dilənçi" mətnini dinləyin.**

**b** **Mətnin məzmununa əsasən cümlələri tamamlayın.**

**1.** Kral sarayında hamı şadlıq edirdi, çünki ... .
**2.** Tom evə əliboş gəlməyə qorxurdu, çünki ... .
**3.** Şahzadə uşaqlarla oynamağı arzulayırdı, çünki ... .

**c** **Şəkillərə əsasən dinlədiyiniz mətnin qısa məzmununu yazın.**



Layihə

**4 a** **Sizcə, Tom və Eduardın aqibəti necə olacaq?**
**Aşağıdakı şəkillərə və təxəyyülünüzə əsasən mətnin davamını nəql edin.**



*Eduard dilənçilərin əhatəsində*



*Tomun İngiltərə kralı ilə görüşü*



*Eduard Tomun ailəsində*



*Eduardın saraya qayıdışı*

**b** **Bu bölmədə verilən əsərləri müqayisə edin.**
**Müqayisə apardığınız xüsusiyyətləri cədvəldəki əsərlərlə uyğunlaşdırın.**

| ***Müqayisə edilən xüsusiyyətlər*** | ***Əsərlər*** | | | | |
|---|---|---|---|---|---|
| | *Qaraca qız* | *Tom özünü fəda edir.* | *Tom və Bekki mağarada* | *Qavroş* | *Şahzadə və dilənçi* |
| Uşaq öz dostunu xilas edir. | | | | | |
| Uşaqlar dostlaşırlar. | | | | | |
| Uşaq həm özünü, həm də dostunu çətinlikdən çıxarır. | | | | | |

Layihə

## Yazı

**5 a** **Hansı cümlədə fərqləndirilmiş söz səhv yazılıb?**

**1.** Həyatimiz **yumşax** qarla örtülmüşdü.

**2. Faiq** bu gün məktəbə getməyəcək?

**3. Vaqif** həmişə yoldaşlarına kömək edir.

**Bunları bilməliyik** **"Q" SAMİTİNİN TƏLƏFFÜZÜ**

İşləndiyi sözdən asılı olaraq "q" hərfi müxtəlif səsləri ifadə edir:
**1.** yazıldığı kimi: *[**q**əzet], [pro**q**ram]*;
**2.** [x] kimi: *[ota**x**], [uza**x**]*;
**3.** [k'] kimi: *[rə**k'**s], [üfü**k'**]*.

**b** **Verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.**

| | | |
|---|---|---|
| yarpax | | yarpaq |
| Oktay | | Oqtay |
| hüquq | *yoxsa* | hüquk |
| balıq | | balıx |
| dokquz | | doqquz |

**Bunları bilməliyik** **Q – Ğ ƏVƏZLƏNMƏSİ**

Son samiti "q" ilə yazılan, lakin [x] kimi tələffüz olunan sözlərə saitlə başlanan şəkilçi artırıldıqda "q" samiti "ğ" samitinə keçir:
*torpa**q** [torpa**x**] – torpa**ğ**ın;*
*papa**q** [papa**x**] – papa**ğ**a;*
*yazma**q** [yazma**x**] – yazma**ğ**ı.*

**c** **Altından xətt çəkilmiş hansı sözdə *q* samiti *ğ* ilə əvəz olunmalıdır?**

**a.** Bula**q**ın bumbuz suyundan içib yolumuza davam etdik.

**b.** Hamı mara**q**la filmin başlanmasını gözləyirdi.

**c.** Fikir yürüdərkən həmişə mənti**q**ə əsaslanmaq lazımdır.

**d.** Toyu**q**lara dən verməyi unutma!

**ç** **Hansı sözlərə saitlə başlanan şəkilçi artırıldıqda *q – ğ* əvəzlənməsi baş vermir?**

*ayaq, şəfəq, qulaq, natiq, üfüq, xalq, oxumaq, barmaq, vərəq, qazmaq*

Layihə

## Ümumiləşdirici təkrar

**1** **Hansı sözlər səhv yazılmışdır? Həmin sözlərdə samitlərin düzgün yazılışını müəyyən edin.**

*çalışqan, gösdərmək, diray, köçkün, bitgi, şəfək, qərənfil, gülmay, mühtəlif, məksəd*

**2** **Nöqtələrin yerinə uyğun gələn hərfləri yazmaqla sözləri köçürün.**

| | |
|---|---|
| çələn... (g/k) | armu... (d/t) |
| kən... (t/d) | Sahi... (b/p) |
| ta... (c/ç) | tüfən... (k/g) |
| cava... (p/b) | tura... (ç/c) |

**3** **Aşağıdakı cümlələrdə nöqtələrin yerinə uyğun hərfləri yazın.**

1. Uşaqlar maraqla ala-bəzək kəpənə...ə baxırdılar.
2. Müəllim dərsli...də verilmiş tapşırı...ları izah etdi.
3. Leylə...in qanadlarının uzunlu...u iki metrə qədərdir.
4. Qardaşım sürücülü... kursuna gedir.
5. Güclü külə...dən sonra hava sərinləşdi.
6. Cahan rəsm çəkmə...i çox sevir.

**4** **Verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.**

| | | |
|---|---|---|
| sancax | | sancaq |
| səkkiz | | səkgiz |
| kəsgin | *yoxsa* | kəskin |
| pencəy | | pencək |

**5** **Cədvəldəki nümunələrə əsasən verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.**

| Yanlış | Düzgün |
|---|---|
| fərk | fərq |
| ayakqabı | ayaqqabı |
| kutu | qutu |
| tutkun | tutqun |

→

| Yanlış | Düzgün |
|---|---|
| şərk | |
| takqıltı | |
| kısa | |
| məksəd | |

**6** **Hansı cümlələrdə q-ğ əvəzlənməsi olan söz vardır?**

1. Alpinistlər dağın zirvəsinə qalxdılar.
2. Uşaqlar Qavroşa çatmağa çalışırdılar.
3. Mənim şirin qoğaldan xoşum gəlir.
4. Əsgərlər torpağı qazıb səngər düzəltdilər.
5. Bayrağımıza baxdıqca qürur duyuruq.

Layihə

bölmə

# 4 Tarixi abidələr

**a** **Leyla səyahəti çox sevir. Səyahət etdiyi ölkələrə aid markaları toplayır. Sizcə, o hansı ölkələrə səyahət edib?**













**b** **Müxtəlif ölkələrin rəmzi sayılan abidələr haqqında məlumat vərəqləri ilə tanış olun. Bu məlumatları rabitəli mətnə çevirib sinfə təqdim edin.**

## ALOV QÜLLƏLƏRİ

**Ölkə:** Azərbaycan
**Şəhər:** Bakı
**İnşa tarixi:** 2007-2013-cü illər
**Hündürlüyü:** 182 metr
**İstifadəsi:** yaşayış kompleksi
**Əlavə məlumat:** "Alov Qüllələri" işıqlandırılma üzrə birinci yeri tutur.



## BİQ BEN

**Ölkə:** İngiltərə
**Şəhər:** London
**İnşa tarixi:** 1858-1859-cu illər
**Hündürlüyü:** 96 metr
**İstifadəsi:** zəngli saat qülləsi
**Əlavə məlumat:** Saatın zəng çanağının çəkisi 13,7 tondur.



Layihə

## TAC MAHAL

**Ölkə:** Hindistan
**Şəhər:** Aqra
**İnşa tarixi:** 1632-1653-cü illər
**Hündürlüyü:** 73 metr
**İstifadəsi:** muzey
**Əlavə məlumat:** Bu abidə 1983-cü ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına salınıb.



## KOLİZEY

**Ölkə:** İtaliya
**Şəhər:** Roma
**İnşa tarixi:** 72-80-ci illər
**Hündürlüyü:** 48 metr
**İstifadəsi:** açıq səma altında muzey
**Əlavə məlumat:** Dünyada ən böyük və ən gözəl antik amfiteatr sayılır.



## Araşdırma

**c** **Sizcə, Azərbaycana gələn turistlər ölkəmiz haqqında hansı məlumatları bilməlidirlər? Ölkəmizi təqdim etmək üçün reklam vərəqi hazırlayın.**

**Təlimat:**
- Azərbaycanın simvoluna çevrilmiş tarixi abidələr haqqında faktlar toplayın.
- Ölkəmizin özünəməxsus ünsiyyət etiketləri haqqında məlumat verin.
- Azərbaycan mətbəxi haqqında danışın.
- Fotoşəkillərdən istifadə edin.

**ç** **Bir-birinizin yazısını yoxlayın və münasibət bildirin.**

Layihə

# Qalalar

**1 a Mətni oxuyun. Yeni sözlərdən istifadə edərək qala-şəhərlər haqqında danışın.**

## QALA-ŞƏHƏRLƏR

Bir çox şəhərləri gəzsəniz, onların mərkəzi hissəsində qədim qala divarları görə bilərsiniz. Bu o deməkdir ki, həmin şəhərlər vaxtilə kiçik qala-şəhərdən ibarət olub. Sonra isə həmin qalanın ətrafında müasir şəhər salınıb. Müdafiə məqsədilə tikilmiş bu qalalar indi şəhər əhalisinin fəxr və qürur yeridir. Onlardan bir çoxu muzey-şəhərciyə çevrilmişdir.




**Söz mücrüsü**
- qala
- mazğal
- bürc

Bakının ən qədim hissəsi olan İçərişəhər bir vaxtlar qala-şəhərlərdən biri olub. Arxeoloji qazıntılar nəticəsində məlum olub ki, bu yaşayış məntəqəsi hələ Tunc dövründə mövcud olub. VIII-XI əsrlərdə burada sənətkarlıq və ticarət inkişaf edib və şəhər həyatı yaranıb.



İçərişəhər hündürlüyü 8-10, eni 3,5 metr olan qala divarları ilə əhatə olunub. Qədimdə qala divarlarının uzunluğu 1500 metr olub. Lakin müasir dövrə yalnız 500 metrlik hissəsi çatıb. Qala divarlarının müxtəlif hissələrində bürclər, mazğallar var. Qalanın əsas girişlərindən biri Qoşa Qala qapısı adlanır. İçərişəhərdən çoxlu yeraltı yollar keçir.

Layihə

İçərişəhər təkcə qədim abidə deyildir. Bu qala-şəhərdə 1300-dən çox ailə yaşayır. İçərişəhər UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Buradakı üç abidə – Qız qalası, Şirvanşahlar sarayı, Məhəmməd məscidi dünya əhəmiyyətli abidələrdir.

**Sözlərin izahı**

UNESCO (Yunesko) – təhsil, elm və mədəniyyət üzrə beynəlxalq təşkilat.

## Söz ehtiyatı

**b** **İzahları aid olduğu sözlə uyğunlaşdırın.**

**1.** Hündür divarlar və bürclərlə əhatə olunmuş müdafiə tikilisi
**2.** Qala divarlarında atışma üçün qoyulan deşik
**3.** Qala divarları üzərində qurulmuş müşahidə və müdafiə qülləsi

**a.** Mazğal
**b.** Bürc
**c.** Qala

## Nə anladın?

**c** **Mətnə istinad edərək doğru fikirləri seçin.**

**1.** Qala-şəhərlər yerləşdiyi yaşayış məntəqəsinin tarixini əks etdirir.
**2.** Hal-hazırda İçərişəhərin qala divarlarının uzunluğu 1500 metrdir.
**3.** Qoşa Qala Qapısından İçərişəhərə daxil olmaq mümkündür.
**4.** İçərişəhər yalnız muzey kimi fəaliyyət göstərir.
**5.** İçərişəhər ümumdünya irsi nümunəsi kimi UNESCO tərəfindən qorunur.

## Düşün və cavab ver

**ç** **Qalalar hansı məqsədlə tikilirdi?**

**d** **Qalada gizlənən insanlar uzun müddət necə ac-susuz qalıblar? Mətndə mavi rənglə fərqləndirilmiş cümləyə əsasən fikrinizi əsaslandırın.**

**e** **Nə üçün müasir dövrdə qalalar tikilmir? Cümlələrin ardıcıllığını müəyyən etməklə suala cavab verin və öz fikirlərinizlə genişləndirin.**

**1.** Müdafiə qalaları funksiyasını itirdi.
**2.** Qalalar müdafiə məqsədilə tikilirdi.
**3.** Dağıdıcı silahlar və təyyarələr ixtira edildi.

Layihə

**2 a** **Qalalar haqqında nə bilirsiniz? Bəs daha nə bilmək istərdiniz?**

## ŞUŞA QALASI

Azərbaycan ərazisində bir çox qalalar var. Bu qalalar vaxtilə müdafiə məqsədi daşıyıb. Ona görə də əsasən yüksək yerlərdə, dağ və qaya zirvələrində inşa edilib. Bu qalalardan biri də Azərbaycanın Qarabağ bölgəsində yerləşən Şuşa şəhər-qalasıdır.






**Tarixi.** XVIII əsrin ortalarında Pənahəli xan yerli tayfaları birləşdirərək Qarabağ xanlığı yaratdı. Xanlığın ilk mərkəzi Bayat qalası oldu. Bura paytaxt üçün o qədər də əlverişli mövqedə deyildi. Ona görə də Pənahəli xan xanlığın mərkəzini Şahbulağa köçürdü. 1751-ci ildə isə daha əlverişli mövqeyi olan qala-şəhər tikdirmək qərarına gəldi. Qarabağın ən hündür yerində, yeni qala-şəhər salındı. Şəhər Pənahəli xanın şərəfinə bir müddət Pənahabad, sonra isə Şuşa adlandırıldı və Qarabağ xanlığının yeni paytaxtı oldu.

**Quruluşu**. Şuşa qalası bir tərəfi uçurum, digər tərəfi sıldırım qayalarla əhatə olunmuş ərazidə salınıb. Şəhərin ətrafına 2,5 km uzunluğunda müdafiə divarları tikilib. Qala divarlarının dairəvi bürcləri, dar mazğalları və üç darvazası var idi. Qala dəfələrlə düşmənlər tərəfindən mühasirəyə alınsa da, buranı işğal etmək mümkün olmurdu.

**Azərbaycan tarixində yeri.** Şuşa qalası alınmazlıq simvoludur. Çünki şəhəri əhatə edən qala divarları daim Şuşanı yadellilərdən qorumuşdur.

**Söz mücrüsü**

- zirvə
- uçurum
- tayfa
- sıldırım
- yadelli
- mühasirə

Layihə

## Söz ehtiyatı

**b** **"Söz mücrüsü"ndən izahlara uyğun sözü seçin.**

**1.** Hər tərəfdən əhatə olunma, araya alınma
**2.** Dağın ən yüksək nöqtəsi, təpəsi
**3.** Başqa ölkədən, yad ölkədən olan

## Nə anladın?

**c** **Şuşa qalası ilə bağlı suallara cavab verin.**

**1.** Harada yerləşir?
**2.** Kim tərəfindən tikilib?
**3.** Neçənci ildə tikilib?

**ç** **Mətnə əsasən Şuşa qalasının yerləşdiyi ərazini və qalanın quruluşunu təsvir edin.**

## Düşün və cavab ver

**d** **Mətndən Qarabağ xanlığı ilə bağlı faktları seçin.**

**e** **Mətnə əsasən tarixi hadisələrin xronoloji ardıcıllığını müəyyən edin.**

**a.** Bayat qalası Qarabağ xanlığının mərkəzi oldu.
**b.** 1751-ci ildə Şuşa qalası tikildi.
**c.** Pənahəli xan Qarabağ xanlığını yaratdı.
**ç.** Qarabağın mərkəzi Şahbulağa köçürüldü.
**d.** Yeni qala-şəhər Pənahabad adlandırıldı.

**Yadda saxla**

**Xronologiya** – hadisələrin zaman ardıcıllığı ilə əks olunmasıdır. Tarixi mövzuda yazılmış mətnlərdə hadisələr çox zaman xronoloji ardıcıllıqla təsvir edilir.

**ə** **"Şuşa qalası" mətni haqqında doğru fikirləri seçin. Mətnə istinad etməklə seçiminizi əsaslandırın.**

**a.** Bədii mətndir.
**b.** Qeyri-bədii mətndir.

**f** **Aşağıdakı fakt hansı yarımbaşlıqda verilmiş fikri əsaslandırır?**
*1795-ci ildə Ağa Məhəmməd şah Qacarın ordusu qalanı uzun müddət mühasirədə saxlayıb. Lakin qalanı ələ keçirə bilməyib.*

Layihə

**3 a** **Hansı qalaları tanıyırsınız? Bu qalaların nə üçün belə adlandırıldığını bilirsinizmi?**

**b** **Qruplarla oxu.** **"Azərbaycan qalaları" mövzusunda mətnləri oxuyun və əldə etdiyiniz məlumatları sinfə təqdim edin.**



## Gələrsən-Görərsən qalası

Nadir şahın Azərbaycanda hökmranlıq etdiyi vaxtlar idi. Şəki əhalisi onun əmrinə tabe olmaq istəmirdi. Buna görə də Nadir şah Şəkiyə hücum edir. Şəki camaatı dağın başındakı qalaya yığılır. Qoşun qalaya yaxınlaşmaq istəyəndə əhali onların başına çay daşları, yanan məşəllər atır. Nadir şah qalanı xeyli vaxt mühasirədə saxlayır. Lakin Şəki camaatı təslim olmur. İşi belə görən şah qəzəblə qışqırır:

– Bu qalanın sirri nədir ki, ölkələri tutan ordum onu ala bilmir?!

Bu zaman qaladan səs gəlir:

– Gələrsən, görərsən!

Deyilənə görə, o vaxtdan bu qala "Gələrsən-Görərsən" adlanır.



## Qız qalası

Qədim zamanlarda Abşeron torpaqlarında bir şəhər var idi. Bu şəhərin əhalisi odu müqəddəs sayırdı. Şəhərin kənarında, dənizin sahilində bir qala ucalırdı. Qalanın başında daim alov yanırdı.

Bir gün yadellilər şəhərə hücum edir. Şəhəri uzun müddət mühasirədə saxlayır. Qalada müdafiə olunan camaatın ərzağı, suyu bitir. Elin ağsaqqalı üzünü alova tutub dua edir:

– Ey Od tanrısı, bizi bu bəladan xilas et!

Elə bu zaman alov gözəl bir qıza çevrilir. Onun əlində mavi alovdan qılınc var idi. Qızıl kimi parıldayan saçları çiyinlərinə tökülmüşdü. Gözləri hər tərəfə alov saçırdı. Odlar qızı alov saça-saça düşmən ordusuna yaxınlaşır. Qoşun bu odun-alovun qarşısında dayana bilməyib şəhəri tərk edir. Beləliklə, Odlar qızı Odlar yurdunu bəladan xilas edir.

O gündən bu qala "Qız qalası" adlanır.

**Söz mücrüsü**

- müqəddəs • bəla • məşəl
- saçmaq • tərk etmək

Layihə

## Pəri qalası



Pəri qalası Zaqatala rayonunda yerləşir. Qala eramızın IV əsrində qeyri-adi bir üsulla tikilib. Qalanı tikmək üçün qayanı çapıb oyuq açıblar. Bu qalaya baxarkən beyinlərdə bir sual dolaşır: ”Görəsən, texnikanın inkişaf etmədiyi bir dövrdə insanlar qayanı necə yarıblar? ”

Qalanın adı ilə bağlı müxtəlif rəvayətlər var. Rəvayətlərin birində qeyd olunur ki, düşmənlərin hücumundan qorunmaq üçün elin qız-gəlini bu qalada gizlənərdi. Qalanın adı da elə bununla bağlı olmuşdur: elin pərilərini – qızlarını qoruyan qala.

Başqa bir rəvayətdə deyilir ki, günlərin birində Teymurləng bu alınmaz qalaya hücum edir. Bu zaman qalaya Pəri adlı qız başçılıq edirmiş. Pəri düşmənin güclü ordusu qarşısında xeyli müqavimət göstərir. Bu hadisədən sonra qalanı “Pəri qalası” adlandırmışlar.

**Söz mücrüsü**

- çapmaq
- oyuq
- müqavimət

## Söz ehtiyatı

**c** **“Söz mücrüləri”ndən izahların aid olduğu sözləri müəyyən edin.**

**1.** Yaymaq, səpmək
**2.** Oyulmuş yer, mağara
**3.** Uğursuzluq, bədbəxtlik, müsibət, fəlakət
**4.** Qoyub getmək, çıxıb getmək

## Nə anladın?

**ç** **Mətnlərə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu qeyd edin.**

**1.** Gələrsən-Görərsən qalası Şəkidə yerləşir. **D Y**
**2.** Nadir şah qalanı tutub şəkililəri özünə tabe etdi. **D Y**
**3.** Qız qalası dənizin kənarında yerləşir. **D Y**
**4.** Qız qalasını Odlar qızı inşa etdirdiyi üçün belə adlanır. **D Y**
**5.** Pəri qalası memarlıq üslubuna görə fərqlənir. **D Y**
**6.** “Pəri qalası”nın adı burada yaşayan pərilərlə bağlıdır. **D Y**

**d** **Mətnlərə istinad etməklə cümlələri tamamlayın.**

**1.** Nadir şah qoşununu Şəkiyə yeridir, çünki ... .
**2.** Nadir şah qəzəblənir, çünki ... .
**3.** Elin ağsaqqalı üzünü alova tutub dua edir ki, ... .
**4.** Pəri qalası qeyri-adi qaladır, çünki ... .

Layihə

## Düşün və cavab ver

**e** **“Qız qalası” mətnində hansı hadisə həqiqətə uyğun deyil?**

**a.** Düşmənlərin şəhərə hücum etməsi
**b.** Qalanın dəniz kənarında tikilməsi
**c.** Alovun qıza çevrilməsi
**d.** Camaatın qalada müdafiə olunması

**Yadda saxla**

Əfsanələrdə qeyri-adi, möcüzəli və fantastik hadisələr təsvir olunur. Rəvayətlər də təxəyyül əsasında yaranır, lakin bu əsərlərdə sehrli qüvvələr iştirak etmir. Bir çox rəvayətlərdə hər hansı tarixi yer və ya şəxsiyyətin adı çəkilir.

**ə** **Mətnləri müqayisə edin. Oxuduğunuz mətnlərin rəvayət, yoxsa əfsanə olduğunu əsaslandırın.**

**Hansı mətndə:**
- fantastik hadisələr təsvir olunur?
- qalanın adı ilə bağlı mülahizələr irəli sürülür?
- tarixi yer və şəxsiyyətin adı çəkilir?

**Mülahizə** – müəyyən məsələ ilə bağlı irəli sürülən fikir, ehtimal, nöqteyi-nəzər.

## Araşdırma

**4 a** **Qız qalası haqqında araşdırma aparın. Əldə etdiyiniz faktlar əsasında bu abidə haqqında reklam vərəqi hazırlayın.**

**Plan:**
- Yerləşdiyi ölkə və şəhəri qeyd edin.
- Tikilmə tarixi, memarı haqqında məlumat verin.
- Quruluşunu təsvir edin.
- Ölçülərini yazın.
- Turistlərin diqqətini cəlb edən əfsanə, rəvayət danışın.
- Fotoşəkillərdən istifadə edin.



**b** **Reklam vərəqini təqdim edin. Bir-birinizin təqdimatına münasibət bildirin.**

Latınə

## Yazı

**5 a Uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| **1.** Balıq | **a.** Tərkibində qrammatik şəkilçi var. |
| **2.** Balıqçı | **b.** Tərkibində iki söz var. |
| **3.** Balıqqulağı | **c.** Yalnız kökdən ibarətdir. |
| **4.** Balıqdan | **ç.** Tərkibində leksik şəkilçi var. |

**Bunları bilməliyik** SÖZÜN QURULUŞCA NÖVLƏRİ

Sözün quruluşca üç növü var.
- ***Sadə*** sözlər yalnız kökdən, ya da kök və qrammatik şəkilçidən ibarət olur: ***gül, güllər***
- Leksik şəkilçi artırmaqla düzələn sözlər ***düzəltmə*** söz adlanır: ***gülçü, güldan***
- ***Mürəkkəb*** sözlər iki və daha artıq sözün birləşməsindən yaranır: ***gül-çiçək***

**b Verilmiş sözlərin tərkibini və quruluşca növünü müəyyənləşdirin.**

*ucaboy, narahatlıq, danışmaq, aydın, meydança, gülərüz, istedadlı, portret, şəxsiyyət*

**c Sözlərə uyğun leksik şəkilçiləri artırmaqla düzəltmə sözlər yaradın. Həmin sözlərin izahlarını yazın.**

***Nümunə*** ***Üzüm*** *– ağ, qara və ala rəngli dənələri olan salxımlı meyvə*
***Üzümlük*** *– üzüm əkilən bağ*

| | |
|---|---|
| **1. *Bağ*** – meyvə ağacları əkilmiş sahə | **a.** -la$^{2}$ |
| **2. *Çox*** – sayca az olmayan; miqdarı artıq olan | **b.** -xah |
| **3. *Xeyir*** – yaxşılıq, yaxşı iş | **c.** -ça$^{2}$ |
| **4. *İş*** – fəaliyyət, çalışma, zəhmət, əmək | **ç.** -al$^{2}$ |

**ç Cümlələrdə mürəkkəb sözləri seçin və onların tərkib hissələrini müəyyən edin.**

**1.** Şəhərin əhalisi yadellilərin hücumundan qorunmaq üçün qalaya çəkildi.
**2.** İçərişəhərin ən möhtəşəm abidəsi Şirvanşahlar sarayıdır.
**3.** Əmir Teymur qalanı almaq üçün çox çalışıb-vuruşdu.
**4.** Gələrsən-Görərsən qalası Azərbaycanın qeyri-adi qalalarından biridir.
**5.** Bu saray 30 ilə hissə-hissə tikilib başa çatdırılmışdır.

**d Quruluşuna görə dördündən biri fərqlidir.**

| | | |
|---|---|---|
| **1.** suiti | **1.** sehrli | **1.** balıq |
| **2.** səs-küy | **2.** neft | **2.** qayıq |
| **3.** tez | **3.** dəftərçə | **3.** qırıq |
| **4.** tez-tez | **4.** evcik | **4.** qaşıq |

**!** Düzəltmə sözlə sözün kökü arasında həmişə məna əlaqəsi olur:
**balıq** – su heyvanı
**balıqçı** – balıq tutan adam

Ləyinə

# Tarixi körpülər

**1 a Sözün izahını oxuyun və suallara cavab verin.**

*Körpü – çayların, dərələrin və başqa maneələrin üzərindən keçmək üçün daşdan, taxtadan, dəmirdən qurulan tikili, keçid*

**1. Körpü hansı materiallardan tikilir?**

**2. Körpülərin funksiyası nədir?**

*Dünyada minlərlə körpü var. Onlar bizə çayları, dərələri asanlıqla keçməyə imkan verir. Körpü inşaatı böyük bir tarixi inkişaf yolu keçmişdir.*

## Körpülər nə vaxt icad edilib?



Körpünü ilk dəfə kim, nə vaxt və harada ixtira edib? Körpü salmaq ideyası haradan yaranıb?

Bunu heç kim bilmir. Amma gəlin belə bir versiya haqqında düşünək. Bir gün güclü külək əsir, ağacı qırıb çaya salır. Meşədən qayıdan odunçu çaya düşmüş ağac gövdəsinin üstü ilə digər sahilə keçir.

Bir çox kəşflər kimi, körpü düzəltməyi də insanlara, çox güman ki, təbiət öyrədib.

## İlk körpüləri necə düzəldirdilər?



İlk körpülər taxtadan və ya daşdan hazırlanmışdır. Qədim insanlar bir sahildən digərinə keçmək üçün iri ağac gövdəsindən istifadə edirdilər. Bəzən də iri daşları yan-yana düzərək bir növ piyada keçidi düzəldirdilər.

Vaxt keçdikcə mühəndislər polad, beton və digər materiallardan istifadə edərək daha möhkəm, təhlükəsiz körpülər düzəltdilər.

## Tağlı körpülər



Tağlı körpü dayaqların üzərində yarımdairə şəklində hörülür. Belə körpü bir və ya bir neçə tağdan ibarət ola bilər. Keçmişdə tağlı körpüləri daşdan hörürdülər. Müasir dövrdə isə belə körpülərin inşasında daha çox polad konstruksiyalardan istifadə olunur.

Layihə

### Asma körpülər

Asma körpülərin inşasında yüksək dayaqlardan istifadə olunur. Bu körpüləri həmin dayaqlara bərkidilmiş polad troslar saxlayır.

İlk müasir asma körpü 1801-ci ildə ABŞ-ın Pensilvaniya ştatında inşa edilmişdir. Asma körpülər daha geniş yayılmışdır, çünki onların tikintisi nisbətən ucuzdur. Digər körpü növləri ilə müqayisədə daha uzun məsafələrə uzadıla bilər. Üstəlik, asma körpülər zəlzələ kimi təbii fəlakətlərə qarşı daha dayanıqlıdır.



## Düşün və cavab ver

**b** **Mətndə hansı suallara cavab axtarılır?**

**c** **Mətnə istinad etməklə aşağıdakı fikirləri əsaslandırın.**

**1.** Körpülər min illər boyu inkişaf yolu keçib.
**2.** Körpülər müxtəlif materiallardan hazırlanır.
**3.** Körpülərin müxtəlif formaları var.

## Dinləmə

**ç** **"Körpüləri yandırmaq" mətnini dinləyin və suallara cavab verin.**

**1.** İfadənin yaranması nə ilə bağlıdır?
**2.** Mətndə hansı tarixi hadisədən danışılır?
**3.** "Körpüləri yandırmaq" ifadəsi hazırda hansı mənada işlənir?

**d** **Hansı şəkil mətnin məzmununa aiddir? Sizcə, digər şəkil hansı ifadəni təsvir edir? Bu ifadələri antonim hesab etmək olarmı? Fikrinizi əsaslandırın.**





**e** **"Körpüləri yandırmaq" mətnindən belə nəticəyə gəlmək olmur:**

**a.** Sərkərdələr öz əsgərlərinə inanmırdılar.
**b.** Sərkərdələr əsgərləri ilə münasibətlərini korlamaq istəyirdilər.
**c.** Sərkərdələr geri çəkilməyə yol qoymurdular.

**ə** **"Körpüləri yandırmaq" ifadəsinin işlənə biləcəyi situasiyalar düşünüb danışın.**

Layihə

**2 a Mətni oxuyun və uyğun yarımbaşlıqlarla adlandırın.**

## Xudafərin körpüləri



Xudafərin körpüləri Azərbaycanın tarixi-mədəni abidələrindən biridir. Bu körpülər Cəbrayıl rayonunun ərazisində yerləşir. Xudafərin körpüləri Araz çayının şimal və cənub sahillərini birləşdirir.

1828-ci ildə Azərbaycan iki yerə bölündü. Azərbaycanın cənub torpaqları İranın, şimalda yerləşən torpaqları isə Rusiyanın tərkibinə keçdi. Araz çayı Cənubi Azərbaycan ilə Şimali Azərbaycanı ayıran sərhədə çevrildi. İkiyə ayrılan torpağımızı birləşdirən yeganə ad "Xudafərin" idi. Ona görə də Xudafərin körpüsü Cənubi və Şimali Azərbaycanı birləşdirən rəmzi abidə hesab olunur.

Araz çayı üzərindəki körpülərdən biri "Baş Xudafərin körpüsü" adlanır. Bu körpü *on bir tağlıdır.* Körpünün uzunluğu 130, eni 6, hündürlüyü 12 metrdir. On bir tağlı körpüdən dövrümüzə yalnız üçü gəlib çatıb. Digər körpü isə on beş tağlıdır. Onun uzunluğu 200, eni 4,5 metrdir.

Baş Xudafərin körpüsünün tarixi daha qədimdir. Hər iki körpünün dayaqları çayın ortasındakı qayalar üzərində ucaldılıb.

Deyilənə görə, 1930-cu illərədək nisbətən salamat qalmış ikinci körpü ilə o tay-bu taya gedib gəlmək olurmuş. Bu illərdə Azərbaycanın şimalı və cənubu arasında əlaqələri kəsmək üçün İran və SSRİ-nin birgə qərarı ilə körpü dağıdılır. Həmin vaxtdan yerli əhali körpüyə ikinci bir ad – Sınıq körpü adını verir.

1993-cü ildə Cəbrayıl rayonu Ermənistan tərəfindən işğal olunmuşdu. 44 günlük Vətən müharibəsinin 22-ci günündə – oktyabrın 18-də Azərbaycan Ordusu Xudafərin körpüsünü azad etdi. Azərbaycanın üçrəngli bayrağı 27 ildən sonra körpünün üzərində dalğalandı.

## Söz ehtiyatı

**b Bəzi yazıçılar öz əsərlərində "Xudafərin körpüsü"nü "Həsrət körpüsü" adlandırırlar. Sizcə, nə üçün yazıçılar körpünü belə adlandırırdılar? "Həsrət" sözünün izahını oxuyun. Mətnə istinad etməklə yazıçılara haqq qazandırın.**

**Sözlərin izahı**

**Həsrət** – bir şeyi və ya bir kəsi görmək, ona qovuşmaq arzusu.

Layihə

## Nə anladın?

**c** **Mətnlə bağlı suallara cavab verin.**

1. Xudafərin körpüsü Azərbaycanın hansı rayonunda yerləşir?
2. Xudafərin körpüsü nəyin rəmzi hesab olunur?
3. Araz çayı üzərində "Xudafərin" adlı neçə körpü var?
4. Baş Xudafərin körpüsü neçə tağlıdır?

## Düşün və cavab ver

**ç** **Məlumat vərəqi ilə tanış olun. Bu məlumatla mətnin hansı abzaslarını genişləndirmək olar? Mətnə və məlumat vərəqinə əsasən Azərbaycanın iki yerə parçalanması haqqında danışın.**

### AZƏRBAYCANIN PARÇALANMASI

**XIX əsrin əvvəllərində** Azərbaycan xanlıqlara parçalanmışdı.
**1803-cü ildən** çar Rusiyası Azərbaycan xanlıqlarını işğal etməyə başladı.
**1804-cü ildə** çar Rusiyası ilə İran Azərbaycanı bölüşmək üçün müharibəyə başladı.
**1813-cü ildə** Qarabağın Gülüstan kəndində çar Rusiyası ilə İran arasında "Gülüstan" müqaviləsi bağlandı. **"Gülüstan" müqaviləsinə görə** Gəncə, Qarabağ, Şəki, Şamaxı, Bakı, Quba, Dərbənd, Lənkəran xanlıqları Rusiya tərəfindən işğal edildi.
**1826-cı ildə** Azərbaycan torpaqlarına yiyələnmək üçün çar Rusiyası ilə İran arasında yenidən müharibə başlandı.
**1828-ci ildə** İran və Rusiya arasında "Türkmənçay" müqaviləsi imzalandı.
**"Türkmənçay" müqaviləsinə görə** Azərbaycan iki yerə bölündü: cənub torpaqları İranın, şimal torpaqları isə Rusiyanın tərkibinə keçdi.



**3 a** **Məlumat vərəqləri ilə tanış olun. Dünyanın ən məşhur körpüləri haqqında qeyri-bədii mətn yazın.**

## Danyanq-Kunşan Qrand – dünyanın ən uzun körpüsü



**Yerləşdiyi ölkə:** Çin
**Uzunluğu:** 164,8 km
**Hündürlüyü:** 30 metr
**İstifadəsi:** Pekin ilə Şanxay arasında dəmiryol nəqliyyatı üçün
**İnşa tarixi:** 2006-2011-ci illər
**Əlavə məlumatlar:** 2011-ci ildə dünyanın ən uzun körpüsü kimi Ginnesin Rekordlar kitabına düşüb.

## Akaşi Kaikyo – dünyanın ən hündür asma körpüsü



**Yerləşdiyi ölkə:** Yaponiya
**Uzunluğu:** 3.911 metr
**Hündürlüyü:** ən yüksək nöqtəsi isə 282,8 metr
**Aşırımlarının sayı:** 3
**İstifadəsi:** Kobe şəhəri ilə Avaci adası arasında avtomobil yolu kimi
**İnşa tarixi:** 1988-1998-ci illər
**Əlavə məlumatlar:** Əgər Akaşi Kaikyo körpüsünü saxlayan polad telləri bir-birinə bağlasan, dünyanın ətrafına 7 dəfə dolanmaq olar.

## Adana Daşkörpü – dünyanın ən qədim körpüsü



**Yerləşdiyi ölkə:** Türkiyə, Adana şəhəri
**Uzunluğu:** 310 metr
**Eni:** 11,4 m
**Tağlarının sayı:** 21
**İstifadəsi:** Seyhan çayı üzərindən keçmək üçün piyadalar tərəfindən istifadə edilir.
**İnşa tarixi:** II əsr
**Əlavə məlumatlar:** Türk səyyahı Övliya Çələbi öz əsərlərində Daşkörpünün adını çəkmişdir.
Daşkörpü dünyanın hələ də istifadə edilən ən qədim körpüsüdür.

Layihə

## Yazı

**4 a Mürəkkəb sözlərin tərkib hissələrinə diqqət edin. Uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| **1.** Günəbaxan | **a.** Eyni sözün təkrarı ilə yaranıb. |
| **2.** Gecə-gündüz | **b.** Yaxınmənalı sözlərin birləşməsi ilə yaranıb. |
| **3.** Gözəl-göyçək | **c.** Əksmənalı sözlərin iştirakı ilə yaranıb. |
| **4.** Qaça-qaça | **ç.** Müxtəlifmənalı sözlərin birləşməsi ilə yaranıb. |

**Bunları bilməliyik** MÜRƏKKƏB SÖZLƏRİN YAZILIŞI

Yaxınmənalı və ya əksmənalı sözlərin birləşməsindən yaranan mürəkkəb sözlər defislə yazılır: *sağa-sola, açıq-aşkar.*
Komponentlərindən biri ayrılıqda işlənə bilmirsə, mürəkkəb söz defislə yazılır: *kağız-kuğuz, dəmir-dümür.*
Müxtəlifmənalı sözlərin birləşməsindən yaranan mürəkkəb sözlər bitişik yazılır: *tozsoran, stolüstü.*

**b Verilmiş sözlərdən mürəkkəb sözlər düzəldib yazın.**

*gül, çiçək; dost, tanış; mer, meyvə; qırx, ayaq; meşə, bəyi; kəklik, otu; qara, qura;*

**Bunları bilməliyik** SÖZLƏRİN TƏKRARINDAN YARANAN MÜRƏKKƏB SÖZLƏRİN YAZILIŞI

Eyni sözün təkrarı ilə yaranan mürəkkəb sözlər iki cür yazılır:
**1.** Defislə yazılanlar: *yavaş-yavaş, uça-uça.*
**2.** Bitişik yazılanlar: *gəl**ha**gəl, üz**bə**üz, dal**ba**dal, bas**a**bas.*
Bitişik yazılan mürəkkəb sözlərdə **a, ha, ba, bə** hissəcikləri işlənir.

**c Nöqtələrin yerinə *a, ha, ba, bə* hissəcikləri yazmaqla cümlələri köçürün.**

**1.** Evin qapı-pəncərəsi tay...tay açıq idi.
**2.** Leyla rəng...rəng güllərdən çələng hörmüşdü.
**3.** Həyəcan siqnalından sonra binada qaç...qaç düşmüşdü.
**4.** Elə gəl...gəlin belə də get...gedi olar.

**ç Cümlələrdə səhv yazılmış mürəkkəb sözləri müəyyən edib düzgün yazın. Qaydalara istinad edərək seçiminizi əsaslandırın.**

**1.** Dar körpünün üstündə iki maşın üz-bəüz dayandı.
**2.** Müəllim səhvləri birbir izah etdi.
**3.** Nənə qazanda qaynayan düyünü aş süzənə tökdü.
**4.** Maşın kələkötür yollarla irəliləyirdi.
**5.** Körpünü sel dağıtdığı üçün kəndə gedişgəliş kəsilmişdi.
**6.** Biz Novruz adət ənənələri haqqında təqdimat hazırladıq.

Layihə

# Məbədlər

**1 a** **Hansı dinləri tanıyırsınız? Bu haqda bildiklərinizi danışın.**

**b** **Mətni oxuyun və tapşırıqları yerinə yetirin.**

## DİNİ MƏBƏDLƏR

Dünyada müxtəlif dinlər mövcuddur: islam, xristianlıq, yəhudilik (iudaizm), buddizm və sairə. Bütün dünya dinləri ortaq dəyərləri təbliğ edir: düzlük, ədalət, mərhəmət və s. Oxşar xüsusiyyətləri ilə yanaşı, hər bir dinin özünəməxsus müqəddəs kitabı, peyğəmbəri, dini məbədi var.

Azərbaycanda müxtəlif dinlərə sitayiş edən insanlar yaşayır. Buna görə də ölkəmizdə müxtəlif dini məbədlər inşa edilib.

Şamaxı şəhərindəki Cümə məscidi Qafqazın ən qədim müsəlman məbədidir. Məscid 743-744-cü illərdə inşa edilmişdir. Təəssüf ki, 1859-cu və 1902-ci illərdə Şamaxıda baş vermiş güclü zəlzələlər nəticəsində məscidin böyük hissəsi dağılıb. 1980-ci ildə bu tarixi abidə əsaslı şəkildə təmir olunub.





Aleksandr Nevski kilsəsi Gəncə şəhərində yerləşir. Məbəd 1887-ci ildə qırmızı kərpicdən inşa edilmişdir. Kilsədə müxtəlif qədim ikonalar saxlanılır. Bunların arasında Aleksandr Nevski və müqəddəs Məryəmin də ikonaları var.

**Söz mücrüsü**
- məbəd
- sitayiş etmək
- təbliğ etmək
- ikona

Avropa və Gürcüstan yəhudilərinin sinaqoqu Bakı şəhərində yerləşir. Avropada ən böyük sinaqoqlardan biri sayılır. Bu sinaqoq 2003-cü il martın 9-da açılıb. Məbəd bakılı memar Aleksandr Qarberin layihəsi əsasında inşa edilib.



Layihə

## Söz ehtiyatı

**c** **“Söz mücrüsü”ndən izahlara uyğun sözü seçin.**

**1.** İsa peyğəmbər və digər müqəddəslərin təsvir olunduğu rəsm əsəri
**2.** Hər hansı bir fikri yazılı və ya şifahi surətdə yaymaq
**3.** İnsanların ibadət etdiyi müqəddəs yer

**ç** **“Tolerant” sözünün izahını oxuyun. Mətnə istinad etməklə Azərbaycanın tolerant ölkə olduğunu əsaslandırın.**

**Sözlərin izahı**

**Tolerant** – fərqli fikirlərə, yaşayış tərzinə, inanclara dözümlü yanaşan.

## Nə anladın?

**d** **Mətnə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən edin.**

**1.** Müxtəlif dinlərin ortaq xüsusiyyətləri də var.
**2.** Məscid müsəlman məbədidir.
**3.** Aleksandr Nevski kilsəsi Bakıda yerləşir.
**4.** Azərbaycanda yalnız müsəlmanlar yaşayır.
**5.** Avropada ən böyük sinaqoqlardan biri Bakıda inşa edilib.

## Dinləmə

**e** **Sizcə, səyahət edəcəyiniz ölkə və tanış olacağınız xalqın adət-ənənəsi haqqında nələri bilmək vacibdir? Variantlarınızı müzakirə edin. Fikirlərinizi əsaslandırın.**

**ə** **“Səksən gün dünya ətrafında” əsərindən epizodu dinləyin. Suallara cavab verin.**

**1.** Mister Foq və Paspartu hansı ölkələrə səyahət etmişdilər?
**2.** Paspartu hansı məbədi ziyarət etmək istədi?
**3.** Yerli camaat nə üçün Paspartuya qəzəblənmişdi?

**f** **Paspartunun üzləşdiyi xoşagəlməz vəziyyətin səbəbləri haqqında danışın.**

**g** **Aşağıdakı fikirlərlə tanış olun.**

**I fikir.** Paqoda buddizm məbədidir.
**II fikir.** Hindistanda çoxlu paqodalar inşa edilib.

**Bu fikirlərdən hansı nəticəni çıxarmaq olar? Dinləmə mətninə əsasən cavabınızı əsaslandırın.**

**a.** Bütün ölkələrdə mütləq paqodalar tikilməlidir.
**b.** Hindistanda islam dininə sitayiş edənlər də var.
**c.** Hindistanda yerli camaatın çoxu buddizm dininə sitayiş edir.



Layihə

**2 a** **Sizcə, nə üçün Azərbaycanı “Odlar yurdu” adlandırırlar? Bu haqda bildiklərinizi danışın.**

## ATƏŞGAH

Azərbaycan ərazisi neft və qazla zəngindir. Bəzi yerlərdə təbii qaz üzə çıxaraq yanmağa başlayır. Bu səbəbdən torpağımız “Odlar diyarı” adlanıb. Tarix boyu bu ərazidə yaşayan insanlar odu müqəddəs sayıb.



Qədimdə Azərbaycanın bəzi yerlərində atəşpərəstlik dini yayılmışdı. Buna görə də həmin ərazilərdə atəşgahlar – atəşpərəstlik məbədləri tikilmişdi. Dünyanın müxtəlif ölkələrində yaşayan atəşpərəstlər bu məbədi ziyarətə gəlirdilər. Məbədin kahinləri müqəddəs alovu sönməyə qoymurdular.

Azərbaycan əhalisi islamı qəbul etdikdən sonra atəşpərəst məbədləri baxımsız qaldı və uçub-dağıldı. Orta əsrlərdə Bakıya dünyanın müxtəlif ölkələrindən tacirlər səfər edirdilər. Onların arasında hind atəşpərəstləri də var idi. Suraxanı ərazisində yerdən çıxan alovlar atəşpərəstləri cəlb etdiyi üçün onlar davamlı olaraq buranı ziyarət edirdilər. Nəticədə, XVII-XIX əsrlərdə Suraxanıda böyük atəşpərəst məbədi inşa edildi.

Hal-hazırda Suraxanı atəşgahı Azərbaycanın qədim abidələrindən biri kimi qorunur. Bir çox səyyahlar, yazıçılar, rəssamlar burada olmuş, bu möcüzəni öz əsərlərində təsvir etmişlər.

**Söz mücrüsü**
- atəşgah
- atəşpərəstlik
- kahin

### Söz ehtiyatı

**b** **Şəkilçinin sözə qatdığı mənanı nəzərə alaraq sözlərin mənasını izah edin.**

***-gah*** *şəkilçisi məkan mənasını bildirir.*

*atəşgah* *ibadətgah* *qərargah*

***-pərəst*** *şəkilçisi sitayiş edən, sevən mənasını bildirir.*

*atəşpərəst* *dostpərəst* *xəyalpərəst*

### Düşün və cavab ver

**c** **Mətnə istinad etməklə aşağıdakı fikri əsaslandırın.**

*Hindistanda atəşpərəstlik dini geniş yayılmışdı.*

Layihə

**3a** **Aleksandr Dümanın "Qafqaz səfəri" əsərindən verilmiş hissəni oxuyun. Atəşgah haqqında öyrəndiyiniz yeni məlumatları qeyd edin.**

## QAFQAZ SƏFƏRİ

Bakının odları hamıya məlumdur. Odun əbədi yandığı yer – Atəşgah məbədi Bakıdan iyirmi altı ***verstlik*** məsafədə yerləşir. Bu əbədi məşəl neftin hesabına yanır.



Biz Atəşgahı ziyarət etmək üçün dəniz kənarı ilə iki saat yol getdik. Sonra bir təpənin başına çatdıq. Oradan bütün atəşgah, onun od-alovu ovuc içi kimi aydın görünürdü. Dördbucaq şəkilli düzənlikdə yüzlərcə əyri-üyrü deşikdən alov havaya yüksəlirdi. Külək əsdikcə alov dilləri sağa-sola yellənir, sanki rəqs edirdi. Alovların ortasında böyük dördkünc bina görünürdü. Bina da alovla işıqlandırılmışdı.

Biz tamamilə alova bürünmüş qapıdan həyətə girdik. Məbədə daxil olduq. Binanın ortasında əbədi alov yanırdı. Məbədin kahinləri burada tanrıya sitayiş edirdilər. Onlar bizim hər birimizə kiçik bir şəkər parçası verdilər. Biz də bunun əvəzində onlara bir rubl pul verdik.

*Aleksandr Düma*

## Söz ehtiyatı

**b** **"Verst" sözünün izahını oxuyun. Atəşgah məbədinin Bakıdan neçə kilometr aralı yerləşdiyini hesablayın.**

**Sözlərin izahı**

**Verst** – 1,06 km məsafəyə bərabər uzunluq ölçüsüdür.

## Düşün və cavab ver

**c** **"Qafqaz səfəri" mətnində Atəşgah haqqında hansı faktlar öz əksini tapıb? "Atəşgah" və "Qafqaz səfəri" mətnlərindən uyğun fikirləri qarşılaşdıraraq fikrinizi əsaslandırın.**

**4a** Qruplarla iş. **Oxuduğunuz məlumatlara və əlavə biliklərinizə əsasən aşağıdakı mövzularda təqdimat hazırlayın.**

- **Azərbaycan qalaları**
- **Dünyanın məşhur körpüləri**
- **Azərbaycanın tarixi məbədləri**

Layihə

**5 a** **Cümlədəki hər bir sözün sualını müəyyən edin. Hansı sözlər ayrılıqda heç bir suala cavab vermir?**

*Məlahət və Cəmilə, deyəsən, kitabxanaya getdilər.*

**Bunları bilməliyik** SÖZÜN LEKSİK VƏ QRAMMATİK MƏNASI

Sözün ifadə etdiyi anlayış onun **leksik mənasıdır.** Məsələn:

*Məbəd – dindarların ibadət etdikləri yer.*

Qrammatik məna dedikdə sözün hansı nitq hissəsinə aid olması, quruluşca növü, cümlədə rolu nəzərdə tutulur. Məsələn:

*Məbəd – isimdir, təkdir, sadədir.*

**b** **İzahlara uyğun sözü müəyyən edin.**

*acılamaq, heyrətlə, eksponat, cəsur*

**1.** Muzey, yaxud sərgi salonlarında nümayiş etdirilən əşya
**2.** Cəsarətli, igid, qoçaq, qorxmaz, ürəkli
**3.** Birinə acı söz deyib qəlbini incitmək
**4.** Təəccüblə, heyranlıqla

**c** **Sözləri qrammatik mənaları ilə uyğunlaşdırın.**

| | |
|---|---|
| **1.** Dəyirmi | **a.** Hərəkətin tərzini bildirir, *necə?* sualına cavab verir. |
| **2.** Qürurla | **b.** Hərəkət bildirir, birinci şəxsin təkinə, keçmiş zamana aiddir. |
| **3.** Onlar | **c.** Varlığın əlamətini bildirir, *necə?* sualına cavab verir. |
| **4.** Beş | **ç.** Əvəzlikdir, üçüncü şəxsin cəmini bildirir. |
| **5.** Oxudum | **d.** Varlığın miqdarını bildirir, *neçə?* sualına cavab verir. |

**Bunları bilməliyik** ƏSAS VƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ

Həm leksik, həm də qrammatik mənası olan sözlər **əsas nitq hissəsinə** aiddir. **Köməkçi nitq hissəsinə** aid olan sözlərin yalnız qrammatik mənası olur. Məsələn, “Göy guruldadı, amma yağış yağmadı” cümləsində “amma” sözünün leksik mənası yoxdur. Qrammatik mənasına görə isə bu söz bağlayıcıdır.

**ç** **Cümlələrdəki köməkçi nitq hissələrini müəyyən edin. Qaydalara istinad edərək fikrinizi əsaslandırın.**

**1.** Axı mən də yaxşı hazırlaşmışdım.
**2.** Evə kimi piyada getdi, amma yorulmadı.
**3.** Ura, babam ilə səyahətə gedəcəyəm!

Layihə

## Ümumiləşdirici təkrar

**1** **Sözlərə leksik şəkilçilər əlavə edib yeni sözlər düzəldin.**

gənc... (-in, -lik) gül... (-dan, -lər) zəhmət... (-dən, -keş)
qoru... (-q, -maq) baş... (-çı, -a) çürü... (-k, -mək)
utan... (-dı, -caq) qır... (-ır, -ıcı) ev... (-də, -dar)

**2** **Sözlərin quruluşca növünə görə ardıcıllığı davam etdirin.**

**1.** kölgəlik, məsləhətçi, ... **2.** saat, işğal, ... **3.** uzaqgörən, qohum-qardaş, ...

**İstifadə üçün sözlər:**
*get-gəl, yanğın, günah, işlə(mək), güləyən, ağacdələn, ev-eşik, qəhrəman, əmək, əlüzyuyan, səssiz, döyüşçü, quru, baxa-baxa*

**3** **Mürəkkəb sözlər düzəldin. Onlar bitişik, yoxsa defislə yazılmalıdır? Fikrinizi əsaslandırın.**

göz < qaş, muncuğu
ağ < bəniz, qara
şirin < şirin, dil

**4** **Verilmiş sözlərə uyğun sözlər artırmaqla mürəkkəb sözlər düzəldib yazın.**

- Əksmənalı sözlərin iştirakı ilə: *az, səhər, yuxarı, yaxın*
- Eyni sözün təkrarı ilə: *tez, qaça, gəl, gün*
- Biri təklikdə işlənə bilməyən sözün iştirakı ilə: *çöp, əyri, kağız, meyvə*
- Yaxınmənalı sözlərin iştirakı ilə: *söz, adət, dəftər, gözəl*
- Müxtəlifmənalı sözlərin iştirakı ilə: *toz, sülh, qırx, gün*

**5** **Nöqtələrin yerinə *a, ha, ba, bə* hissəciklərindən uyğun gələni yazmaqla mürəkkəb sözlər düzəldin. Bu sözlərin iştirakı ilə cümlə qurun.**

*cür...cür, vur...vur, gəl...gəl, bas...bas, il...il, tay...tay*

**6** **Cümlələrdəki sözləri cədvəl üzrə qruplaşdırın.**

**1.** Deyəsən, sən də mənim kimi düşünürsən.
**2.** Bəs rəngli boya ilə çəkməyəcəkdin?

| Həm leksik, həm də qrammatik mənası olan sözlər | Yalnız qrammatik mənası olan sözlər |
|---|---|
| | |

Layihə

bölmə 5

# Süni intellekt və robotlar

**a** Şəkillərə əsasən “təbii” və “süni” sözlərini izah edin.



təbii



süni

**b** Şəkillərə əsasən ipək parçanın alınma texnologiyasını izah edin.
Aşağıdakı şəkillərdə hansı varlıqlar təbii, hansılar sünidir?



**c** Şəkillərə əsasən “intellekt” sözünü izah edin.




öyrənirəm




düşünürəm




tətbiq edirəm

**ç** İndi isə kitabı tərsinə tutun və öz izahlarınızı aşağıdakı izahlarla müqayisə edin.

**Təbii** – təbiət tərəfindən yaradılmış, təbiətdə mövcud olan

**Süni** – insan əli ilə düzəldilmiş, insanın yaratdığı

**İntellekt** – dərketmə, nəticə çıxarma, problemi həlletmə bacarığı

Layihə

**d** Cırcırama və dron haqqında verilmiş məlumatlara görə aşağıdakı sxemi şərh edin.





*Oxşar və fərqli xüsusiyyətləri:*

1. Qanadları var, uça bilir.
2. İstədiyi yerə uça bilir.
3. Canlıdır.
4. Hərəkəti pultla idarə olunur.
5. Görmə qabiliyyətinə malikdir.
6. Texniki qurğudur.




**e** Cütlərlə iş. Cırcırama və dron nümunəsi əsasında sxem çəkərək aşağıdakı varlıqları müqayisə edin.

## Gözlər və müşahidə kamerası





*Oxşar və fərqli xüsusiyyətləri:*

1. Qəbul etdiyi vizual informasiyanı beyinə ötürür.
2. Ətrafdakı varlıqları görməyə imkan yaradır.
3. Emosiya ifadə edə bilir.
4. Təsvirləri uzaq məsafəyə ötürə bilir.
5. Hərəkəti qeydə alır və reaksiya verir.
6. Elektriklə işləyir.

Layihə

# Süni intellekt

**1 a** **Keçən dərsdə siz "süni" və "intellekt" sözlərinin mənalarını müəyyən etdiniz. Bəs, sizcə, "süni intellekt" dedikdə nə nəzərdə tutulur?**
**Süni intellekt haqqında:**
- **nə bilirsiniz?**
- **daha nələri bilmək istəyərdiniz?**

**b** **Mətni oxuyun və yeni öyrəndiklərinizi qeyd edin.**

## İNSANIN AĞILLI KÖMƏKÇİLƏRİ

Bütün canlılar kimi, insan da təbiətin bir parçasıdır, yəni təbii varlıqdır. Lakin başqa canlılardan fərqli olaraq, o düşünür və yaradır.

**IQ (ay-kü) nədir?**

IQ intellektin səviyyəsidir. Onu xüsusi testlər vasitəsilə müəyyən edirlər.

İnsanın əldə etdiyi biliklər, öyrənmək, düşünmək, biliklərini tətbiq etmək bacarığı intellekt adlanır. Latın dilindən alınmış bu sözün ilkin mənası "başa düşmək, hiss etmək" olub. Dilimizdə onunla yanaşı "zəka" sözü də işlədilir.

Lap qədimdə insanlar əvvəlcə sadə əşyalar: paltar, ev, əmək alətləri düzəldiblər. Daha sonra onlar mürəkkəb qurğular, cihazlar, maşınlar ixtira ediblər.



Nəhayət, XX əsrdə insanlar yaratdıqları mexanizmləri süni intellektlə təmin etmək qərarına gəldilər. Bunun üçün onlar mexanizmlərə elektron sxem quraşdırdılar və onu xüsusi proqramlarla təmin etdilər. Beləliklə, adi tozsoran ağıllı tozsorana, adi telefon smart telefona çevrildi.



**İlk dəfə...**

"Süni intellekt" ifadəsini ilk dəfə 1956-cı ildə amerikalı alim Con Makkarti işlədib.
**Süni intellekt** – maşının insan kimi şüurlu hərəkətlər etmək və yaradıcı işləri yerinə yetirmək bacarığıdır.

Layihə

Süni intellekt gördüklərini təhlil edir, nəticə çıxarır və təkliflər verir. Yollardakı radarlar sürətlə gedən avtomobilləri seçir, bu haqda yol polisinə xəbər ötürür. Avtomobil və smart telefonlardakı naviqator proqramları sürücüyə ünvana tez çatmaqda kömək edir. Onlar ən qısa yolu hesablayır, peyk vasitəsilə yollardakı tıxacı görür, bu haqda sürücüyə məlumat verir.




Süni intellekt də insanlar kimi görür, anlayır, danışır. İntellektin əsas göstəriciləri də elə bunlardır: informasiyanı mənimsəmək, təhlil etmək və başqalarına ötürmək. Müasir süni intellektli qurğular hətta müstəqil şəkildə öyrənə bilir. Onlar zaman keçdikcə təcrübə və biliklərini artırır, zehnini inkişaf etdirir.

*Ayxan Əliyevin "Süni intellekt" kitabından*

**Söz mücrüsü**

• tətbiq etmək • təmin etmək
• quraşdırmaq • şüurlu
• peyk • zehin • qurğu

## Söz ehtiyatı

**c** **Nöqtələrin yerinə "Söz mücrüsü"ndən uyğun gələn sözləri yazmaqla cümlələri köçürün.**

**1.** Kompüterə əlavə qurğular ... lazımdır.
**2.** Ay Yerin təbii ... .
**3.** ... oxu mətnin başa düşülməsinə kömək edir.

## Düşün və cavab ver

**ç** **Süni intellekt haqqında bildiyiniz və yeni öyrəndiyiniz məlumatları aşağıdakı cədvəldə qeyd edin.**

| SÜNİ İNTELLEKT HAQQINDA | | |
|---|---|---|
| **Bilirdim** | **Bilmək istəyirdim** | **Öyrəndim** |
| | | |

**d** **Mətndə hansı məlumatlar haşiyədə verilib? Sizcə, bunun səbəbi nədir?**

**Yadda saxla**

Mətnlərdə bəzi məlumatlar **haşiyədə** verilir, yəni dizaynına görə əsas mətndən seçilir. Bunun müxtəlif səbəbləri var: oxucunun diqqətini çəkmək, əsas mətnin axıcılığını pozmamaq və s.

Layihə

**2 a** **Aşağıdakı şəkilləri mətnin hansı abzasına əlavə edərdiniz?**
**Şəkilləri şərh etməklə mətnin müvafiq hissəsini genişləndirib nəql edin.**







**b** **Aşağıdakı məlumatlara və əlavə biliklərinizə əsasən smart telefonun adi telefondan fərqini söyləyin.**
**Bu telefonun süni intellekt imkanlarına malik olduğunu əsaslandırın.**

Zəng etmək



Zəngləri qəbul etmək

Görüntülü danışıq

Mesaj göndərmək və almaq

Təqvim

Yaddaş kitabçası



Şəkil göndərmək və almaq

Filmlərə baxmaq

Taksi sifariş etmək

Kalkulyatordan istifadə

Layihə

**3 a** **Mətnə çəkilmiş illüstrasiyaya diqqət edin. Sizcə, oğlan kimə müraciət edir? Onun sualına cavab verən kimdir?**

## ÇATBOT




Yəqin ki, elektron səsli köməkçilər – Siri, Google Assistant, Alisa haqqında eşitmisiniz. Çatbot adlanan bu proqramlar internet istifadəçilərinin müxtəlif mövzularda suallarına cavab verir.

Çatbot – süni intellekt proqramıdır. İlk belə kompüter proqramı “Eliza” adlanırdı. O, 1966-cı ildə hazırlanmışdı. “Eliza” istifadəçi ilə ünsiyyət qurur, “Nə probleminiz var?”, “Buyurun, davam edin” kimi mədəni ifadələr işlədirdi. Bəzi istifadəçilər onun insan olduğunu düşünürdülər.

Çatbotlar internet bazasından istifadəçiyə lazım olan informasiyanı tez bir zamanda axtarıb tapır. İnsandan fərqli olaraq, onlar bütün günü işləyir, istirahət etmir, məlumatı daha sürətlə axtarır, informasiyanı daha cəld ötürür.

Çatbotlar bilet və ya taksi sifariş etmək, ödəniş etmək, film və musiqi yükləməkdə yardımçı olur. Lazım gəldikdə istifadəçiyə məsləhətlər də verir.

### Düşün və cavab ver

**b** **Çatbotun süni intellekt proqramı olduğunu əsaslandırın.**

**c** **Çatbot istifadəçinin suallarına cavab vermək üçün məlumatları haradan alır?**

**ç** **Sizcə, çatbot aşağıdakı suallardan hansına cavab verməkdə çətinlik çəkəcək? Cavabınızı əsaslandırın.**

**a.** İlk kompüterin yaddaşı neçə meqabayt olub?
**b.** Sabah Bakıda hava necə olacaq?
**c.** Bizim məktəbdə neçə uşaq oxuyur?
**ç.** İspaniyanın əhalisi nə qədərdir?
**d.** Telefonu kim ixtira edib?

**d** **İnformatika müəlliminizin köməyi ilə hər hansı çatbotla ünsiyyət qurun. Əvvəlcədən suallarınızı hazırlayın. Çatbotun cavablarını qeyd edin. Çatbotla söhbətiniz haqqında təqdimat hazırlayın.**

Layihə

## Yazı

**4 a** **Hansı sözlər varlığın adını bildirir?**

*sinif, qırmızı, cücə, karandaş, dadlı, getmək, meşə, çox, fikir, Aysel, müəllim, Şuşa*

**Bunları bilməliyik** İSİM

İsim varlığın adını bildirir və *kim? nə? hara?* suallarına cavab verir.
Azərbaycan dilində heyvan, quş və cansız varlıqları bildirən sözlər *nə?* sualına cavab verir: *qaranquş* (nə?), *pələng* (nə?), *dəftər* (nə?).

**b** **Verilmiş sözləri insan, heyvan, bitki, yer anlayışı bildirən isimlər kimi qruplaşdırın.**

*həkim, Gəncə, ata, qartal, ilan, kitab, Avropa, şagird, ayı, Ağdam, təkər*

*Nümunə*

| söz | anlayış (insan, yer, heyvan, cansız əşya) | sualı (kim? nə? hara?) |
|---|---|---|
| *qartal* | *heyvan* | *nə?* |

**c** **Fərqləndirilmiş isimlərin düzgün yazılışını müəyyənləşdirərək cümləri köçürün.**

**1.** Payızda ***günnər*** getdikcə qısalır.
**2.** Yetişmiş ***qarpızdarı*** bazara apardılar.
**3.** Hüseyn dərs qurtaran kimi ***dəfdərrəri*** çantasına qoydu.

**ç** **Cümlələri oxuyun. Nə üçün fərqləndirilmiş sözlər bəzən kiçik, bəzən də böyük hərflə yazılır?**

**1.** Yanında balası, yağış gölündən
Əyilib su içir bir ana ***ceyran!*** (Səməd Vurğun)
**2.** Sinfimizin əlaçısı ***Ceyran*** müsabiqədə qalib gəldi.
**3.** Dostları ***Fərəhin*** ad gününə toplaşmışdılar.
**4.** Doğma evlərinə qayıdan insanların üzündə ***fərəh*** vardı.

**Bunları bilməliyik** TOPLU İSİMLƏR

Bəzi isimlər *-lar, -lər* şəkilçisi qəbul etmədən də çoxluq bildirir. Bunlar toplu isimlərdir. Məsələn: *əhali, camaat, xalq və s.* Toplu isimlər cümlədə mübtəda kimi işləndikdə xəbər təkdə olur. Məsələn: *El igidiylə tanınar.* (Atalar sözü)

**d** **Nöqtələrin yerinə uyğun gələn sözü seçin. Hansı cümlədə səhvə yol verilib?**

*sürü, ordu, əhali*

**a.** Yerli ... qonaqları mehriban qarşıladı.
**b.** ... yaylağa qalxdı.
**c.** Sabahdan ... təlimlərə başlayacaqlar.

Layihə

# Robot texnikası

**1 a** **Nağıllarda və fantastik əsərlərdə tanış olduğunuz hansı sehrli varlıqlar bu gün gerçəkliyə çevrilib? Bəs hansılar hələ nağıl olaraq qalır? Sizcə, onlar da yaxın gələcəkdə həqiqət ola bilərmi?**





**b** Qruplarla iş. **Mətnin hissələrini oxuyun və açar sözləri qeyd edin.**

- **Mətnin məzmununa dair üç sual hazırlayın.**
- **Qeydləriniz əsasında mətni nəql edin.**
- **Suallarınızı dinləyicilərə ünvanlayın və cavablara reaksiya verin.**

## ROBOTLAR

*Təxəyyül bilikdən də vacibdir. Çünki bilik bu gün bildiyimizlə məhdudlaşır. Təxəyyül isə nə vaxtsa biləcəklərimizi və yaradacaqlarımızı əhatə edir.*

*Albert Eynşteyn*

### 1. Süni insan ideyası

İllər boyu insanlar özlərinə bənzəyən və onları əvəz edə bilən maşınlar haqqında düşünmüşlər. Bu, qeyri-adi görünə bilər, amma artıq belə maşınlar barədə məlumatlara çox rast gəlirik.

1920-ci ildə çex yazıçısı Karel Çapek "süni insanlar" istehsal edən fabrik haqqında elmi-fantastik əsər yazdı. Çapek onları robot adlandırdı. Bu söz çex dilində "iş" mənasını verən *robota* sözündən idi. Çapekin robotları insana bənzəyirdi, amma hissləri yox idi, yalnız bilik və bacarıqları var idi.



*Çapekin "R.U.R. (Rossum universal robotları)" tamaşasından səhnə*

**c** **Albert Eynşteynin epiqrafda verilmiş fikrini mətnin məzmunu ilə əlaqələndirin. Sizcə, Çapekin əsəri faktlar, yoxsa təxəyyül əsasında yazılmışdır?**

**Yadda saxla**

**Epiqraf** – əsərin əvvəlində, başlıqdan sonra yazılan, adətən, müdrik fikir ifadə edən cümlə(lər).

**Reportaj** – hər hansı hadisə, tədbir haqqında yazılı və ya şifahi məlumat. Reportajın müəllifi çox zaman hadisənin şahidi və ya iştirakçısı olur.

## 2. İlk robotlar

1928-ci ildə İngiltərə qəzetlərinin birində Erik adlı ilk robotun təqdimatından reportaj dərc olundu.

... Zalın səhnəsində, kətilin üstündə gümüşü rəngli, adama bənzəyən bir varlıq oturmuşdu. Bu, Erik idi.

Aparıcı səhnəyə çıxdı və üzünü robota tutub dedi:

– Erik, oyanmaq vaxtıdır. Ayağa qalx!

Elə bu zaman Erikin gözlərində nə isə parıldadı və o, yorğun adamlar kimi ağır-ağır ayağa qalxdı.



Aparıcı auditoriyaya müraciət etdi:

– Xanımlar və cənablar, siz Erikə suallar verə bilərsiniz. Amma sadə suallar.

Hamı susurdu. Nəhayət, mən cəsarətimi toplayıb robota yaxınlaşdım və soruşdum:

– Erik, saat neçədir?

Erik yoğun və cingiltili səslə cavab verdi:

– Üç əlli iki.

Auditoriyada hamı saatına baxdı. Hər kəsin gözündə təəccüb və heyrət var idi...



Bu gün Erik kimi robotlarla heç kimi təəccübləndirmək olmaz. Robot texnikası ilə yaxından maraqlanan məktəb şagirdlərinin yaratdığı maşınlar həmin robotlardan daha ağıllıdır.

**ç** **Nə üçün aparıcı Erikə yalnız sadə suallar verilməsini xahiş etdi?**

**d** **Əlavə biliklərinizdən istifadə etməklə müasir robotları ilk robotla müqayisə edin.**



Layihə

## 3. Humanoid robotlar




“Robot” sözünü eşidəndə gözümüzün qarşısında içərisi dəmir-dümür və sxemlərlə dolu, insana bənzəyən bir varlıq canlanır. Əslində isə, robot verilmiş proqram əsasında işləri yerinə yetirən avtomatik qurğudur. “Ağıllı maşın” və ya “robot” dedikdə süni intellekt daşıyıcısı nəzərdə tutulur. O, müxtəlif formalarda olur; bu, sadəcə, dizayn məsələsidir. Hər bir qurğunun forması onun məqsədindən asılı olur: pilotsuz uçuş aparatı, smartfon, kompüter, müşahidə kamerası və s.

İnsana bənzəyən və şüuru olan varlıqlar elmdə *humanoid* adlanır. Bura nağıl və əfsanələrdə rast gəldiyimiz div, təpəgöz, elmi-fantastik əsərlərdə təsvir olunan yadplanetlilər və b. daxildir.

Alimlər insana bənzəyən robotlar yaratdıqdan sonra onları digər ağıllı maşınlardan fərqləndirmək üçün humanoid adlandırdılar.

Humanoid robot yaratmaqda əsas məqsəd bu ağıllı maşını insanlar üçün daha cəlbedici etməkdir.

**e** **“Human” sözünün izahından çıxış edərək “humanist” və “humanizm” sözlərinin mənasını müəyyən edin.**

**ə** **Mətnə əsasən “Humanoid robotlar digər robotlardan daha ağıllıdır” fikrini təkzib edin və fikrinizi əsaslandırın.**

**Sözlərin izahı**

Qədim yunan dilində ***human*** – insan, ***oid*** – bənzəyən deməkdir.

**Təkzib etmək** – hər hansı fikrin, xəbərin yanlış olduğunu bildirmək.

## 4. Robot və insan

Son dövrdə elm və texnika o dərəcədə inkişaf edib ki, alimlərin yaratdıqları bir çox humanoid robotları ilk baxışda insandan fərqləndirmək çətin olur. Məsələn, 2015-ci ildə yaradılmış Sofiya adlı robot insanlarla ünsiyyətə girir, müxtəlif mövzularda söhbət edir, hətta gülümsəyir, həmsöhbətinə göz vurur. Bununla belə, robotu insandan fərqləndirən bir çox cəhətlər var.



Layihə



İnsan bioloji varlıqdır, onun qan-damar, sinir, sümük-əzələ, həzm sistemi var. O qidalandığı ərzaqdan enerji alır. Robotlar isə elektrik enerjisi hesabına iş görür.

Hər bir insanın duyğusu var: o sevinir, kədərlənir. Robot isə bu duyğulardan məhrumdur; təəccüb, qorxu, sevinc hissləri ona yaddır. Əgər robot Sofiya gülümsəyirsə, o demək deyil ki, o sevinir; sadəcə, bu robot belə proqramlaşdırılıb.

Gündəlik həyatda insan müxtəlif işlər icra edir: avtomobil sürür, ağacları sulayır, yemək bişirir. Amma robot yalnız bir iş üçün proqramlaşdırılır, yəni hər bir ağıllı maşın müəyyən sahə üzrə "ixtisaslaşıb": biri hava proqnozu verir, başqa birisi yollarda avtomobil hərəkətini idarə edir.

Beləliklə, demək olar ki, insanı tam olaraq əvəz edən ağıllı maşın hələ ki yaradılmayıb.



**f** **Sizcə, yeni ağıllı maşınlar əvvəlkilərdən nə ilə fərqlənir?**

**g** **Mətndə hansı məlumatı haşiyədə vermək olar?**

**ğ** **Aşağıdakı cümlələri "Robotlar" mətninin hansı hissələrinə əlavə etmək olar?**

100 il əvvəl yaradılmış ilk robotlardan biri Mister Televoks adlanırdı.

Siz hər hansı bir robotla tanış olub "dostlaşa" bilərsiniz. Amma bilməlisiniz ki, bu "dostunuz" sizə qarşı doğmalıq hissindən uzaqdır.

"R.U.R." pyesi tamaşaya qoyulduqdan sonra alimlər robot ideyasını gerçəkləşdirməyə tələsdilər.

Qadın obrazında yaradılmış robotlara ginoid, kişi obrazında yaradılanlara isə android deyirlər.

Layihə

**2 a** **Verilmiş şəkillərə baxın. Biliklərinizə və təxminlərinizə əsasən robotların faydası haqqında danışın.**



**TİBB SAHƏSİ.** Cərrah-robotlar



**HƏRBİ SAHƏ.** Minaaxtaran-robotlar



**TƏHSİL.** Müəllim-robotlar



**İSTEHSALAT.** Usta-robotlar



**KƏND TƏSƏRRÜFATI.** Bağban-robotlar



**ƏYLƏNCƏ.** Musiqiçi-robotlar

Layihə

## Dinləmə

**3 a** **Qeydlər götürməklə "Müasir dronlar" mətnini dinləyin. Qeydlərinizi aşağıdakı başlıqlar üzrə qruplaşdırın.**

| *Dron ideyası* | *Dron nədir?* |
|---|---|
| ______________ | ______________ |
| ______________ | ______________ |

| *Dronların növləri* | *Drondan istifadə sahələri* |
|---|---|
| ______________ | ______________ |
| ______________ | ______________ |

**b** **Sözlər və izahlar arasında uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| **1.** bort | **a.** hava nəqliyyat vasitələrində fırlanan qanadlar |
| **2.** ekipaj | **b.** nəqliyyat vasitəsində ekipaj və ya yükün yerləşdiyi məkan |
| **3.** pər | **c.** məlumat əldə etmək məqsədilə aparılan tədqiqat |
| **4.** kəşfiyyat | **d.** gəminin, təyyarənin, tankın və s.-nin şəxsi heyəti |

**c** **PUA abreviaturu hansı sözlərdən yaranmışdır?**

**Yadda saxla**

**Abreviatur** – sözlərin ilk hərflərindən, yaxud hissələrindən düzəldilmiş qısaltma, ixtisar.

**ç** **Aşağıdakı şəkillər mətndəki hansı məlumatı təsdiqləyir?**





**d** **Mətnə əsasən fikirlərin doğru və yanlış olduğunu müəyyən edin.**

**1.** İstənilən pilotsuz vasitə – drondur.
**2.** Dronlar yalnız pultla idarə edilir.
**3.** Pilotsuz uçuş aparatı (PUA) – insansız (mütləq uçuş) aparatdır.
**4.** Dronlardan ancaq müharibələrdə istifadə edilə bilər.
**5.** Bütün PUA-lar drondur, lakin uçmayan dronlar PUA deyildir.

Layihə

## Yazı

**4 a Sual verməklə mötərizədəki sözləri uyğun şəkildə dəyişin.**

Sərnişinlər *(qatar)* mindilər.
*(Yarış)* qalibi sabah bilinəcək.
*(Həyət)* iri tut ağacları vardı.

**Bunları bilməliyik** İSMİN HAL ŞƏKİLÇİLƏRİ

İsim cümlədə başqa sözlərlə əlaqəyə girərək müxtəlif şəkilçilər qəbul edir. Bu, ismin hallanması adlanır. Azərbaycan dilində ismin 6 halı var.

| İsmin halları | Şəkilçiləri | |
|---|---|---|
| ***Adlıq hal*** | yoxdur | *müəllim (kim?), kitab (nə?), məktəb (hara?)* |
| ***Yiyəlik hal*** | $-ın^4$ | *müəllimin (kimin?), kitabın (nəyin?), məktəbin (haranın?)* |
| ***Yönlük hal*** | $-a^2$ | *müəllimə (kimə?), kitaba (nəyə?), məktəbə (haraya?)* |
| ***Təsirlik hal*** | $-ı^4$ | *müəllimi (kimi?), kitabı (nəyi?), məktəbi (haranı?)* |
| ***Yerlik hal*** | $-da^2$ | *müəllimdə (kimdə?), kitabda (nədə?), məktəbdə (harada?)* |
| ***Çıxışlıq hal*** | $-dan^2$ | *müəllimdən (kimdən?), kitabdan (nədən?), məktəbdən (haradan?)* |

**b Verilmiş cümlələrdəki “televizor” sözündə hal şəkilçilərini müəyyən edin.**

**1.** Televizorun ekranı çox böyükdür.
**2.** Televizora yaxından baxmaq olmaz.
**3.** Televizoru işə saldıq.
**4.** Televizorda maraqlı film göstəriləcək.
**5.** Televizordan qələbə xəbərini eşitdik.

**c Nöqtələrin yerinə mötərizədəki suallara uyğun gələn şəkilçiləri yazmaqla cümlələri köçürün.**

**1.** Bakı... (harada?) tez-tez külək əsir.
**2.** Bakı... (haranı?) çox sevirəm.
**3.** Qatar Bakı... (haradan?) axşam yola düşəcək.
**4.** Turistlər Bakı... (haranın?) görməli yerlərini gəzəcəklər.
**5.** Bakı... (haraya?) çoxlu qonaqlar gəlir.

Layihə

**1 a** **Sizcə, gələcəkdə süni intellekt həyatımızı necə dəyişəcək?**

## GƏLƏCƏKDƏ SÜNİ İNTELLEKT

### Kompüter texnologiyaları və süni intellekt

Süni intellekt sahəsində bir çox ideyalar artıq həyata keçib. Amma elə ideyalar da var ki, hələ fərziyyə olaraq qalır. Son 50 ildə alimlər süni intellekt sahəsində çox böyük uğurlar əldə etdilər. Bu isə kompüter texnologiyalarının inkişafı nəticəsində mümkün olmuşdur.



50 il əvvəl



30 il əvvəl



10 il əvvəl



bu gün

Bu illər ərzində kompüterlərin xarici görünüşü dəyişdi, yaddaşı və sürəti min dəfələrlə artdı, onlar üçün mürəkkəb proqramlar yazıldı.

### Süni intellekt özünü təkmilləşdirir...



Süni intellektin də insan kimi mətn oxuması, onu təhlil etməsi, hətta oradakı səhvləri düzəltməsi bu gün heç kimi təəccübləndirmir. Süni intellekt yaza da bilir. Artıq çoxdandır ki, qəzetlərdə robotların yazdıqları məqalələr dərc olunur.

Sən düşünürsən, araşdırırsan, bir məsələnin daha yaxşı həll yolunu axtarırsan. Misal üçün, şahmat oynayanda hər gedişdən sonra nə baş verəcəyini fikirləşirsən. Süni intellekt də eyni cür davranır. Əgər o düşünməsəydi, şahmat üzrə çempionlara qalib gələ bilərdimi?

Ən maraqlısı isə budur ki, süni intellekt müstəqil şəkildə öyrənə bilir, özü özünü təkmilləşdirir. O, internetdə olan milyonlarla informasiyanı bir neçə saniyə ərzində analiz edib nəticələr çıxarır. Artıq heç bir insan bu sahədə süni intellektlə yarışa girə bilməz.



Layihə



## Hər yerdə süni intellekt

Qapının zəngi çalınır, sən açırsan. Orada bir araba dayanıb, işıqlarını yandırıb-söndürür və deyir:

– Siz pizza sifariş etmisiniz?

İndi bunu təsəvvür etmək çətindir. Lakin zaman keçdikcə robotların funksiyası çoxalır. Ona görə də bir müddətdən sonra gündəlik həyatımızda robot-polis, robot-həkim, robot-müəllimlə ünsiyyətdə olacağıq.

## Süni intellekt ilə yaşamağa hazırsanmı?



Gələcəkdə hansı peşəni seçmək istəyirsən: həkim, memar, müəllim, ya kosmonavt?.. Bəlkə, biznesmen olub iri bir şirkətə rəhbərlik etmək istəyirsən? Fərq etməz, hansı peşə sahibi olursan ol, süni intellekt ilə əməkdaşlıq etməyi bacarmalısan. Süni intellekt daha tez hesablamağı bacarır, daha iti görür, daha dəqiq təhlillər aparır. O, işdə də, evdə də sənin yaxın köməkçin olacaq. Sən ağıllı şəhərdə, ağıllı evdə yaşayacaqsan. Süni intellekt sənin mənzilini təmizləyəcək, su, elektrik, rabitə sistemini, hətta avtomobilini də idarə edəcək.

Ona görə də sən süni intellektdən istifadə etməyi indidən öyrənməlisən. Yalnız istifadə etməyi yox, həm də onu yaratmağı!

Amma unutma! Sən İNSANSAN, süni intellekt isə sənin yaratdığın məhsuldur.

*"Süni intellekt" ensiklopediyası və internet materialları əsasında*

**Söz mücrüsü**

- həyata keçmək
- mürəkkəb
- təsəvvür etmək
- əməkdaşlıq

Layihə

## Söz ehtiyatı

**b** **“Söz mücrüsü”ndəki sözləri aşağıdakı izahlarla uyğunlaşdırın.**

**1.** Birgə işləmə
**2.** Gerçəkləşmək
**3.** Çətin, bir neçə hissədən ibarət olan
**4.** Xəyal etmək, düşünmək

## Düşün və cavab ver

**c** **Aşağıdakı cümlələri mətnin hansı hissələrinə əlavə etmək olar?**

**1.** Hazırda süni intellekt yaradıcıları qarşısında duran əsas vəzifələrdən biri insanla robot arasındakı fərqin minimuma endirilməsidir.
**2.** Süni intellekti idarə edən proqramlar kompüter vasitəsilə yaradılır.
**3.** Süni intellekt həyatını asanlaşdıracaq, lakin bunun üçün onun dilini bilməli, ona tapşırıq verməyi bacarmalısan.
**4.** Bəzi Avropa ölkələrində robot müəllimlər işə başlayıb.

**ç** **Hansı məlumat mətnin məzmunu ilə bağlı deyil?**

**1.** Zaman keçdikcə gündəlik həyatımızda robotlarla daha tez-tez qarşılaşacağıq.
**2.** Aya ilk dəfə Amerika astronavtı Nil Armstronq səyahət etmişdir.
**3.** Biz hazırda süni intellekt əsrində yaşayırıq.
**4.** Zamanla ayaqlaşmaq üçün süni intellektlə ünsiyyət qurmağı öyrənməliyik.

**d** **Hansı fikirlə razısınız? Seçiminizi əsaslandırın.**

**a.** Gələcəkdə robotlar insanlar üçün daha faydalı olacaq.
**b.** Gələcəkdə robotlar insanlar üçün təhlükə yaradacaq.

**e** **Bu fəsildə tanış olduğunuz məlumatların fakt, yoxsa təxəyyül olduğunu müəyyən edin.**

***1.*** *Kuryer dronlar internet vasitəsilə sifariş olunan malları evlərə çatdırır.*
***2.*** *Robot şahmat üzrə çempionlara qalib gəlir.*
***3.*** *Süni intellekt avtomobili idarə edir.*
***4.*** *Süni intellekt bağı sulayır, kondisioneri işə salaraq evin havasını dəyişir.*
***5.*** *Süni intellekt mətni oxuyur, təhlil edir, oradakı səhvləri düzəldir.*
***6.*** *Çatbot sizə tapşırılmış araşdırma layihəsini yerinə yetirərək təqdimat materialı hazırlayır.*

Layihə

**2 a** **Yəqin ki, bədii əsərlərdə – filmlərdə və romanlarda süni intellekt daşıyıcısı olan fantastik obrazlara rast gəlmisiniz. Aşağıdakı nümunələr əsasında onların fakt deyil, təxəyyül olduğunu sübut edin.**

## GƏLƏCƏYİN ROBOTLARI: TƏHLÜKƏ VARMI?

*Bütün sahələrdə insanı əvəz edə bilən, hətta ondan üstün olan super süni intellekt yaxın gələcəkdə fantastik obrazdan real varlığa çevrilə bilər. Bəs, görəsən, gələcəkdə yaranacaq super robot insanlara qarşı özünü necə aparacaq? Bu yalnız alim və mühəndisləri deyil, həm də yazıçıları, kinorejissorları düşündürən ciddi sualdır. Yəqin ki, bir çox filmlərdə zalım robotların öz yaradıcılarına – insanlara qarşı üsyan qaldırdığını görmüsünüz.*

### VALL-E cizgi filmi



Planetimizdə tullantılar o qədər çoxalır ki, burada yaşamaq mümkün olmur. Buna görə də insanlar planeti təmizləmək üçün minlərlə robot düzəldirlər. Özləri isə nəhəng gəmidə kosmosa yollanırlar.

Yeddi yüz il sonra Yer üzündə yalnız VALL-E adlı robot qalır. O, bir bitki tapır. İnsanlar başa düşürlər ki, Yerə qayıtmaq olar. Amma gəmini idarə edən süni intellekt icazə vermir. Kapitanla onun arasında mübarizə başlayır...

### Terminator



Skaynet adlı hərbi superkompüter ölkələr arasında müharibənin başlanmasına səbəb olur. Nəticədə çox insan həyatını itirir. Skaynet sağ qalanları qul edir. Lakin Con Konnor adlı bir şəxs üsyan qaldırır və qalib gəlir. Superkompüter keçmişə terminator (kiborq) göndərir ki, Conu uşaqkən məhv etsin. Lakin Con Konnor və onun anası kiborqa məğlub olmaq fikrində deyil...

### Transformerlər – sonuncu cəngavər



Transformerlər – başqa planetlərdə yaşayan robotlardır. Onlar lazım gəldikdə müxtəlif varlıqlara çevrilməyi bacarır. Yer planetinə gələndən sonra onlar bir-biri ilə vuruşmağa başlayır. Cəsur insanlar yaxşı transformerlərlə dostlaşırlar və onlara kömək edirlər. Bunun nəticəsində birlikdə qalib gəlirlər.

Layihə

**b** **Albert Eynşteynin təxəyyül haqqında dediklərini xatırlayın. Sizcə, xəyal etdiyimiz varlıq və hadisələr reallığa çevrilə bilərmi? Elmi-fantastik əsərlərdən nümunələr gətirməklə fikirlərinizi əsaslandırın.**

## Ayzek Azimovun 3 qanunu

100 il əvvəl Karel Çapekin robotlar haqqında əsəri tamaşaya qoyularkən insanlar buna, sadəcə, yazıçı təxəyyülünün məhsulu kimi baxırdılar. Heç kim robotların həyatımıza daxil olacağını düşünmürdü.

Bu gün də kiborqlar və transformerlər haqqında filmləri seyr edərkən bir çoxları bu obrazların reallığa çevriləcəyini ağlına belə gətirmir. Amma zaman dəyişir, süni intellekt texnologiyası çox sürətlə inkişaf edir...



Kiborq (ingiliscə: cyborg – kibernetik orqanizm) bioloji və süni hissələri olan fantastik varlıqdır. Kiborqu robotdan fərqləndirən əsas cəhət budur ki, o, zahirən insana daha çox bənzəyir. Bir sözlə, kiborq – gələcəyin mükəmməl robotudur.

Bəs kiborqlar insanlar üzərində hakimiyyəti ələ keçirə bilərmi? Bu gün yazıçı və alimləri ən çox düşündürən məsələlərdən biri də budur.

Məşhur Amerika yazıçı-fantastı Ayzek Azimov “Mən robotam” hekayələr toplusunda “Robot texnikasının 3 qanunu”nu hazırlamışdır:



**1-ci qanun.** Robot insana zərər yetirməməli, insan üçün təhlükə yaranarsa, buna qarşı tədbir görməlidir.

**2-ci qanun.** Robot insanın bütün əmrlərini yerinə yetrməli, lakin 1-ci qanuna zidd olan əmrlərə tabe olmamalıdır.

**3-cü qanun.** 1-ci və 2-ci qanunlara zidd olmamaq şərti ilə robot öz təhlükəsizliyini təmin etməlidir.

**c** **Humanoid, kiborq və transformerin oxşar və fərqli cəhətlərini müəyyənləşdirin.**

**ç** **Mətnə əsasən sualları cavablandırın.**

**1.** Mətndə mövzu ilə bağlı hansı problem qaldırılır?
**2.** Sizcə, Ayzek Azimovun təklif etdiyi 3 qanunun məqsədi nə idi?
**3.** Mətndəki məlumatlardan hansı nəticələrə gəlmək olar?

**d** **Siz robot düzəltsəydiniz, gələcək təhlükənin qarşısını almaq üçün onu necə proqramlaşdırardınız?**

Layihə

## Dinləmə

**3 a** **Reyhan Yusifqızının “Uzaq planetin sirri” kitabının annotasiyası ilə tanış olun. Sizcə, burada hansı sirdən danışılır?**

*Reyhan Yusifqızı uşaq yazıçısıdır. O, elmi fantastika janrında yazıb-yaradır. “Uzaq planetin sirri” əsərində yadplanetli Lemi ilə dostları Kənan və Rüstəmin macəralarından bəhs edilir. Leminin yaşadığı X planetində kiborqlar üsyan qaldırır. Onlara başçılıq edən SUPER İNTELLEKT daha insanlara tabe olmur! O çox güclüdür. Onun qarşısında kim dayana bilər? Lemi və dostları planeti xilas edə biləcəklərmi?*




**b** **Qeydlər götürməklə “Uzaq planetin sirri” əsərindən parçaları dinləyin.**

**c** **Mətnin planını tərtib edin və plan əsasında mətni danışın.**

## Yazı

**4 a** **Qruplarla işləyərək “Süni intellekt və gələcəyimiz” adlı divar qəzeti üçün materiallar hazırlayın.**

### 1-ci qrup

**Təsəvvür edin ki, məktəblilərin təşkil etdiyi “Robototexnika” sərgisində iştirak etmisiniz. Bu sərgidən divar qəzeti üçün təxəyyülünüzə uyğun reportaj hazırlayın.**

***Reportajı necə hazırlamalı?***

- Mətni adlandırmaq üçün cəlbedici başlıq düşünün.
- **Girişdə** hadisə haqqında ümumi məlumat verin.
- **Əsas hissədə:** 1) ən vacib faktları qeyd edin, 2) şahid və ya iştirakçılardan müsahibə alın, 3) onların maraqlı fikirlərini reportaja daxil edin.
- **Sonluqda** hadisənin nəticəsini göstərin və ona münasibət bildirin.
- Hadisənin mühüm məqamlarını əks etdirən cəlbedici fotoşəkillər çəkin.

### 2-ci qrup

**Ağıllı ev, ağıllı şəhər haqqında araşdırma aparın və qeyri-bədii mətn yazın.**

### 3-cü qrup

**Təsəvvür edin ki, başqa planetdən gəlmiş kiborqla qarşılaşmısınız. Bu haqda təxəyyülünüzə uyğun hekayə yazın.**

### 4-cü qrup

**Çatbotun köməyi ilə “Süni intellekt – insanlar üçün təhlükə” mövzusunda araşdırma aparın və təqdim edin.**

Layihə

**5 a** **Nöqtələrin yerinə hansı sözləri yazmaq olar? Bunu cümlədəki hansı sözə görə müəyyən etmək olar?**

*sənin, onun, mənim, onların, bizim, sizin*

**1.** ... cavabım müəllimin xoşuna gəldi.
**2.** ... paltarın təzədir?
**3.** ... komandamız yarışa hazırlaşır.
**4.** ... bacısı uşaq bağçasına gedir.
**5.** ... eviniz harada yerləşir?
**6.** ... uğurları hamını sevindirdi.

**Bunları bilməliyik** **İSMİN MƏNSUBİYYƏTƏ GÖRƏ DƏYİŞMƏSİ**

Varlığın kimə, nəyə aid olduğunu bildirən şəkilçilər mənsubiyyət şəkilçiləridir.

| | |
|---|---|
| *Mənim vətən**im*** | *Bizim vətən**imiz*** |
| *Sənin vətən**in*** | *Sizin vətən**iniz*** |
| *Onun vətən**i*** | *Onların vətən**i*** |

**b** **Aşağıdakı cümlələrdə mənsubiyyət şəkilçili sözləri müəyyən edin.**

**1.** Sabah məktəbin həyatində tədbir keçiriləcək.
**2.** Dərsimi oxuduqdan sonra sənə kömək edərəm.
**3.** Sizin qələbəniz hamını sevindirdi.
**4.** Şəhərimiz günü-gündən gözəlləşir.
**5.** Böyüklərin məsləhətlərinə qulaq asmaq lazımdır.
**6.** Sənin qələmini götürə bilərəm?

**c** **Hansı cümlələrdəki fərqləndirilmiş sözlərdə mənsubiyyət şəkilçiləri var?**

**1. a.** Bu gün idman **dərsində** voleybol oynadıq.
**b.** **Dərsin** sonunda müəllim qalib komandanı elan etdi.

**2. a.** Poçtalyon **qəzeti** ünvana çatdırdı.
**b.** Şagirdlər divar **qəzeti** üçün material topladılar.

**3. a.** Pəncərəni aç, **otağın** havasını dəyiş.
**b.** Sənin **otağın** çox səliqəlidir.

**ç** **Mənsubiyyət şəkilçilərini tapıb hansı şəxsə aid olduğunu müəyyən edin.**

***Nümunə*** *O, sinif otağına keçib arxada oturdu (-ı – III şəxsin təki)*

**1.** İşimi qurtaran kimi evə gedəcəyəm.
**2.** Avtobusumuz yavaş-yavaş hərəkət etməyə başladı.
**3.** Bu yarışda qardaşım da iştirak edəcək.

Layihə

## Ümumiləşdirici təkrar

**1** **Hansı cümlələrdə altından xətt çəkilmiş sözlər düzgün yazılmışdır?**

1. Qızdar evi səliqəyə saldılar.
2. Adamlar yeni salınmış parkda dincəlirlər.
3. Bostandakı pomidorrar qıpqırmızı qızarmışdı.
4. Güllərin ətri ətrafa yayılmışdı.
5. Səhərrər hava sərin olur.
6. Oğlannar meydançada futbol oynayırlar.

**2** **Hansı cümlələrdə səhvə yol verilib?**

1. Alimlər insana bənzəyən robotlar yaratdılar .
2. Camaat tarladan məhsulu toplayırlar.
3. Yarasalar gecələr ova çıxırlar.
4. Xor dəstəsi tədbirdə Azərbaycanın himnini oxuyacaqlar.
5. Dənizin ortasında bir qayıq görünürdü.

**3** **Hansı sözlər xüsusi isim kimi işlənə bilər?**

*arif, vəfa, məktəb, gözəl, idarə, malik, şirin, dadlı, sahib, ədalət*

**4** **Aşağıdakı ümumi isimlərə aid olan xüsusi isimlər yazın.**

**Nümunə** *ölkə – Türkiyə*

*ölkə, şəhər, çay, göl, dəniz, dağ, qəsəbə, rayon*

**5** **Nöqtələrin yerinə uyğun gələn sözü yazıb cümlələri tamamlayın.**

1. Qaranquş ... təzə yuva qurmuşdu. (eyvanda/eyvan)
2. Parlaq günəş ... qızdırırdı. (torpağa/torpağı)
3. Kəşfiyyatçılar paraşütlə ... tullandılar. (təyyarədən/təyyarəni)
5. Uşaqlar ... hazırlaşırlar. (imtahandan/imtahana)
6. ... işığı zəif idi. (lampada/lampanın)

**6** **Nöqtələrin yerinə uyğun gələn mənsubiyyət şəkilçilərini yazmaqla söz birləşmələrini köçürün.**

- qardaşımın dost...
- quşun qanad...
- bizim şəhər...
- həftənin günlər...
- sözün məna...
- sənin çanta...

Layihə

# 6 bölmə Açılmamış sirlər

**a** *Sirr, möcüzə* dedikdə nə başa düşürsünüz?
İndiyə kimi izah edilməyən hansı varlıq və hadisələri tanıyırsınız?

**b** Aşağıdakı şəkillər və suallar əsasında bildiklərinizi danışın.
Hər mövzuya aid üç sual tərtib edin və birlikdə müzakirə edin.



*Dinozavrlar niyə məhv oldu?*



*Piramidaları kim tikib?*



*Başqa planetlərdə həyat varmı?*



*Yer üzündə ilk insan necə yaranıb?*

**c** Sözlərin izahlarını oxuyun.

*Paleontoloq* – *qazıntı aparmaqla nəsli kəsilmiş heyvan və bitkiləri araşdıran alim.*
*Arxeoloq* – *aşkar edilən maddi mənbələr əsasında bəşəriyyətin tarixini öyrənən alim.*
*Ufoloq* – *yadplanetlilər və onların insanlarla əlaqəsini araşdıran tədqiqatçı.*

- Sizcə, bu mütəxəssislər yuxarıda təqdim edilmiş hansı mövzuları araşdırırlar?

Layihə

**Kitabların üz qabığına baxın, annotasiyalarını oxuyun. Kitabları müqayisə edin.**

**Sizcə, hansı kitabda:**

- **dəqiq məlumatlar, araşdırmalar yer alır?**
- **hadisələr yazıçının təxəyyülünə əsasən təsvir edilir?**




Rus yazıçısı, tərcüməçisi və tarixçisi İqor Mojeyko fantastika janrında qələmə alınmış romanların və bir çox elmi əsərin müəllifidir. “Kir Bulıçev" imzası ilə də tanınan Mojeykonun ən məşhur əsərlərindən biri "7 və 37 möcüzə" kitabıdır.

Kitabda antik dünyada inşa edilən yeddi məşhur tikili ilə yanaşı, sonrakı dövrlərdə yaranan, əzəməti ilə görənləri heyran qoyan möcüzəvi abidələr barədə də ətraflı məlumat verilir. Bunların arasında uzunluğu 21000 km olan Böyük Çin səddi, gözəlliyi ilə hamını heyrətə salan Tac Mahal da var.




Kitab Qədim Misir fironlarından bəhs edir. XIII Ramzes firon təyin edilir. Hakimiyyətə gələn gənc anlayır ki, dövləti, əslində, kahinlər idarə edirlər. Onlar ən gözəl evlərə sahibdirlər, dövlətdə ən yüksək vəzifələri tuturlar. Ordunun əsas hissəsi onların əmrinə tabedir. Fironun hüququ kahinlərə nisbətən çox zəifdir. Lakin gənc Ramzes təslim olmur. O, kahinlərlə mübarizə aparır. Fironun hüquqlarını geri qaytarmağa çalışır. Onun əsas rəqibi keşiş Herihorundur. Görəsən, gənc, təcrübəsiz şahzadə bu mübarizədə qələbə qazana biləcəkmi? Bu yolda hansı çətinliklərlə qarşılaşacaq?

- **Bu kitabları mütaliə etmək istərdinizmi? Nə üçün?**
- **Annotasiyada verilmiş hansı məlumatlar sizin diqqətinizi cəlb etdi?**
- **Bəs siz möcüzələr və sirlərlə bağlı hansı kitabları oxumusunuz?**

Layihə

# Nəhənglərin sirri

**1 a** **Nəsli kəsilmiş və ya kəsilməkdə olan hansı heyvanları tanıyırsınız? Aşağıdakı məlumatlara və biliklərinizə əsasən bu haqda danışın.**



**Tüklü mamont**

*Mamontlar filə bənzər nəhəng heyvanlar olublar. Onlar 4500 il əvvələ qədər Avropada yaşamışlar. İqlim dəyişikliyi nəticəsində bu heyvanların nəsli tükənmişdir.*



**Dodo**

*Dodo uça bilməyən quş növü olub. Hind okeanının qərbində, Mavriki adasında yaşayıb. Həddən artıq çox ovlandığı üçün 17-ci əsrin sonlarında nəsli kəsilmişdir.*



**Koala**

*Koala Avstraliyada yaşayan kisəli heyvandır. Koalaların kütləvi ovlanması, meşə yanğınları, yaşayış mühitinin pisləşməsi onların ciddi şəkildə azalmasına səbəb olur.*



**Pinqvin**

*Planetin cənub yarımkürəsində yaşayan pinqvinlər, əsasən, balıqla qidalanırlar. Son dövrdə balıq ovunun çoxalması, iqlim dəyişikliyi və xəstəliklər pinqvinlərin həyatı üçün təhlükə yaradır.*

**b** **Heyvanların nəslinin kəsilməsinə gətirib çıxaran səbəbləri sadalayın. Sizcə, bunun qarşısını almaq üçün nə etmək lazımdır?**

Layihə

**c** **Dinozavrlar haqqında nə bilirsiniz? Bəs daha nə öyrənmək istəyərdiniz? Mətni oxuyun və yeni öyrəndiklərinizi qeyd edin.**



## Dinozavrlar

***1.*** Müasir dövrdə dinozavrlar uşaqların sevimli film qəhrəmanlarından biridir. Bu heyvanlar cizgi filmlərində xeyirxah, sevimli qəhrəman kimi təsvir edilir. Balacalar onları nəvazişlə "Dino" adlandırırlar. Lakin milyon illər əvvələ qayıtsaq, yəqin ki, heç kim bu qorxunc canlı ilə üz-üzə gəlmək istəməzdi.

***2.*** Təxminən 225 milyon il əvvəl yaşamış dinozavrlar planetimizdə ən böyük canlılar idi. Həmin dövrdə insanlar hələ mövcud deyildilər. Dinozavrlar yarananda planetdə yalnız 1 qitə var idi. Qlobusda gördüyümüz müxtəlif qitələr bir böyük quru ərazinin hissələri idi. Məsələn, dinozavr istəsəydi, indi yaşadığınız yerdən Avstraliyaya qədər piyada gedə bilərdi.

Üstəlik, iqlim çox fərqli idi. Dinozavrların yaşadığı dövrdə Yerdə hava isti və quru idi. Hətta Antarktida kimi indi qarla örtülmüş yerlərdə belə isti idi.






***3.*** Siz, yəqin ki, bütün dinozavrları nəhəng hesab edirsiniz. Əslində isə ilk dinozavrlar kiçik olmuşdur. Məsələn, saltop adlanan dinozavrın gövdəsi 60 sm uzunluğunda idi. Saltop yırtıcı idi. Çox cəld qaçırdı. Buna görə də kərtənkələləri, həşəratları asanlıqla ovlayırdı.



Ən nəhəng dinozavrlar isə bitkiyeyən zauropodlardır. Zauropodların bir neçə növü məlum olsa da, hamısının bədən quruluşu oxşar idi: nəhəng gövdə, uzunboyun və quyruq, balaca baş. Onların bəzilərinin boyu dördmərtəbəli ev hündürlüyündə idi.

Layihə

*4.* Dinozavrlar dövrümüzə qədər gəlib çatmayıblar. Onlar təxminən 65 milyon il əvvəl yox olublar. Bəs milyon illər bundan əvvəl yaşamış canlılar haqqında necə məlumat almışıq?

Alimlər dinozavrların görünüşünü və ölçülərini planetin müxtəlif yerlərində tapılmış sümüklərə əsasən təyin etmişlər.

Dinozavrların qalıqları ilk dəfə 1815-ci ildə İngiltərədə tapılmışdır. Daha sonra 1826-cı ildə yenə də nəhəng heyvana məxsus sümüklər tapılıb. Nəhayət, 1842-ci ildə oxşar sümüklər aşkar etmiş ingilis alimi Riçard Ouen hər üç tapıntının eyni canlı növünə məxsus olduğunu sübut etdi. Alim bu naməlum heyvana "dinozavr" adı verdi. "Dino" yunanca "qorxunc", "zavr" isə "kərtənkələ" deməkdir.

Alimlər əvvəlcə dinozavrların məməli olduğunu düşünürdülər. Lakin sonralar planetin müxtəlif yerlərində dinozavrlara məxsus yumurtalar tapdılar. Məsələn, 1859-cu ildə Fransa ərazisində, 1995-ci ildə isə Çində dinozavr yumurtalarının kütləvi şəkildə basdırıldığı yer aşkarlandı. İndiyədək ən böyük dinozavr yumurtası məhz Çində tapıldı.

Bu yumurtanın uzunluğu 45 sm idi.





**Söz mücrüsü**

| | | |
|---|---|---|
| • qitə | • gövdə | • mövcud |
| • iqlim | • tapıntı | • məxsus |
| • məməli | • aşkar etmək | • yırtıcı |
| • nəvazişlə | • təyin etmək | • qalıq |

## Söz ehtiyatı

**ç Sözün izahına əsasən dinozavrların məməli heyvan olmadığını əsaslandırın.**

***Məməlilər*** *– balalarını öz südü ilə bəsləyən heyvanlar sinfi.*

**d Fərqləndirilmiş sözləri "Söz mücrüsü"ndəki uyğun sözlərlə əvəz edin.**

**1.** Özünə ***aid*** olan əşyaları bu çantaya yığ.
**2.** Tibb bacısı yaralıya ***mehribanlıqla*** baxdı.
**3.** Yoxlama zamanı bütün nöqsanlar ***müəyyənləşdirildi.***

Layihə

## Nə anladın?

**e** **Mətnə istinad etməklə aşağıdakı fikirləri əsaslandırın.**

***Dinozavrlar:***

- iki qrupa ayrılırlar: ətyeyənlər və otyeyənlər.
- yumurta qoyaraq çoxalırdılar.
- müxtəlif ölçülərdə olublar.
- bütün qitələrdə yaşamışlar.

## Düşün və cavab ver

**2 a** **Aşağıda verilmiş yarımbaşlıqların mətnin hansı hissələrinə aid olduğunu müəyyən edin. Fikrinizi əsaslandırın.**

**a.** Dinozavrların araşdırılması
**b.** Balacaların sevimli qəhrəmanı
**c.** Dinozavrların yaşadığı ərazilər və hava şəraiti
**ç.** Dinozavrların növləri

**b** **Mətnə daha hansı yarımbaşlıq əlavə etmək istərdiniz?**

**c** **Dinozavrların nəslinin kəsilməsi səbəbləri ilə bağlı təxminlərinizi söyləyin. Sonra isə fikirlərinizi aşağıdakı mətndə verilmiş məlumatlarla müqayisə edin.**

# Dinozavrlar niyə məhv oldu?

Dinozavrların həyatı həmişə alimlər üçün maraqlı olub. Uzun illərin araşdırmaları nəticəsində dinozavrların yaşı, ölçüsü, qidalanması və s. haqqında bir çox məlumatlar əldə edilib. Lakin hələ də alimlər bir suala cavab axtarırlar: necə oldu ki, dinozavrların nəsli kəsildi?

Bu suala cavab axtaran alimlər müxtəlif fərziyyələr irəli sürürlər.



Lahiyə

**Yumurtaların məhv edilməsi.** Bəziləri belə düşünür ki, dinozavrların qoyduğu yumurtalar məhv edilib. Bu fərziyyə o qədər də inandırıcı deyil. Bütün canlılar həmişə övladlarını qoruyur. Çox güman ki, nəhəngliyi ilə hamını təşvişə salan heyvanın yuvasına yaxınlaşmaq o qədər də asan olmazdı. Həm də müxtəlif növ dinozavrların eyni zamanda eyni problemlə qarşılaşması inandırıcı deyil.

**İqlim dəyişikliyi.** Yer planetində zaman-zaman iqlim dəyişikliyi baş vermişdir. Yer planeti öz tarixi boyu Buz dövrünün də şahidi olmuşdur. Bəzi alimlər düşünür ki, dinozavrlar soyuq şəraitdə yaşaya bilməzdi. Lakin elmə məlumdur ki, iqlim dəyişikliyi çox yavaş prosesdir. Bu dövrdə dinozavrlar daha isti yerlərə köçə bilərdilər. Həm də dinozavrların yaşadığı müddətdə planetdə buzlaşmanın baş verdiyinə dair heç bir sübut yoxdur.

**Vulkan püskürməsi.** Bildirilir ki, 65 milyon il əvvəl güclü vulkan püskürmələri baş verib. Bunun nəticəsində atmosferə çoxlu miqdarda toz yayılıb və günəş şüalarının qarşısını alıb. Bu, iqlimdə böyük dəyişikliklərə səbəb olub. Dinozavrlar bu vəziyyətə uyğunlaşa bilməyib. Bəzi alimlər isə bu fərziyyəni əsassız sayırlar. Çünki dinozavrlarla bərabər digər heyvanlar da mövcud idi. Bəs nə üçün vulkan püskürməsi məhz dinozavrların məhvinə səbəb oldu?



Alimlər hələ də dinozavrların məhvolma səbəblərini araşdırırlar. Çox güman ki, texnikanın inkişafı nəticəsində dinozavrların araşdırılmasında yeni uğurlar əldə ediləcək.

## Düşün və cavab ver

**ç** **Dinozavrlar haqqında mətnləri müqayisə edin. Hansı mətndə:**
- **ümumi məlumat verilir?**
- **qoyulmuş suala cavab axtarılır?**

**d** **“Dinozavrlar niyə məhv oldu?” mətnində qoyulmuş sualla bağlı hansı versiyalar irəli sürülür? Müəllif bu versiyaları təsdiq və ya təkzib etmək üçün hansı arqument və əks-arqumentlərdən istifadə edir?**

**Yadda saxla**

**Versiya** – problemlə bağlı irəli sürülən mülahizə, fikir.
**Arqument** – fikri təsdiq etmək üçün istifadə olunan sübut, dəlil.
**Əks-arqument** – fikri təkzib etmək üçün istifadə olunan arqument.

**3 a** Təqdimat. **Oxuduğunuz məlumatlara və əlavə biliklərinizə əsasən aşağıdakı mövzularda təqdimat hazırlayın.**
- ***Nəsli kəsilmiş heyvanlar***
- ***Nəsli kəsilmək təhlükəsi yaşayan heyvanlar***

Layihə

## Yazı

**4 a Sözləri, söz birləşmələrini və cümlələri seçib cədvəl üzrə qruplaşdırın.**

- dinozavrların həyatı
- iqlim dəyişikliyi
- alim
- qitələr
- vulkan püskürməsi
- inandırıcı deyil
- buz dövrü
- iqlim dəyişdi
- alimlər araşdırır
- sirr açılanda
- nəhəng
- müxtəlif fərziyyələr

| *Söz* | *Söz birləşməsi* | *Cümlə* |
|---|---|---|
| | | |

**Bunları bilməliyik** SÖZ BİRLƏŞMƏSİ

Söz birləşməsi leksik mənası olan iki və daha artıq sözün birləşməsindən yaranır. Sözə nisbətən söz birləşməsi daha konkret məna ifadə edir. Məsələn:

**Söz:** *yumurta* **Söz birləşməsi:** *dinozavr yumurtası*

*“Yumurta”* sözü anlayışı ümumi şəkildə ifadə edir. *“Dinozavr yumurtası”* söz birləşməsi isə anlayışı daha konkret ifadə edir. Yəni hər hansı yumurta deyil, məhz dinozavrın yumurtası nəzərdə tutulur.

**b Verilmiş sözlərdən söz birləşməsi yaradın.**

*dinozavr, yuva; muzey, getmək; səhər, məktəb, gedəndə; qapı, açar; qələm, rəng*

**Bunları bilməliyik** SÖZ BİRLƏŞMƏSİNİN ƏSAS VƏ ASILI TƏRƏFİ

Söz birləşməsinin iki tərəfi olur: ***asılı və əsas***. Əsas tərəf söz birləşməsinin sonunda gəlsə də, birləşmənin əsas mənasını o ifadə edir. Asılı tərəf isə bu mənanı dəqiqləşdirir, izah edir.

*qapının açarı*
*maşın sürmək*
***asılı tərəf*** ***əsas tərəf***

**c Söz birləşmələrinin əsas və asılı tərəfini müəyyən edin. Asılı tərəfini dəyişməklə yeni söz birləşmələri yaradın.**

**Nümunə** *Azərbaycan dili – ingilis dili*

**1.** Azərbaycan dili
**2.** mətni oxumaq
**3.** böyük akvarium
**4.** futbol topu
**5.** esse yazanda
**6.** birinci sıra
**7.** şirin qoğal
**8.** obrazın davranışı
**9.** balıqla qidalanmaq

**ç Söz birləşmələrinin tərəfləri arasına söz artırıb yazın.**

**Nümunə** *Komandanın yeni oyunçusu*

*komandanın oyunçusu, mənim müəllimim, parkda gəzmək, ağacların çiçəkləri, mətnin hissəsi, Azərbaycanın bayrağı, dəftərin üzü, sinifdə əyləşmək, şeiri əzbərləmək*

Layihə

# Qədim dövrün abidələri

**1 a Qədim Misir piramidaları haqqında nə bilirsiniz? Daha nəyi bilmək istəyərdiniz?**

## Misir ehramları



Qədim Misirdə hökmdarları firon adlandırırdılar. Fironları dəfn etmək üçün ehramlar tikirdilər. Bu ehramlar piramida şəklində olurdu.

Vəfat edən fironu qiymətli əşyaları ilə birlikdə ehramın içindəki salonlardan birində saxlayırdılar. Fironların bədəni xüsusi maddə ilə mumiyalanırdı. Bu maddə dərini mikroblardan qoruyur, cəsədi çürüməyə qoymurdu.

Bir çoxları fironun qızıl əşyalarını oğurlamaq üçün onun saxlanıldığı otağı tapmağa çalışırdılar. Lakin bu heç də asan deyildi. Çünki ehramın içində labirintşəkilli dəhlizlər və salonlar var idi. Otağın yerini dəqiq bilməyən hər kəs labirintə düşürdü. Həftələrlə, aylarla labirintdən çıxa bilməyib acından ölürdü.



Misirin ən böyük ehramı Xeops ehramıdır. Bu ehram e. ə. XXVI əsrdə firon Xeopsun şərəfinə tikilmişdir. Piramidanın hündürlüyü 140 metr, hər tərəfinin uzunluğu isə 230 metrdir. Bu ehram qədim dünyanın ən böyük tikilisi sayılır. Ehram daş bloklardan tikilmişdir. Ən yüngül blokun çəkisi 2,5 ton, ən ağırı isə 15 tondur. Buraya ehramın şimal tərəfində yerləşən girişdən daxil olmaq mümkün idi.



### Söz ehtiyatı

**b “Söz mücrüsü”ndən izahlara uyğun sözləri seçin.**

**1.** Qədim Misir padşahlarına verilən ad
**2.** Qədim Misirdə fironların nəhəng məqbərəsi; piramida
**3.** Çürüməmək üçün cəsədə xüsusi maddələr sürtmək
**4.** Şəhərtipli yaşayış məntəqəsi

Layihə

Bəs, görəsən, qədim insanlar bu ağırlıqda daşları necə yonmuş, necə daşımışlar? Yükqaldıran kranlar olmadan bu daşları yuxarı necə qaldırmışlar? Alimlər bu suallara indiyə qədər birmənalı cavab tapa bilməmişlər.



Bəzi alimlərin fikrincə, qədim Misirdə elm və texnika yüksək inkişaf etdiyi üçün bu möcüzəni yaratmaq mümkün olmuşdur.

Arxeoloqlar qazıntı zamanı Cizə yaxınlığında kiçik bir qəsəbənin qalıqlarını tapmışlar. Bu qalıqlara əsasən buranın inşaatçılar və sənətkarlar qəsəbəsi olduğunu müəyyən etdilər. Görünür, qədim Misirdə, doğrudan da, inşaatçılıq sənəti yüksək səviyyədə imiş.

Bununla yanaşı, fironların yad planetdən gəldiyini düşünənlər də var. Onlar belə hesab edirlər ki, piramidalar yadplanetlilər tərəfindən tikilmişdir.

Göründüyü kimi, müasir elm nə qədər inkişaf etsə də, qədim dünyanın bütün sirlərini açmaqda gücsüzdür.

**Söz mücrüsü**

- firon
- ehram
- cəsəd
- mumiyalamaq
- arxeoloq
- qəsəbə
- yadplanetli
- labirint

**c** **Şəkilləri "Söz mücrüsü"ndəki müvafiq sözlərlə uyğunlaşdırın.**







Layihə

## Nə anladın?

**ç** **Mətnin məzmununa əsasən suallara cavab verin.**

**1.** Qədim Misirdə dövləti kim idarə edirdi?
**2.** Ehramlar hansı məqsədlə tikilirdi?
**3.** Misirin ən böyük ehramı necə adlanır?

## Düşün və cavab ver

**d** **Mətnə istinad edərək aşağıdakı fikirləri əsaslandırın və “Misir ehramları” mətninin qeyri-bədii mətn olduğunu sübut edin.**

***Qeyri-bədii mətndə:***

- Müəllifin əsas məqsədi hər hansı bir varlıq haqqında məlumat verməkdir.
- Mətndə fərziyyə və arqumentdən istifadə edilib.
- Mətndə faktlar verilib.
- Faktların həqiqiliyini internet, ensiklopediya və s. vasitəsilə yoxlamaq olar.

**2 a** **Sözləri verilmiş izahlarla uyğunlaşdırın.**

*1. Səyahət* *2. Səyahətçi* *3. Səyahətnamə*

**a.** Müəllifin səyahət zamanı gördüyü hadisələrə dair yazdığı kitab
**b.** İstirahət və ya tanışlıq məqsədilə uzaq yerlərə edilən səfər
**c.** Səyahət edən, səyahətə çıxan adam

**b** **Mətni oxuyun. Suallara cavab verin.**

***Övliya Çələbi***

Övliya Çələbi XVII əsrdə yaşamış səyyah, tarixçi və yazıçı olmuşdur. O, 1611-ci ildə Türkiyədə, İstanbul şəhərində dünyaya göz açmışdır. Çələbi əvvəlcə mədrəsədə, daha sonra isə saray məktəbində təhsil almışdır.

Avropanın, Qafqazın, Afrikanın bir çox ölkələrinə səyahət etmişdir. Gəzdiyi yerlər barədə təəssüratlarını 10 cildlik "Səyahətnamə" əsərində qeyd etmişdir.

Övliya Çələbi 1682-ci ildə Misirdə vəfat etmişdir.



**1.** Övliya Çələbi kim idi?
**2.** O hansı bölgələrə səyahət etmişdi?
**3.** Çələbi hansı əsərin müəllifidir?

Layihə

# Piramidanın labirintlərində

...Xəritəni çıxarıb qumun üstünə sərdim. Xəritədə piramidanın dörd qapısı təsvir olunmuşdu. Gördüm ki, şimal qapısından girsəm, xəzinəyə daha tez çataram. Digər qapılardan girsəm, aza bilərəm.

Əlimdə xəritə piramidanın qapısı ağzında dayanmışdım. Ehram o qədər böyük idi ki, yanında mən qarışqa boyda olardım. Qapını nə qədər itələdimsə də, açılmadı. "Əgər belə açılmırsa, deməli, qapının üstündə bir işarə olmalıdır", – deyə düşündüm. Doğrudan da, qapının üzərində bir ulduz işarəsi vardı. Əlimi onun üstünə qoyan kimi qapı yavaş-yavaş açıldı. İçəri çox qaranlıq idi. Çəkinə-çəkinə içəri girdim. Arxamca qapı yavaşca bağlandı. İçəridə göz gözü görmürdü. Bəs indi necə hərəkət edəcəkdim? Qaranlıqda xəritəyə də baxa bilmirdim.

Birdən kiçik bir yerdən işıq sızmağa başladı. Bu işıq getdikcə böyüdü və içərini aydınlatdı. Ehtiyatla irəliyə doğru addımladım. Elə bir neçə addım atmışdım ki, səs eşidildi:

– Bu otaqdan keçə bilmək üçün bir suala cavab verməlisən.

Mən ayaq saxladım. Səs davam etdi:

– Suya rəsm çəkilərmi?

Bir xeyli düşündüm. Vaxt gedirdi. Cavab verə bilməsəm, nəinki xəzinəyə çata, heç geri dönə bilməzdim.

– Son beş saniyən qaldı. Cavab ver, yoxsa...

– ...

– Son bir saniyən.

Tez həyəcanla dedim:

– Çəkilə bilər.

– Necə?

– Ebru ilə çəkilər.

– Bildin. İndi o biri otağa keçə bilərsən.



**Söz mücrüsü**

- göz gözü görməmək
- çəkinə-çəkinə
- sızmaq
- heyifsilənmək
- aydınlatmaq
- ebru
- ləl-cəvahirat
- qamaşmaq

Layihə



Növbəti otağın qapısı açıldı. Otağın ortası ilə çay axırdı. Onun bir tərəfindən digər tərəfinə keçmək üçün ensiz körpü var idi. Çayın içi timsahlarla dolu idi. Aşağıya baxmadan körpünü keçdim.

O biri otağa daxil oldum. Bu otağın küncündə bir sandıq qoyulmuşdu. Deyəsən, məqsədimə çatmışdım. Bir azdan dünyanın ən varlı insanı olacaqdım. Yenə həmin səs eşidildi:

– Növbəti suala da cavab tapsan, sandığı aça bilərsən. Göy üzündə nə qədər ulduz var?

Bunu haradan biləcəkdim ki?! Ulduzları saymaqmı olar? Bir qədər düşünüb cavab verdim:

– Səhradakı qum dənələri qədər.

Sandığın qapağı yavaş-yavaş açılmağa başladı. Ləl-cəvahiratın işığı gözlərimi qamaşdırdı. Bir də baxdım ki, sandığın içindəkilər sanki quyuya tökülürmüş kimi aşağı axır. Özümü toplayıb əlimi uzadınca sandıqda heç nə qalmamışdı.

– Axı niyə? – deyə qışqırdım.

Yenə həmin səs cavab verdi:

– Heyifsilənmə. Sandığın dibindəki məktubu götür və oxu.

Zərfi götürüb açdım. Orada yazılmışdı: “Ey xəzinə ovçusu, ruhdan düşmə. Əslində, bu bir oyun idi. Sən də biliyin ilə bu oyunu qazandın. Var-dövlət isə gəldi-gedərdir”.



*Övliya Çələbinin “Səyahətnamə” əsəri əsasında işlənmişdir.*

Layihə

## Söz ehtiyatı

**c** **Nöqtələrin yerinə "Söz mücrüsü"ndən müvafiq sözləri artırmaqla cümlələri tamamlayın.**

**1.** Zəhmətim hədər getdiyinə görə mən çox ... .
**2.** Qar elə parıldayırdı ki, gözlərimi ... .
**3.** Cavabıma əmin olmadığıma görə ... danışırdım.
**4.** Gecə olmasına baxmayaraq, ayın işığı ətrafı ... .

## Nə anladın?

**ç** **Mətnə əsasən suallara cavab verin.**

**1.** Çələbi nə üçün piramidalara səfər etmişdi?
**2.** Nə üçün Çələbi piramidaya məhz şimal qapısından girməyə qərar verdi?
**3.** Səyahət zamanı Çələbi hansı təhlükələrlə rastlaşdı?
**4.** Çələbi hansı sualları cavablandırdı?

**3** **a** **Mətnin planının düzgün ardıcıllığını müəyyən edin. Mətni plan əsasında nəql edin.**

- Məktub
- İlk sual
- Piramidaya giriş
- İkinci sual
- Təhlükəli körpü

## Dinləmə

**b** **Verilmiş şəkli oxuduğunuz mətnin müvafiq epizodu ilə əlaqələndirin. Həmin epizodda ebru sənəti haqqında hansı məlumat verilir? Bu sənət növü haqqında bildiklərinizi danışın.**



**c** **"Ebru sənətinin tarixi" mətnini dinləyin. Aldığınız məlumatlara əsasən cədvəli tamamlayın.**

| Ebru sənəti haqqında əldə etdiyim məlumatlar | |
|---|---|
| ***Oxu mətnindən*** | ***Dinləmə mətnindən*** |
| | |

Layihə

## Düşün və cavab ver

**ç** **Mətndən müvafiq epizodları danışmaqla baş qəhrəmanın keçirdiyi hissləri təsvir edin.**

**d** **Mətnə istinad etməklə aşağıdakı fikirləri əsaslandırın və "Piramidaların labirintlərində" mətninin bədii mətn olduğunu sübut edin.**

- Müəllifin əsas məqsədi oxucunu müəyyən mənəvi dəyər haqqında düşündürməkdir.
- Müəllif hadisələri təxəyyülünə əsasən təsvir edib.
- Mətndə dialoqlara, obrazın düşüncələrinə yer verilib.
- Mətndə fotoşəkillərdən deyil, rəssamın çəkdiyi illüstrasiyalardan istifadə edilib.

**e** **"Misir ehramları" mətnindən verilmiş faktlara bir daha nəzər salın. "Piramidaların labirintlərində" mətnində bu faktların əks olunduğu hissələri oxuyun.**

**1.** Ehramın içində labirintşəkilli dəhlizlər, salonlar var.
**2.** Piramidaya şimal tərəfində yerləşən girişdən daxil olmaq mümkündür.
**3.** Fironun cəsədini qiymətli əşyaları ilə birlikdə salonlardan birində saxlayırdılar. Bir çoxları qızıl əşyaları əldə etmək üçün bu otağı tapmağa cəhd edirdilər. Otağın yerini dəqiq bilməyən hər kəs labirintə düşür, buradan çıxa bilməyib məhv olurdu.

## Araşdırma

**4 a** **Artemis məbədi haqqında araşdırma aparın. Əldə etdiyiniz faktlara və məlumat vərəqinə əsasən Artemis məbədi haqqında qeyri-bədii mətn yazın.**

### Artemis məbədi



**Yerləşdiyi şəhər:** Efes (Türkiyə)
**İnşa tarixi:** e. ə. V əsr
**Memarlıq özəllikləri:** 127 mərmər sütun, daxilində Artemisin heykəli
**Ölçüsü:** Binanın uzunluğu – 100 m.
Eni – 51 metr.
Sütunların hündürlüyü – 18 metr.
**Əlavə məlumatlar:** E. ə. 356-cı ildə yandırılıb.
Məbədin qalıqları Londonda, Britaniya muzeyində saxlanılır.

**b** **Bir-birinizin yazısını aşağıdakı meyarlara əsasən yoxlayın.**

**Təlimat:**
- Mətnin giriş hissəsində mövzunu təqdim edin.
- Məlumatları yarımbaşlıqlar altında qruplaşdırın.
- Mətni orfoqrafik normalara uyğun yazın.

Layihə

**5 a** **Sizcə, aşağıdakı suallar hansı cümlədəki söz sırasına uyğundur?**

***kim? haradan? neçə? nə? nə etdi?***

**a.** Uşaqlar həmin pilləkənlərlə aşağı düşdülər.
**b.** Azərlə babası meşəyə yollandılar.
**c.** Zaur məktəb kitabxanasından iki kitab götürdü.

**Bunları bilməliyik** CÜMLƏ ÜZVLƏRİ

Cümləni yaradan söz və ya söz birləşməsi cümlə üzvləri adlanır. Hər bir cümlə üzvü müəyyən suala cavab verir. Məsələn:

*Otağın küncündə bir sandıq qoyulmuşdu.*

***harada? neçə? nə? nə edilmişdi?***

Cümlədəki əsas fikri ifadə edən cümlə üzvləri baş üzvlər adlanır. Baş üzvlər cümlənin qrammatik əsasını təşkil edir:

***Bakı** olduqca gözəl **şəhərdir.***
***Ziba** mehribanlıqla **gülümsəyirdi**.*

***mübtəda*** ***xəbər***

**b** **Cümlələrdə altından xətt çəkilmiş söz və söz birləşmələrinin sualını müəyyən edin.**

**1.** *Uşağın əlləri* moruğun şirəsinə *bulaşdı.*
**2.** *Günayın qardaşı* Şuşa uğrunda döyüşdə *iştirak etmişdi.*
**3.** *Məktəbimizin idman zalı* çox *genişdir.*
**4.** Dağın zirvəsində *Azərbaycan bayrağı* *dalğalanırdı.*

**c** **Cümlələrin qrammatik əsasını müəyyən edib yazın.**

**1.** Uşaqlar skamyada oturub şirin-şirin söhbət edirdilər.
**2.** Əlimi işarənin üstünə qoyan kimi qapı yavaş-yavaş açıldı.
**3.** Sinif yoldaşım Arzu çox çalışqan, məsuliyyətli qızdır.
**4.** Sabir söhbəti yarımçıq kəsərək otaqdan çıxdı.
**5.** Uşaq onun dediklərini sözbəsöz təkrar edirdi.

**ç** **Uyğun sözlər artırmaqla cümlələri tamamlayın.**
**Əlavə etdiyiniz sözün hansı cümlə üzvü olduğunu müəyyən edin.**

**1.** Sürücü maşını asta-asta ... .
**2.** ... sevimli şagirdindən belə cavab gözləmirdi.
**3.** ... xəstəni müayinə edib resept yazdı.
**4.** Mən kitabxanadan yeni kitab ... .

Layihə

**1 a** **Günəş sistemində Yerdən başqa hansı planetlər var? Bu planetlər haqqında bildiklərinizi danışın.**

**b** **Mətnin hissələrini oxuyun və məzmununa uyğun yarımbaşlıqla adlandırın.**



## Yaşılgözlü qız

**I hissə** Planetlərin, ulduzların arası ilə kosmik gəmi uçurdu. Yaşılgözlü balaca qız gəminin dairəvi şüşəsindən ətrafı seyr edirdi.

– Ulduzları yaxından görmək necə də maraqlıdır! Kan, bu səyahətə məni də götürdüyünə görə sənə çox minnətdaram! – deyə o, qardaşına təşəkkür etdi.

Kan gülümsədi:

– Kainat bir möcüzədir, Lemi. Ulduzlar, planetlər...

Onların Günəş sistemində gördüyü ilk planet Neptun oldu. Lemi açıq-mavi rəngli bu planetin gözəlliyinə heyran qaldı. Sonra yaşılımtıl-mavi planet – Uran göründü. Daha sonra sıra ilə Günəş sistemindəki digər planetlərlə qarşılaşdılar.

– Bəs Yer planeti hanı? – deyə Lemi səbirsizliklə soruşdu.

– Yer planeti bu saat Günəşin o biri tərəfindədir. Biz onu görmək üçün Günəşin ətrafına dolanmalıyıq.

Bir qədər sonra Kan Lemini səslədi:

– Lemi, qarşıya bax! Bu, Yerdir!

Onlar Yer planetinə yaxınlaşıb onun ətrafında dolanmağa başladılar.

Birdən kosmik gəmidə qəza baş verdi. O, istiqamətini dəyişib Yerə doğru yönəldi. Kan cəld cihazların arxasına keçdi. Gəmini idarə etməyə çalışdı. Amma cihazlar sözə baxmırdı. Kan öz planetinə həyəcan siqnalı göndərib kömək istədi. Sonra xilasedici paraşüt-şarları çıxardı:

– Şarın içinə keç, Lemi! Səhv etmə, hər şeyi təlimata uyğun elə! Vaxtında kömək gəlməsə, biz paraşüt-şarların içində gəmidən kənara atılmalıyıq.

Layihə

Onlar şarların içinə girib gözləməyə başladılar. Lakin Lemi tələsib düyməni basdı. Xilasedici şar bir göz qırpımında gəmidən kənara atıldı. Yavaş-yavaş Yerə enməyə başladı. Leminin qolundakı saat yanıb-söndü. Kan həyəcanla qışqırdı:

– Lemi, Lemi, sən neylədin?! Niyə tələsdin?! Bizi xilas etdilər. Gəmi geri qayıdır! Özündən muğayat ol, Lemi! Tezliklə sənin dalınca gələcəyəm! Saatı qolundan çıxarma!..

Lemi çaşqın halda gəminin arxasınca baxdı. Bir neçə saniyədən sonra əlaqə kəsildi: o daha Kanın səsini eşitmirdi. Paraşüt-şar yavaş-yavaş Yerin səthinə endi...



**II hissə** Böyük məktəb binasının həyəti uşaqlarla dolu idi. Lemi darvazanın ağzında dayanıb onlara baxırdı. Bir azdan zəng vuruldu. Uşaqlar siniflərə doğru qaçdılar. Həyətdə tək bircə qız qaldı. Bu, dördüncü sinifdə oxuyan Aysel idi. O, pilləkəndə oturub əlindəki telefonla oynayırdı. Lemi cəsarətini toplayıb Aysələ yaxınlaşdı:

– Nə qəribə cihazdır! Bu nə üçündür?

Aysel təəccübləndi:



– Heç ömründə telefon görməmisən?

– Yox!

– Sən bəyəm Aydan gəlmisən?

– Aydan yox, Ay bura yaxındır. Mən daha uzaqdan gəlmişəm.

Qəflətən telefon zəng çaldı. Aysel telefonu qulağına apardı:

– Hə, ana, məktəbin həyətindəyəm. Kənanı gözləyirəm, narahat olma.

Leminin gözləri güldü:

– Demək, bu cihaz danışmaq üçündür. Mənim planetimdə adamlar bir-biri ilə saatla əlaqə saxlayırlar, – deyə o, qolundakı saatı göstərdi.

Aysel heyrətlə Lemiyə baxdı: “Doğrudanmı, o, başqa planetdən gəlmişdir?” – deyə düşündü.

Layihə

Bir qədər sonra Kənan gəldi. Aysel qardaşını kənara çəkib onunla xeyli pıçıldaşdı. Kənan bir-iki dəfə çevrilib Lemiyə baxdı. Sonra çiyinlərini çəkib əllərini yellədi.

Onlar qərara gəldilər ki, Lemini hələ gizli saxlasınlar. Kənan dedi:

– Lemi hələlik qonşumuz Aida xalanın yanında qalsın. Onun ailəsi Almaniyadadır. Ona deyərik ki, Lemi Köln şəhərindən qonaq gəlib. Qalmağa yer axtarır. O da yaşlı qadındır, təkdir, nəvələri üçün darıxır. Lemini heç yerə buraxmayacaq. Yanında qalmasını istəyəcək.

Belə də etdilər. Aidə xala Lemini mehribanlıqla qarşıladı.

Evdə Kənan anası ilə yadplanetlilər haqqında söhbət apardı:

– Ana, səncə, yadplanetlilər mövcuddur?

– Yox, oğlum. Bunlar hamısı uydurmadır. Hərdən bəziləri deyir ki, uçan boşqab gördüm, yadplanetli ilə görüşdüm. Hətta buna aid şəkillər, filmlər də var. Amma heç biri sübut olunmayıb. Belə şeylərə heç vaxt inanmamışam.

**III hissə** Bir gün uşaqlar Lemini özləri ilə birlikdə məktəbə apardılar. Sinif yoldaşları bu sarışın qızı mehriban qarşıladılar. Birinci dərs riyaziyyat idi. Şagirdlər məsələ həllinə başladılar. Müəllim Lemidən soruşdu:

– Bizim uşaqlara bir neçə sadə məsələ deyə bilərsənmi?

Lemi lövhənin qarşısına çıxdı:

– Avtomobil birinci saat 460 km, ikinci saat bundan 30 km artıq sürətlə getdi. Avtomobil iki saata nə qədər məsafə qət etdi?

Uşaqlar gülüşdülər:

– Bu, avtomobildir, yoxsa raket?

Bu məsələni həll etdikdən sonra lemi ikinci məsələni söylədi:

– Atanın 160, oğulun 120 yaşı var. 10 ildən sonra onların birlikdə neçə yaşı olacaq?

Uşaqlar bayaqkından daha möhkəm güldülər:

– Bu ata-balanı “Ginnesin rekordlar kitabı”na salmaq lazımdır.

Aysel yerindən qalxıb vəziyyəti düzəltməyə çalışdı:

– Lemi məsələni Azərbaycan dilinə çevirəndə rəqəmləri səhv salır. Yəqin atanın 60, oğulun 20 yaşı var.

Tənəffüsdə Aysel Lemini kənara çəkib bəzi məsləhətlər verdi.




Layihə

## Nə anladın?

**c** **Mətnə əsasən aşağıdakı sualları cavablandırın.**

**1.** Lemi nə üçün qardaşından ayrı düşdü?
**2.** Lemi Aysellə harada tanış oldu?
**3.** Lemi Ayselin əlində telefon görəndə nə üçün təəccübləndi?
**4.** Leminin planetində insanlar bir-biri ilə necə əlaqə saxlayırdılar?
**5.** Uşaqlar Leminin harada qalmasına qərar verdilər?

## Düşün və cavab ver

**ç** **Sizcə, nə üçün uşaqlar Leminin yadplanetli olduğunu gizli saxladılar?**

**d** **Leminin qurduğu riyazi məsələlərə əsasən onun yaşadığı planet haqqında hansı məlumatları almaq olur?**

## Dinləmə

**2 a** **Sizcə, Leminin Yer planetində sərgüzəştləri nə ilə bitəcək? Hadisələrin davamını təxmin edin.**

**b** **“Yaşılgözlü qız” mətninin ardını dinləyin və öz variantınızla müqayisə edin.**

**c** **Suallara əsasən “Yaşılgözlü qız” mətninin məzmununu nəql edin.**

**1.** Kənan Kan ilə necə əlaqə yaratdı?
**2.** Kənan kimdən kömək istədi?
**3.** Lemi kosmik gəminin yaxınlaşdığını necə anladı?
**4.** Lemi vidalaşanda uşaqlara nə hədiyyə etdi?

## Yazı

**3 a** **Təsəvvür edin ki, yadplanetli ilə qarşılaşmısınız. Bu haqda hekayə yazın.**

**Təlimat:**
- Hekayəni yazmaqda məqsədinizi (əsərin ideyasını) müəyyən edin.
- Hadisələrin baş verdiyi məkanı təsvir edin.
- Hekayənin əsas qəhrəmanını təsvir edin.
- Yadplanetlini və onun gəldiyi kosmik gəmini ətraflı təsvir edin.



Layihə

**4 a Hansı cümlədə xəbər cümlənin ortasında işlənib?**

1. El igidləri ilə tanınar. *(Atalar sözü)*
2. Dahilər heç bir işi yarımçıq görmürlər. *(Viland)*
3. Yolunuz düşdümü bizim Şirvana? *(Səməd Vurğun)*

**Bunları bilməliyik** CÜMLƏDƏ SÖZ SIRASI

Cümlədə cümlə üzvləri müəyyən ardıcıllıqla sıralanır. Adətən, mübtəda cümlənin əvvəlində, xəbər isə sonunda gəlir.

*Orxan çətin bir məsələni həll etdi.*

*mübtəda* (Orxan) — *xəbər* (həll etdi)

**b Şeirin hansı misralarında söz sırası pozulub? Həmin cümlələri düzgün söz sırası ilə yazın.**

Günəş doğdu, yayıldı,
Yatan ellər ayıldı.
Açdı çiçəklər, güllər,
Dilə gəldi bülbüllər.
*Səməd Vurğun*

**Bunları bilməliyik** CÜMLƏNİN MƏQSƏD VƏ İNTONASİYAYA GÖRƏ NÖVLƏRİ

**Nəqli cümlə** məlumat vermək məqsədi daşıyır, sonunda nöqtə qoyulur.
*Uşaqlar analarına kömək etdilər.*
**Sual cümləsi** məlumat almaq məqsədi daşıyır, sonunda sual işarəsi qoyulur.
*Səidə hara tələsir?*
**Əmr cümləsi** göstəriş, tapşırıq verir, sonunda nöqtə qoyulur.
*Qapını yavaş örtün.*
**Nida cümləsi** hiss-həyəcan ifadə edir, sonunda nida, ya da sual və nida işarəsi qoyulur.
*Ura, biz qalib gəldik!*

**c Cümlələrin növünü müəyyən edin. Sonunda uyğun durğu işarələri qoymaqla cümləleri köçürün.**

1. Gülnar yavaş-yavaş ceyrana yaxınlaşdı
2. Bəh-bəh, çox dadlıdır
3. Nə üçün məhz bu kitabı seçdin
4. Otağını səliqəli saxla

Layihə

## Ümumiləşdirici təkrar

**1** **Söz birləşmələrini seçib oxuyun.**

1. nahar etmək
2. idman malları mağazası
3. fikirləşirəm
4. yamyaşıl ot
5. Adilgilin həyəti
6. şaxtalı qış günüdür
7. on birinci
8. ağappaq

**2** **Söz birləşmələrinin əsas və asılı tərəfini müəyyən edin. Asılı tərəfini dəyişməklə yeni söz birləşmələri yaradın.**

1. dərs hazırlamaq
2. yaşıl karandaş
3. ananın məsləhəti
4. qartalın iti gözləri
5. eyvanda oturanda
6. Bakı şəhəri
7. səliqəli otaq
8. ağacın kökü
9. irəli getmək

**3** **Hansı cümlədə mübtəda söz birləşməsi ilə ifadə olunub?**

a. Günlərin bir günü bu çəmənliyə bir ovçu gəldi.
b. Baba küçə ilə yuxarıya doğru irəlilədi.
c. Atasının sözləri ona təsir etmişdi.
d. O quşlar sürətlə uçub gözdən itdilər.

**4** **Cümlələrin qrammatik əsasını müəyyənləşdirin.**

1. Rəhman müəllim şagirdi Nadir ilə qarşılaşdı.
2. Qayaüstü rəsmlərdə müxtəlif heyvanlar təsvir olunub.
3. Günəşin zəif şüaları qarın üzərinə düşürdü.
4. Saat beşdə Aqil idman paltarını geyinib evdən çıxdı.

**5** **Misralarda söz sırasını bərpa etməklə cümlələri köçürün.**

Getdi qışın ayazı.
Parladı ilin yazı.
Əridi dağlarda qar.
Bulanıq sellər axar.

Yaz xoş xəbərlə gəlmiş,
Canlanır hər yanda iş.
Traktorlar səslənir.
Qoyun-quzu bəslənir.

*Abdulla Şaiq*

**6** **Verilmiş cümlələri qruplaşdırın.**

1. Kim bizimlə gedəcək? 2. Ura, tapdıq! 3. Kömək edin! 4. Məktəbin iclas zalında idik. 5. Xalqımızın ən əziz bayramlarından biri Novruzdur. 6. Gəlin birlikdə teatra gedək. 7. Çürümüş meyvələri seçib bu qutuya yığın. 8. İşlərini nə vaxt bitirəcəksən? 9. Yaşasın Azərbaycan ordusu! 10. Külək bala sərçəni yuvasından yerə salmışdı.

| Nəqli cümlə | Sual cümləsi | Əmr cümləsi | Nida cümləsi |
|---|---|---|---|
| | | | |

Layihə

# İZAHLI SÖZLÜK

İxtisarlar: *is. – isim; sif. – sifət; z. – zərf, f. – feil, fr. – frazeoloji birləşmə*

**abidə** *is.* – qədim dövrlərə aid mədəniyyət əsəri.
**acığı tutmaq** *fr.* – hirslənmək, qəzəblənmək.
**acıq vermək** *fr.* – qəsdən hirsləndirmək, acıqlandırmaq.
**ağ günə çıxmaq** *fr.* – firavan yaşamaq.
**arxeoloq** *is.* – maddi mənbələr əsasında bəşəriyyətin tarixi keçmişini öyrənən alim.
**arpa** *is.* – yazlıq taxıl bitkisi.
**aşkar etmək** *f.* – üzə çıxarmaq, müəyyənləşdirmək.
**atəşgah** *is.* – atəşpərəstlərin ibadət etdikləri məbəd.
**atəşpərəstlik** *is.* – oda sitayiş, atəşpərəstlərin dini.
**aydınlatmaq** *f.* – işıqlandırmaq, nurlandırmaq.
**başına iş gəlmək** *fr.* – çətin vəziyyətə düşmək.
**başının üstünü kəsdirmək** *fr.* – yanından ayrılmamaq, daim nəzarət etmək.
**bəla** *is.* – uğursuzluq, bədbəxtlik, müsibət, fəlakət.
**bərbər** *is.* – baş və üz qırxmaq peşəsi ilə məşğul olan adam; dəllək.
**bərəkətli** *sif.* – məhsuldar, bol-bəhrəli; münbit.
**bərpa** *is.* – təmir, yenidənqurma, əvvəlki halına salma.
**buxov** *is.* – atların ayağına vurulan qandal.
**bünövrə** *is.* – özül, əsas, təməl.
**bürc** *is.* – qala divarları üzərində müşahidə qülləsi.
**cəsəd** *is.* – meyit, ölünün bədəni.
**çapmaq** *f.* – balta və ya külünglə parçalamaq.
**çəkinə-çəkinə** *z.* – ehtiyatla, qorxa-qorxa.
**çəpər** *is.* – bir yerin ətrafına çəkilən divar; barı, hasar.
**daxma** *is.* – balaca, sadə ev; koma.
**dam** *is.* – həbsxana, qazamat.
**dəyirman** *is.* – dəni üyüdüb una çevirmək üçün qurğu.
**diribaş** *sif.* – çevik, zirək, bacarıqlı.
**ebru** *is.* – qatılaşdırılmış su üzərində xüsusi boyalarla rəsm çəkmək sənəti.
**ehmallıca** *z.* – sakitcə, astadan, ehtiyatla.
**ehram** *is.* – qədim Misirdə fironlar üçün tikilən nəhəng məqbərə, sərdabə; piramida.
**əməkdaşlıq** *is.* – birlikdə işləmə.
**ərk** *is.* – birisi ilə sərbəst davranmağa (nəsihət verməyə, acıqlanmağa və s.) yol verən yaxınlıq münasibəti.
**əzab çəkmək** *fr.* – sıxıntı içində olmaq, üzülmək.
**firon** *is.* – qədim Misir hökmdarlarına verilən ad.
**fitil** *is.* – bəzi işıqlandırıcı və qızdırıcı cihazlarda (pilətə, lampa, şam və s.) yanan lent, ip, qaytan.
**gövdə** *is.* – bədən.
**göz gözü görməmək** *fr.* – çox qaranlıq, zülmət olmaq.

Layihə

**gözü su içməmək** *fr.* – şübhələnmək, etibar etməmək.
**gözü yolda qalmaq** *fr.* – kiminsə gəlişini intizarla gözləmək.
**heyifsilənmək** *f.* – təəssüf etmək, kədərlənmək.
**həmişəlik** *z.* – əbədi, daimi, müddətsiz.
**həsir** *is.* – qamışdan toxunan məmulat.
**həyata keçmək** *fr.* – icra olunmaq, gerçəkləşmək.
**xəcalət** *is.* – utanc, utanmağa səbəb olan şey.
**iki ayağını bir başmağa dirəmək** *fr.* – öz fikrindən, dediyindən dönməmək, inadkar olmaq, tərslik etmək.
**ikona** *is.* – xristianlıqda müqəddəslərin təsvir olunduğu boyakarlıq əsəri.
**iqlim** *is.* – bir yerin meteoroloji xüsusiyyətləri: havası, suyu və s.
**inşa** *is.* – tikinti.
**istehza** *is.* – ələ salma, rişxənd etmə; kinayə.
**işinə yaramaq** *fr.* – gərəkli olmaq, xeyri dəymək.
**izdihamlı** *sif.* – tünlük, basırıq, çoxlu adam olan.
**kahin** *is.* – bir sıra qədim xalqlarda din xadimi, gələcəkdən xəbər verən adam.
**koramal** *is.* – ilanabənzər ayaqsız kərtənkələ.
**kötük** *is.* – ağacın yerdən iri budaqlarına qədər olan hissəsi; oduncaq.
**qala** *is.* – müdafiə məqsədilə tikilən istehkam, məntəqə.
**qalıq** *is.* – keçmişdə mövcud olmuş bir şeydən qalan hissə(lər).
**qamaşmaq** *f.* – çox güclü işığa baxmaqdan görməz hala düşmək.
**qatran** *is.* – bəzi ağaclardan hasil edilən qara rəngli, kəskin qoxulu və yapışqanlı maddə.
**qəsəbə** *is.* – şəhərtipli yaşayış məntəqəsi.
**qısılmaq** *f.* – bir yerə sıxılmaq, büzüşmək.
**qisas almaq** *fr.* – pisliyin əvəzini çıxmaq, intiqam almaq.
**qitə** *is.* – Yer qabığının ən böyük quru sahələri.
**qulluqçu** *is.* – xidmətçi.
**quraşdırmaq** *f.* – birləşdirmək, calamaq, yapışdırmaq.
**qurğu** *is.* – müəyyən mexanizmə malik alət, cihaz.
**qüllə** *is.* – sütunşəkilli uca tikili, bina.
**labirint** *is.* – yol və keçidləri dolaşıq olan yer.
**ləl-cəvahirat** *is.* – qiymətli daş-qaş.
**ləzzət almaq** *fr.* – bəyənmək, ürəyincə olmaq.
**mazğal** *is.* – qala divarlarında və s.-də atışma üçün qoyulan deşik.
**meh** *is.* – xəfif yel, yüngül, sakit külək.
**mehtər** *is.* – ata qulluq edən adam, atabaxan.
**məbəd** *is.* – dindarların ibadət etdikləri və dini ayinləri yerinə yetirdikləri bina.
**məxsus** *sif.* – yalnız birinə aid olan.
**məməli** *is.* – balalarını öz südü ilə bəsləyən heyvan.
**məskunlaşmaq** *f.* – müəyyən bir yerdə məskən salmaq, yaşamağa başlamaq.
**məşəl** *is.* – ətrafı işıqlandırmaq üçün çubuq başına sarınaraq neftlə yandırılan əsgi.

Layihə

**möcüzə** *is.* – qeyri-adiliyi ilə heyrət doğuran bir şey.
**mövcud** *sif.* – var olan, göz qabağında olan.
**muğayat olmaq** *f.* – qorumaq, gözü üstündə olmaq.
**mumiyalamaq** *f.* – çürüməmək üçün cəsədə xüsusi maddələr hopdurmaq.
**mühasirə** *is.* – hər tərəfdən əhatə olunma, araya alınma; dövrələmə.
**müqavimət** *is.* – zorakılığa qarşı güc göstərmə.
**müqəddəs** *sif.* – ilahi qüvvəyə malik olan.
**mürəbbiyə** *is.* – keçmişdə evlərdə uşaqların təlim və tərbiyəsi ilə məşğul olan şəxs; tərbiyəçi, müəllim.
**mürəkkəb**[1] *sif.* – tərkibində çoxlu ünsürlər olan; çətin.
**mürəkkəb**[2] *is.* – yazı yazmaq üçün xüsusi rəngli maye – boya.
**nərdivan** *is.* – bir yerə qalxmaq və ya enmək üçün pilləli vəsait.
**nəvazişlə** *z.* – mehribanlıqla, məhəbbətlə.
**nişan vermək** *fr.* – göstərmək, yönəltmək, istiqamətləndirmək.
**oyuq** *is.* – oyulmuş yer; mağara, kaha.
**özgə** *sif.* – başqa, digər.
**özündən çıxarmaq** *fr.* – hirsləndirmək, əsəbiləşdirmək.
**peyk** *is.* – planet və ya ulduzun ətrafında fırlanan göy cismi.
**pristav** *is.* – keçmişdə Rusiyada yerli polis rəisi.
**ruhdan düşmək** *fr.* – bədbinləşmək, həvəsi qalmamaq.
**saçmaq** *f.* – yaymaq, səpmək (işıq, şüa haqqında).
**səbri çatmamaq** *fr.* – səbirsiz olmaq, tələsmək.
**sədd** *is.* – müxtəlif məqsədlər üçün çəkilən divar, hasar; maneə.
**səxavətli** *sif.* – əliaçıq, əlində olanı əsirgəməyən.
**sığınmaq** *f.* – təhlükədən qaçmaq üçün etibarlı bir yerdə gizlənmək; birinin himayəsi altına girmək.
**sıldırım** *sif.* – çılpaq, dik və uca.
**sızmaq** *f.* – bir şeyin arasından yavaş-yavaş, damcı-damcı keçmək, dammaq.
**sitayiş etmək** *f.* – Allaha, müqəddəslərə ibadət etmək, tapınmaq.
**siyirmə** *is.* – stolda, şkafda və s.-də girib-çıxan yeşik.
**şöhrətli** *sif.* – məşhur, tanınmış.
**şüurlu** *sif.* – dərrakəli, düşüncəli.
**taqətdən salmaq** *fr.* – çox yormaq, zəiflətmək; əldən salmaq.
**tapıntı** *is.* – axtarış nəticəsində tapılan bir şey; kəşf.
**tayfa** *is.* – qədimdə adamların qohumluq münasibətinə, dil və ərazi ümumiliyinə əsaslanan birliyi.
**təbliğ etmək** *f.* – hər hansı bir fikri, əqidəni və s.-ni yazılı və ya şifahi şəkildə yaymaq.
**təmin etmək** *f.* – lazım olan bütün şeyləri vermək.
**təntənəli** *sif.* – ruh yüksəkliyi ilə, təmtəraqlı surətdə.
**tərəddüd etmək** *f.* – qəti qərara gələ bilməmək.

Layihə

**tərk etmək** *f.* – çıxıb getmək, atıb getmək; yarımçıq qoymaq.
**təsəvvür etmək** *f.* – fikrində canlandırmaq, xəyalına gətirmək.
**tətbiq etmək** *f.* – həyata keçirmək, işlətmək.
**təyin etmək** *f.* – müəyyənləşdirmək, aydınlaşdırmaq.
**uçurum** *is.* – dik və dərin yamac; yarğan, sıldırım.
**üzəngi** *is.* – süvarinin ayağını dirəməsi üçün yəhərin iki tərəfindən asılan dəmir halqa.
**yadelli** *is.* – başqa, yad ölkədən olan; əcnəbi.
**yadplanetli** *is.* – başqa planetdən gəlmiş.
**yasavul** *is.* – keçmişdə polis, qarovulçu vəzifəsini görən şəxs; mühafizəçi, keşikçi.
**yerə-göyə sığmamaq** *fr.* – çox sevinmək, çox şad olmaq.
**yırtıcı** *is.* – başqa heyvanların ətini yeyən.
**yüyən** *is.* – atın başına keçirilən ip, cilov.
**zamin** *is.* – başqasına görə öhdəsinə məsuliyyət götürən, zəmanət verən adam.
**zehin** *is.* – düşünmə, anlama və yaddaş qabiliyyəti; dərrakə.
**zəhləsi getmək** *fr.* – sevməmək, nifrət etmək.
**zirvə** *is.* – dağın ən yüksək nöqtəsi, təpəsi.

Layihə

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 5-ci sinifləri üçün*
***Azərbaycan dili (dövlət dili) fənni üzrə***
***dərslik***

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Rafiq İsmayılov**<br>**Ülkər Nurullayeva**<br>**Reyhan Həbibli** |
| Redaktor | **Nəriman Abdulov** |
| Texniki redaktor | **Rəşad Nəbiyev** |
| Dizayner | **Səbinə Vəzirova** |
| Rəssam | **Elçin Cabarov** |
| Korrektorlar | **İradə Musalı**<br>**Fidan Məmmədova** |

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-550-02-3
Hesab-nəşriyyat həcmi 14,4. Fiziki çap vərəqi 18.
Səhifə sayı 144. Kağız formatı 57×90 1/8. Kəsimdən sonra ölçüsü: 22,0×27,5
Şriftin adı və ölçüsü: Calibri, 14 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Tirajı 900. Bakı – 2023.

Çap məhsulunu hazırlayan:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
"CN Poliqraf" MMC (Bakı ş., Şərifzadə küç., 29/31).

Layihə

Pulsuz

**Əziz məktəbli!**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!



Layihə